www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 iyul 2014-cü il Cümə axşamı № 181 (5890) Qiymətі 40 qəpik

**Xəbər**

## Vaşinqtondan Azərbaycana sərt tənqidlər gəldi

yazısı səh.2-də

**Gündəm**

### Deputatlar hökumətə və beynəlxalq birliyə çağırış etdilər



Kəlbəcərli girovların məsələsi böyüyür; həqiqi diversiya qruplarının işğal altındakı bölgələrə göndərilməsi məsələsi qaldırıldı

yazısı səh.6-da

### Həkimlərimiz Qəzzaya getməyə hazırdır

yazısı səh.3-də

*Bayram Səfərov:*

### "Azərbaycan ordusu istədiyi vaxt erməninin dərsini verəcək"

yazısı səh.11-də

### Hacıbala Abutalıbovun oğlu məhkəməni saymadı

yazısı səh.13-də

### AXC-nin yubiley tədbirində Sərdar Cəlaloğlunu danışmağa qoymadılar

yazısı səh.3-də

### Yaxın Şərqdə "Böyük Kürdüstan" projesi reallaşır

yazısı səh.5-də

### Altı ayda 6 min neftçi işdən çıxarılıb

yazısı səh.4-də

### İki gün əvvəl qətlə yetirilən kişini öz arvadı öldürübmüş

yazısı səh.14-də

### Moskvadakı metro qəzası dünyanı hərəkətə gətirib

yazısı səh.12-də

### Azərbaycanda təhlükəli xəstəlik yayıldı

yazısı səh.14-də

**Ramazan ayının 19-cu günü**

İftar 21. 25. İmsaq (azan) 4.58 (QMİ-nin cədvəli)

19-cu günün duası: "İlahi, Ramazan ayında olan bərəkətlərdən mənim qismətimi artıq et! Bu ayda xeyir əməllərin yolunu mənim üçün asanlaşdır! Və bu ayda olan yaxşı əməllərin qəbul olmasından məni məhrum etmə! Ey açıq-aşkar haqqın tərəfinə Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Hökumət varlandıqca xarici investisiyanı ölkədən çıxarır

# ABŞ ŞİRKƏTİ BAKIDAN QOVULUR

20 ildir Azərbaycanda fəaliyyət göstərən "McDermott Caspian Contractors Inc"ə yeni sifarişlərin verilməsi dayandırılıb; xarici şirkətlərin milliləşdirilməsi prosesi daha da güclənib




yazısı səh.9-da

## Heroin əməliyyatından üç generalımızın xəbəri olub

Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze antinarkotik əməliyyatından əvvəl Azərbaycana gəlib və bunu ölkə rəhbərliyi ilə razılaşdırıb; ifşa prosesində Rusiya xüsusi-xidmət orqanlarının da iştirakı haqda məlumatlar var

yazısı səh.10-da



Ariz Abdulləliyev

### 91-lərin üzvü Maksim Musayevə cavab verdi

yazısı səh.7-də



*Vəfa Quluzadə:*

### "Bəşəriyyət sanki ABŞ-dan və Avropanın maraqlarından ibarətdir"

yazısı səh.9-da



Əli Heydərov

### Azərbaycanlı "qanuni oğru"nun həbsinin pərdəarxası

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014



## İlham Əliyev Riçard Morninqstarı qəbul etdi

**Prezident İlham Əliyev iyulun 16-da ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Morninqstarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, enerji sahəsində uzun illər həyata keçirilən əməkdaşlığın önəmi qeyd olunub, əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Rasim Əliyevə "İstiqlal", Tofiq Zeynalova "Şöhrət" ordeni verildi

**Prezident İlham Əliyev Rasim Əliyevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, R.Əliyev Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə təltif edilib.**

İlham Əliyev həmçinin Tofiq Zeynalovun *(Tovuz rayonunun icra başçıs-red.)* "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

APA-nın məlumatına görə, T. Zeynalov Azərbaycanın ictimai-siyasi həyatında xidmətlərinə görə təltif edilib.

## "ASAN xidmət"ə 8 milyon manat ayrıldı

**Ölkə başçısı İlham Əliyev Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən göstərilən səyyar xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, görülən işlərin davam etdirilməsi və səyyar xidmətlərin təkmilləşdirilməsi məqsədilə Prezidentin ehtiyat fondundan "ASAN xidmət"ə regionlarda yaşayan əhaliyə səyyar xidmətlərin keyfiyyətli və davamlı şəkildə göstərilməsinin təşkili üçün 8 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Müsavatla AXCP arasındakı ədavət günbəgün böyüyür

### Partiyalar bir-birinin tədbirini boykot etdilər

**Ölkə müxalifəti tariximizin önəmli günlərindən biri olan Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaradılmasının 25 illiyində bir araya gələ bilmədi. Keçirilən yubiley tədbirləri Müsavat Partiyası və AXCP arasında yaranan uçurumun nə qədər dərin olmasından xəbər verdi. Əvvəl AXCP Müsavatın tədbirini, ardınca isə Müsavat AXCP-nin yubiley tədbirini boykot edib.**

İyulun 15-də Müsavat Partiyasının qərargahında keçirilən yubiley tədbirində dəvət olunanların bir qismi iştirak etməyib. Adında AXC hərfləri olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının tədbirə qatılmaması diqqətçəkən əsas amillərdən olub. Müsavat rəhbərliyi AXCP-nin yubiley tədbirinə dəvət olunduğunu bildirsə də, əks tərəf bunu qəbul etmir. AXCP rəhbərliyi mətbuata açıqlamalarında tədbirə dəvət olunmadıqlarını və buna baxmayaraq, Müsavat başqanı İsa Qəmbəri iyulun 16-da keçiriləcək tədbirə






dəvət etdiklərini bildirir.

Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı musavat.com-a açıqlamasında AXCP-nin iyulun 15-dəki tədbirə rəsmən dəvət olunduğunu bildirib.

Onu da qeyd edək ki, Müsavat qərargahında keçirilən tədbirə dəvət olunub, gəlməyənlərin sırasında başqa tanınmış sima da var. Bu, Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusdur. Müsavatın tədbirini boykot edib, AXCP-nin yubiley tədbirinə yüksək əhval-ruhiyyə ilə qatılaraq çıxış edən Leyla Yunus da iki partiya arasında olan intriqalarda mövqe ortaya qoyduğunu açıq şəkildə nümayiş etdirib.

❑ **Cavanşir ABBASLI**



## Vaşinqtondan Azərbaycana sərt tənqidlər gəldi

**İsveçin xarici işlər naziri Karl Bildt Vaşinqtonda Azərbaycan hakimiyyətinin əleyhinə sensasion bəyanatla çıxış edərək rəsmi Bakını sərt tənqid edib.**

Virtualaz.org saytı "Turan"a istinadən xəbər verir ki, K.Bildt Azərbaycan hakimiyyətinin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramında iştirak etmək cəhdlərinin səmimiliyinə şübhə etdiyini, bunun da "ölkədəki avtoritar rejimlə bağlı olduğunu" bəyan edib.

"Azərbaycan xüsusi tarixçədir. Onlar neft üzərində oturublar və avtoritar siyasi inkişafla məşğuldurlar. Bu da bizə problemlər yaradır" - deyə K.Bildt Vaşinqtondakı çıxışında deyib.

Atlantik Şurasının iclasında çıxış edən isveçli nazir bildirib ki, "Şərq tərəfdaşlığı" proqramı 2008-ci ildə qəbul olunduğu vaxta nisbətən indi daha çox və daha ciddi əngəllərlə üz-üzə qalıb: "Üç ölkə - Gürcüstan, Ukrayna və Moldova bu istiqamətdə fəal şəkildə irəlilədikləri halda Ermənistan Gömrük İttifaqına qoşulmağa qərar verib. Lakin İrəvanın başqa yolu da yox idi. Erməniləri Moskvaya çağırıb onları seçim qarşısında qoydular. Onları buna məcbur etdilər".

K.Bildtin sözlərinə görə, Rusiyanın enerji ehtiyatlarından birbaşa asılı olan Belarusla bağlı vəziyyət də tam aydın deyil: "Hərçənd ki, belaruslar Rusiyanın siyasi xəttinə bütövlükdə mənfi münasibət bəsləyirlər... Hazırda Rusiya Qərb dəyərlərinə ən böyük təhlükə olaraq qalmaqda davam edir və Ukraynaya qarşı aqressiya imkanlarını istisna etmir. Lakin bu, Rusiyanın, indiki Rusiyanın sonu olardı".

❑ **Virtualaz.org**



## Əlillərə daha 100 avtomobil verildi

**Dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən 100 nəfər 1941-1945-ci illər Böyük Vətən müharibəsi əlili və onlara bərabər tutulan şəxslər "Naz-Lifan" markalı minik avtomobili ilə təmin edilib.**

Nazirlikdən "APA-ya verilən məlumata görə, bunlardan 52 nəfəri Böyük Vətən müharibəsi əlili, 5 nəfəri Çernobıl əlili, qalanları isə hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olanlardır.

Avtomobillərin təqdim olunması zamanı qeyd olunub ki, Azərbaycan prezidentinin 23 dekabr 2013-cü il tarixli sərəncamına əsasən, ƏƏSMN tərəfindən bu ilin aprel-may aylarında 677 nəfər Qarabağ müharibəsi və 20 Yanvar əlilinə minik avtomobili verilib. Bununla da cari ilin əvvəlinədək növbədə olan Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin avtomobillə tam təminatına nail olunub.

Ötən aydan etibarən Azərbaycan prezidentinin "1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 30 aprel 2014-cü il tarixli sərəncamının icrasına başlanılıb. 2014-cü ilədək növbədə dayanmış Böyük Vətən müharibəsi əlili və onlara bərabər tutulan şəxslərdən bu gün verilən avtomobillər də daxil olmaqla, artıq 423 nəfərinin avtomobillə təminatı həyata keçirilib və belə şəxslərin avtomobillə tam təminatının gələn ay başa çatdırılması planlaşdırılır. Ümumilikdə son 3 ay yarım ərzində avtomobillə təmin olunanların sayı 1100 nəfərə çatıb.

## ABŞ səfirliyi qrant qalmaqalına aydınlıq gətirdi

**ABŞ-ın Azərbaycandakı səfirliyi son zamanlar ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) qrant proqramı ilə bağlı mətbuatda müşahidə olunan yalnış hesabatlara və anlaşılmazlıqlara aydınlıq gətirib. Səfirlikdən ANS PRESS-ə daxil olan məlumatda bildirilir ki, təkliflərlə müraciət prosesində, habelə təkliflərin toplanmasında heç bir qeyri-nizamilik və ya uyğunsuzluk yer almayıb. Dünyada qəbul olunmuş bütün standart prosedurlara riayət edilib və sözügedən proses tam ədalətli və şəffaf olub.**

Məlumatda qeyd edilir ki, Azərbaycan Mətbuatına Dəstək Fəaliyyəti proqramı barədə ictimayyətə 2014-cü ilin may ayının 21-də məlumat verilib. Standart prosedura uyğun olaraq qrant barədə məlumat www.grants.gov saytında və USAİD-in Azərbaycandakı facebook səhifəsində elan olunub. Həmçinin iyunun 10-da proqram barədə məlumat USAİD-in Azərbaycandaki veb səhifəsində də yerləşdirilib. Təkliflərin qəbulu vaxtı 2014-cü ilin may ayının 21-dən iyulun 7-nə kimi idi.

Qeyd edək ki, mətbuatda yer alan xəbərlərdə bildirilir ki, USAID-in Azərbaycanda müstəqil medianın inkişafı üçün ayırdığı 2,4 milyon dollarlıq qrant müsabiqəsində hansı təşkilatın qalib gəldiyi məlum deyil.

## Bu gün Elmar Hüseynovun ad günüdür

### Həmkarları saat 10-da onun məzarını ziyarət edəcək

**İyulun 17-də "Monitor" jurnalının mərhum baş redaktoru Elmar Hüseynovun ad günüdür. Hər il bu tarixdə Elmar Hüseynov Fondunun rəhbərliyi, habelə media nümayəndələri E.Hüseynovu məzarı başında ziyarət edib, bu tarixi yada salırlar. Bu il ənənənin dəyişib-dəyişmədiyini dəqiqləşdirmək üçün fondun həmtəsisçisi Şahbaz Xuduoğlu ilə əlaqə saxladıq.**

Şahbaz bəy bildirdi ki, hazırda Azərbaycanda deyil. Müsahibimiz bu səbəbdən də sözügedən tədbirin təşkili üçün Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun(RATİ) sədri Emin Hüseynova bu barədə yazdığını dedi: "Ona yazmışdım ki, ayın 17-də, saat 12-də Elmarın məzarına ziyarət təşkil etməklə bu tarixi qeyd etsinlər. Çünki hər il ənənəvi tədbirdə Emin Hüseynov da iştirak edirdi. Ondan hələ cavab almadığım üçün bu barədə konkret nəsə deyə bilməyəcəm".

Amma Ş.Xuduoğlu E.Hüseynovun atası Sabir Hüseynovla əlaqə saxlayaraq, ona ölkədə olmadığı üçün ad günü tədbirində iştirak edə bilməyəcəyini deyib. Müsahibimiz mərhum jurnalistin ad günü ilə bağlı anım ziyarətinə ailə üzvlərinin qatılacağını bildirdi.

E.Hüseynov isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, anım ziyarəti səhər saat 10.00-da baş tutacaq. İsti hava şəraitini nəzərə alan jurnalistlər günün əvvəlində mərhum həmkarlarını ziyarət etməyi planlaşdırırlar. Facebookda isə event yaradılacaq.

Xatırladaq ki, E.Hüseynovun qətlindən 10 il keçir. Yaşasaydı jurnalistin 47 yaşı olacaqdı.

❑ **Sevinc TELMANQIZI**

## İcra başçısının müavini redaktoru məhkəməyə verdi

### Sübut Mehdiyev: "Başqa sayta istinadən yazı vermişdik, üstəlik, təkzib də verdik"

**Azerbaycaninfo.com saytının baş redaktoru Sübut Mehdiyev məmur tərəfindən məhkəməyə verilib. Onu məhkəməyə verən Quba rayonunun icra başçısının müavini Afət Həsənovadır. Bu barədə "Yeni Müsavat"a baş redaktor özü məlumat verib. O bildirib ki, azerbaycaninfo.com saytına başqa sayta istinadən qoyduqları yazı məhkəmə çəkişməsinə səbəb olub: "Biz "Azerinews.tv"yə istinadən xəbər yerləşdirmişdik. "İcra başçısı və müavini ilə bağlı şok iddialar, icra başçısının müavini, Afət xanım saxta torpaq sərəncamlarına imza atır" başlıqlı yazı qarşı tərəfin hiddətinə səbəb olub. Həmin xəbəri daha bir sayt da yazıb. Ancaq başçının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Afət Həsənova bizi xüsusi ittiham qaydasında məhkəməyə verib. Sonra isə təkzib də vermişik".**

Qeyd edək ki, Yasamal Rayon Məhkəməsində keçiriləcək prosesdə hakim Anar Rzayevdir.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Həkimlərimiz Qəzzaya getməyə hazırdırlar

**Bu yaxınlarda norveçli bir həkim yaralılara tibbi yardım göstərmək üçün Qəzzaya gedib. Məlum məsələdir ki, İsrail hökuməti Qəzzanı bombalamaqda davam edir. Qəzzada hər gün onlarla günahsız insan həlak olur, yaralanır.**

Maraqlıdır, bizim həkimlərimiz necə, bu odun alovun içinə girib yaralılara tibbi yardım göstərmək üçün könüllü şəkildə Qəzzaya gedərdilərmi?

**Məşhur cərrah, professor Paşa Qəlbinur** viza təşkil olunarsa, həkimlərimizin Qəzzaya gedəcəyini istisna etmir: “Mən inanmıram Azərbaycanda hansısa həkim desin ki, mən getmək istəmirəm. Bizdə norveçli həkimdən fərqli olaraq ora getmək üçün müəyyən qaydalar var. Gedə bilmək üçün gərək viza alaq. İsrailin vizasını almaq, xüsusən də indiki vaxtda, çox çətindir. Mənim iki nəfər dostum getmək istədi. Ancaq onlara viza vermədilər. Ora vizasız getmək mümkün deyil. Məsələn, bir neçə il öncə Türkiyənin gəmisi vizasız getdi deyə gəmini bombaladılar, xeyli adam öldü. İstənilən ölkəyə viza almaq asandır. Hələ oranın dinc vaxtı da bu ölkəyə vizanı çətinliklə verirdilər. Əgər getmək üçün şərait yaradılarsa, viza verilərsə həkimlərimiz gedib orada yaralılara tibbi yardım göstərər. Təmasda olduğum həkim dostlarımın, tələbələrimin könüllü şəkildə Qəzzaya gedəcəklərinə əminəm”.



**Adil Qeybulla:** “Əgər dövlət xətti ilə belə tədbir olarsa, iştirak edərəm”



**Paşa Qəlbinur:** “Viza verilərsə, həkimlərimiz gedib yaralılara tibbi yardım göstərər”

**Tibb elmləri doktoru, professor Adil Qeybulla dövlət xətti ilə belə bir tədbir olarsa, iştirak edəcəyini bildirdi:** “Mən özbaşıma harasa getməyi planlaşdırmıram. Əgər dövlət xətti ilə belə tədbir olarsa, iştirak edərəm. Təəssüflər olsun ki, bu gün Suriyaya qeyri-leqal yollarla gedən azərbaycanlıların səsi heç də yaxşı yerlərdən gəlmir. Ora getmək rəsmi şəkildə, dövlətin, Səhiyyə Nazirliyinin xətti ilə təşkil olunmalıdır. Əgər dövlət xətti ilə bunu təşkil edib desələr ki, həkimlər gedib yaralılara kömək etsin, gedərəm. O vaxt biz İran zəlzələsində də yaralıların köməyinə getmişdik. Bu, leqal və qanuni şəkildə olsa, məncə, heç kim kənarda qalmaq istəməz”.

**Kardioloq, professor İlham Hüseyn ehtiyac olarsa, Qəzzaya gedib yaralılara yardım edəcəyini dedi:** “Mən özüm müharibə iştirakçısı olmuşam. Döyüşmək üçün Suriyaya getmərəm. Çünki orada kimin kiminlə döyüşdüyü bəlli deyil. Ancaq həkim olaraq gedərəm. Hər bir həkimin borcudur ki, kiməsə yardım göstərsin”.

**Salyan rayon Qadın Tibb Məsləhətxanasının müdiri, ginekoloq Mehriban Məmmədova da yaralılara yardım etmək məqsədilə Qəzzaya getmək istədiyini dedi:** “Mən Səhiyyə Nazirliyinin xəbəri olmaq şərti ilə könüllü şəkildə Qəzzaya gedib yaralılara əlimdən gələn köməyi edərdim. Rəsmi qərar çıxarsa gedərik. Çünki biz dövlət işçisiyik. Gedərkən uşaqlarımdan halallıq alıb gedərəm. Çünki oradan geri qayıda biləcəyimə əmin deyiləm”.

❑ Günel MANAFLI

# İqtidar qəzetləri Britaniya mediasına necə cavab verəcək?

**Böyük Britaniya mətbuatı son zamanlar Azərbaycan iqtidarı barədə silsilə tənqidi məqalələr yayımlayır. Ölkə iqtidarının İngiltərədə ciddi lobbiyə malik olmasına, BP-nin Azərbaycanda geniş şaxəli fəaliyyətinə baxmayaraq, Britaniya mətbuatında gedən yazıları dayandırmağa gücü çatmır. Təcrübə göstərir ki, bəzi ölkələrdə güclü lobbinin olması və iqtisadi əməkdaşlıq məsələləri mediaya da nüfuz edə bilir. Yəni bu cür silsilə xarakterli məqalələr təzyiq yolu ilə də olsa, dayandırıla bilir.**

Bu məqamda diqqət çəkən daha bir detal isə adətən rəsmi mətbuatın bu məqamda nümayiş etdirdiyi davranışdır. Yəni hökumət mediası xarici ölkələrdə iqtidar əleyhinə aparılan əks-təbliğata özünəməxsus cavablar verirlər. “Vaşinqton Post”a verilən silsilə cavablar, habelə Almaniya mətbuatının tənqidlərinə ölkə barədə tənqidi yazılarla cavab “atəşi” buna misaldır. Bəs indi iqtidar mediası nə planlaşdırır? Hökumət qəzetlərində Böyük Britaniya əleyhinə yazılar dərc ediləcəkmi?



**Bəxtiyar Sadıqov:** “Biz onlara heç əhəmiyyət vermirik, onda qala cavab verək”



**Hikmət Babaoğlu:** “Lazım gəlsə, cavab verəcəyik”

**“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bildirdi ki, dünyada anti-Azərbaycan şəbəkəsi var və onlar daim Azərbaycan haqqında şər-böhtan xarakterli məlumatlar verir:** “Onlar çalışırlar ki, Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirsinlər. Yalandan Azərbaycanda korrupsiyanın tüğyan etdiyi barədə məlumatlar verirlər. Onlar dünya ermənləri tərəfindən maliyyələşdirilib istiqamətləndirilən qurumlardır. Bəzən isə Azərbaycana hər hansı təzyiq etmək məqsədilə hansısa bir beynəlxalq qurumun açıqlamalarını görmək mümkündür. Bunların mətbuatda görünməsi isə təəccüblü və qeyri-adi deyil”.

**Müsahibimiz bildirdi ki, Azərbaycan son illərdə bir neçə sahədə uğur qazanıb və qazanmaqda davam edir. Onun sözlərinə görə, korrupsiyaya qarşı mübarizədəki uğurları, Asan Xidmət nümunəsi, Nato Parlament Assambleyasının Azərbaycanda keçirilən sessiyası da buna misaldır. Onun sözlərinə görə, son olaraq Azərbaycan prezidenti AŞPA-nın sessiyasında çox qətiyyətli, prinsipial çıxış edib:** “Xarakterik o idi ki, Azərbaycana atılan şər-böhtanlara, ikili standartlarla etiraz etmədi, sadəcə, onları ifşa etdi. Bizim prezidentin o qüvvələrə qarşı ifşaedici çıxışı belə materiallara səbəb olub. Mətbuat azaddır. Yazılanlar isə bizim üçün əsası olmayan, qərəzli bir yazıdır ki, biz ona heç əhəmiyyət vermirik, onda qala cavab verək”.

**“Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu isə dedi ki, “Yeni Azərbaycan” qəzeti Yeni Azərbaycan Partiyasının rəsmi orqanı olduğu üçün partiya öz mətbuat siyasətini müəyyənləşdirərkən ciddi arqumentlərə söykənir:** “”Yeni Azərbaycan" qəzetinin ictimai diqqətə təqdim etdiyi bütün mövzular da YAP-ın siyasi dəst-xəttinin nümunəsi kimi özünü göstərir. O məsələ ilə bağlı lazım gələrsə, cavab verəcəyik. Yazılanlar barədə məlumatımız var. Təkcə Böyük Britaniya mətbuatını yox, bütün tərəfdaş ölkələrin mətbuat orqanlarını izləyirik. Son hadisə ilə bağlı da nəsə yazmaq lazım olsa siz onu bizim səhifələrimizdə görəcəksiz".

❑ Sevinc TELMANQIZI

# Qarabağ əlili Əli Əhmədovun müdafiəsinə qalxdı

## Şamil Əliyev: “Maksim Musayev Əli müəllimi ona görə tənqid edir ki...”



Əli Əhmədov

**“Yeni Müsavat” qəzetində keçmiş YAP-çı deputat Maksim Musayevin müsahibəsini oxudum. Onun hansı “əqidə” sahibi olmasının şahidi oldum. YAP üzvlərinin əksəriyyətinin bu əqidə sahibi olduğuna bir daha əmin oldum. Maksim Musayev adından da məlum olduğu kimi, rusun, rus partiyasının və eləcə də YAP-ın şinelindən çıxmış bir adamdır".**

Bu sətirləri Bakı şəhər Neapol küçəsi, 26 “a”, mənzil 236 ünvanda yaşayan Qarabağ veteranı, II qrup əlil Şamil Əliyev redaksiyamıza göndərdiyi məktubda yazıb. Ş.Əliyev qeyd edib ki, M.Musayev millətsevər deyil:

“Mən Maksim Musayevi tanımıram. Onunla şəxsi-qərəzliyim yoxdur. O zaman Milli Məclisdə çıxışları zamanı efirdə görmüşəm. Əgər o, həqiqətən millətini sevən bir şəxs olsaydı, həqiqi azərbaycanlı kimi 20 Yanvardan sonra partiya biletini cırardı, millətimin yanında olardı. Müsahibəsində Əli Əhmədovu tənqid edib, özünü ”geroy" kimi göstərib. Bilirsiniz niyə? Ona görə ki, diqqəti cəlb etsin. Əli müəllimin rəqiblərinin tərifini qazansın. Bunu özü də müsahibəsində təsdiq edir: “Mənə çox yerdən zəng edib ”sağ ol, Maksim" deyirlər".

**Qarabağ əlili yazıb ki, 5 övladını evdə qoyub, müharibəyə gedən könüllülərdən olub. Ağdərənin ermənilərdən geri alınması əməliyyatında iştirak etdiyini deyən Ş.Əliyev döyüşlərdə yaralanaraq əlil olduğunu bildirib:** “Bir ildir bütün nazirlikləri, əlaqədar təşkilatları gəzsəm də Qarabağ əlilli adını ala bilmirdim. İnamım olmasa da, baş nazirin müavini Əli Əhmədovun qəbuluna yazıldım. Məni qəbul edib sənədlərə baxaraq, hər şeyin qanun çərçivəsində həll olunacağını dedi. Əli müəllim mənim məmurlar haqqında fikrimi yaxşıya dəyişdi. Qısa müddətdə mənim haqqımın bərpası üçün real addımlar atıldı. Baxmayaq ki, mən müxalif fikirli adamam, Əli müəllim bu hakimiyyətdə də yaxşı adamların, məmurların qaldığını və olduğunu mənə sübut etdi. Ona görə də Əli Əhmədova təşəkkür edirəm”.

❑ EMİL

# AXC-nin yubileyində ADP sədrini danışmağa qoymadılar

## Sərdar Cəlaloğlu: “Onlar elə başa düşürlər ki, Azərbaycan tarixi Əli Kərimlinin hərəkata gəldiyi dövrdən başlayır”



Sərdar Cəlaloğlu

**AXCP-nin Azərbaycan Xalq Cəbhəsinin (AXC) 25 illiyi münasibətilə keçirdiyi tədbirdə ADP sədri Sərdar Cəlaloğlunun çıxışı narazılığa səbəb olub. Tədbirdə çıxış edən S.Cəlaloğlu bildirib ki, Azərbaycanda xalq hərəkatı ilə bağlı bütün məsələləri AXC lideri Əbülfəz Elçibəyin adı ilə bağlamaq düzgün deyil: “Məsələn, dövlət dilinin Azərbaycan dili elan olunması 1956-cı ildə İmam Mustafayevin adı ilə bağlıdır”.**

APA-nın xəbərinə görə, bu vaxt AXCP üzvləri səs-küy salaraq onun çıxışına etiraz ediblər. Onlar “Rəsulzadə-Elçibəy” şüarı səsləndiriblər. S.Cəlaloğlu isə narazılığını bildirərək, izah etməyə çalışıb ki, Azərbaycanın dövlətçilik tarixinin də Məhəmməd Əmin Rəsulzadənin adı ilə bağlanması doğru deyil: “Çünki bizim dövlətçilik tariximiz Xiyabanidən başlayır”.

AXCP üzvləri isə yenidən etiraz etdikdə, S. Cəlaloğlu çıxışını yarımçıq kəsərək zalı tərk edib.

“Bu insanlar elə başa düşürlər ki, Azərbaycan tarixi Əli Kərimlinin hərəkata gəldiyi dövrdən başlayır. Mən öz fikrimi deyəndə isə fitə basdılar, ayaqlarını yerə döydülər. Məni zaldan qovdular”,- S.Cəlaloğlu baş verənlərə münasibət bildirərək qeyd edib ki, AXCP son 25 ildə heç bir dəyişikliyə məruz qalmayıb.

**ADP sədri “Yeni Müsavat”a açıqlamasında bildirib ki, qurultayda çıxış etmək fikri yox idi, onu təkidlə çıxış etməyə çağırıblar:** “Orada gördüm ki, çoxlu cavan uşaqlar var. Tarixdən danışırlar, ancaq tarixi bilmirlər. Mən də çıxışımda bildirdim ki, Azərbaycan tarixini Məhəmməd Əmin Rəsulzadə ilə, Əbülfəz Elçibəylə məhdudlaşdırmayın. Bu xalqın çox böyük tarixi var, Atabəylərə gedib çıxır. Bu tarixdən dərslər götürmək lazımdır, ruhlanmaq lazımdır və sair. Bizim tariximiz 70 il əvvəldən, Rəsulzadə ilə başlayır? Bunları dediyimə görə başladılar fit çalmağa, dedim ki, sözümü qurtarım, sonra fitinizi çalarsız. Gördüm qabaqcadan təşkil olunan dəstələrdir, bir də idarə edənləri var. Əli Kərimli deyir ki, AXCP hər bir vətəndaşın hüquqlarını qoruyur. Ancaq baş verənlərə bir dəfə müdaxilə etmədi, imkan yaratmadı ki, sözümü deyim. 1989-da hansı qaraguruh ruhda gediblərsə, indi də elədir, heç bir dəyişiklik yoxdur. Əli Kərimli dedi ki, gənclik keçmişə baxmadan gələcəyə gedənlər deməkdir. Ancaq mən dedim ki, keçmişə baxmayan gənclik gələcəyə düz yolu seçə bilməz. AXCP heç dəyişməyib, əvvəlki qaraguruhdur. Mən orada Azərbaycan dövlətçilik tarixinin qədim köklərə malik olduğunu, Şah İsmayıl Xətaiyə, Nadir şahla bağlı olduğunu dedim, başqa heç nə”.

❑ RÖYA

YENİ MÜSAVAT
N 181 (5891) 17 iyul 2014



# Yazıq deməyin bizə!

Hüseynbala SƏLİMOV

**Əvvəl mənə elə gəldi ki, 25 il deyil, daha çox olmalıdır. Amma dərhal da düşündüm ki, keçmiş AXC qadın deyil ki, yaşının gizlətsinlər, yəqin ki, 25 ili tamam olur, elə o səbəbdən də 25 deyirlər.**

Nə demək olar? Bulat Okucavanın bir mahnısı var. Deyir ki, təmtəraqlı sözlərdən çəkinməyin... 25 il də əsrin dördən biri deməkdir. Prinsipcə, nəsə demək olar.

Bulat Okucavanın bir mahnısı da var. Bir-bir deyir ki, İlahi, filankəsə filan şeyi ver və axırda da qayıdır ki, İlahi, məni də unutma...

İndi əvvəlki AXC yoxdur. Onun üzvləri müxtəlif partiyalardadır. Yox, mən bəziləri kimi "Bütün partiyalar AXC-nin şinelindən çıxıb" demək istəmirəm.

Amma bir neçə partiya var ki, onları bir yerə toplasan, keçmiş AXC alınar.

Həmin partiyalara siyasətdə ən şirin şeyi - hakimiyyəti arzulayıram. 25 il biz bu sözü ehtiyatla dilə gətirmişik. Hətta parlamentdə "Filankəs, sən nə istəyirsən?" deyə soruşulanda, belə bir başlıq qəzetlərin manşetinə çıxarılanda "Hakimiyyət istəyirik!" deməyə ürək eləməmişik.

Amma bu gün soruşsalar ki, sən nə istəyirsən, zərrə qədər də utanmadan, çəkinmədən deyərdim ki, hakimiyyət istəyirəm! Bəli, hakimiyyət istəyirik! Burada utanmalı, çəkinməli nə var ki?!

Qoy, o adamlar utansın ki, hakimiyyət xatirinə min cür oyundan çıxırlar, seçkiləri saxtalaşdırır, insanları şərləyir, millətin malını talan edirlər! Əgər bu adamlar utanmırsa, biz niyə utanmalıyıq?!

Başa düşürəm, deyəcəksiniz ki, bunlar da 25 ildən sonra ayılıblar! Amma mən sizə bir sirr açacam, özü də 25 ildən sonra: biz əslində heç vaxt yatmamışdıq...

Özümüzünkülərin, mədəsinin səsindən başqa heç nə eşitməyən bəzi insanların, bəzi keçmiş və indiki cəbhəçilərin sayəsində bizim haqqımızda yazıq obrazı formalaşıb. Guya ki, biz heç nəyin iddiasında bulunmayan, dünyada heç nəyin fərqində olmayan, özləri də nə istədiklərini bilməyən aciz yazıqlarıq!

Amma belədirmi? Biz yazığıqmı? Demirəm ki, bizə dəstək verin, ya da ki, verməyin, amma tələb edirəm ki, bizə yazığınız gəlməsin! Biz sizin təsəvvür etdiyiniz kimi aciz yazıqlar olmamışıq və indi də deyilik! Əslində biz çox iddialı insanlar olmuşuq və indi də iddialıyıq...

Biz milyonların arzusunda olduğu böyük mənəvi və maddi sədləri keçmişik. Hər bir insan ömrü boyu bəlkə də min kərə düşünür ki, daha belə yaşamaq olmaz, bax, sabah gedib filankəsin düz gözünün içinə dişimin dibindən çıxanı deyəcəm!

Bəli, milyonlarla insan bəlkə də ömründə milyon dəfə bunu fikrindən keçirir. Amma deyə bilmir, bacarmır. Biz isə demişik və bacarmışıq...

Milyonlarla insan gecə-gündüz Allaha yalvarır ki, mənə də bir vəzifə qismət elə! Bəli, vəzifə alır, amma əvəzində hər şeyini itirir. Biz isə belə olmamışıq.

Biz elə-belə vəzifə istəməmişik. İstəmişik ki, müstəqil və demokratik ölkənin məmurları olaq və olmuşuq da...

Orta statistik azərbaycanlı necə düşünür? O, deyir ki, bala, vəzifən də var, başını aşağı sal və dolan! Amma biz heç vaxt başlarımızı aşağı salmamışıq, əksinə, başımızı dik tutmuşuq... Bəli, başımızı o qədər dik tutmuşuq ki, bəzən ayaqlarımızın altını eşənləri, ayaqlarımıza dolaşanları görməmişik...

Belə bir kəlmə var: Allahın bəlası... Bəli, biz adi bəndə olmamışıq, Allahın bəlası olmuşuq. Biz ölkəni dəyişmək, cəmiyyəti dəyişmək istəmişik, hətta buna qismən nail də olmuşuq...

Ona görə də bizə yazığınız gəlməsin, bizə yazıq deməyin. Bizim anlamımıza görə ən yazıq insanlar bu gün siyasətdə olanlardır. Bəli, onlar da bəlkə ürəklərinin dərinliyində başqa cür olmaq, başqa cür yaşamaq, başqa cür idarə etmək istəyirlər, amma bacarmırlar, çünki bunun üçün onlara heç kim mandat vermir.

Bəlkə də onların da ən böyük arzusu seçilmiş prezident, seçilmiş deputat olmaqdır. Amma arzularına çata bilmirlər. Siyasətdə əsl qələbənin nə olduğunu hələ də duya, hiss edə bilmirlər. Millət, cəmiyyət fürsət tapan kimi bizə, bizim adamlara səs verir...

Ona görə də yazıq deməyin bizə! Ən azı ona görə ki, 25 il bu irticanın qarşısında dayanmışıq. 25 ildir ki, onlar bizimlə dil tapmağa çalışıblar. Amma bacarmırlar, dil tapa bilmirlər....

Ona görə də yazıq deməyin bizə. Biz yazıq deyilik, Allahın bəlasıyıq...

# Altı ayda 6 min neftçi işdən çıxarılıb

## Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı altı aylıq hesabatını açıqladı və pozulan qanunları sadaladı

**"Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı" İctimai Birliyi ölkənin neft sektorunda əmək qanunvericiliyinin icra vəziyyəti haqqında hesabatını açıqlayıb. Hesabat 2014-cü ilin ilk altı ayını əhatə edir.**

Bu barədə "Yeni Müsavat"a təşkilatın rəhbəri Mirvari Qəhrəmanlı məlumat verib. O bildirib ki, bu dövrdə ARDNŞ-də struktur dəyişikliyi ilə əlaqədar işçilərin qanunsuz olaraq işdən azad olunması və əmək müqavilələrinin ləğv edilməsi halları daha çox müşahidə olunub. ARDNŞ tərəfindən bu əsasla işdən azad olunan işçilərin sayı 6000 nəfərə yaxın olub. İxtisarlardan isə daha çox təqaüd yaşına çatmış, uzun illər təcrübəsi olan, lakin arxasız və qohumsuz insanlar əziyyət çəkib.

Həmçinin neft sahəsində fəaliyyət göstərən müəssisələrdə istehsalatda baş verən bədbəxt hadisələr qeydə alınmayıb, müxtəlif yollarla gizlədilmə halları müşahidə olunub. ARDNŞ və xarici şirkətlərdə sistemli və işçilərin iradəsinin əleyhinə olaraq müddətli əmək müqavilələrinin bağlanması davam etdirilib. Müqavilələrin müddəti bitdikdə isə kütləvi ixtisarlar başlanıb.

**M.Qəhrəmanlının sözlərinə görə, ölkənin hasilat sənayesində də əmək qanunvericiliyinin pozulması halları kütləviləşib. Hesabat dövrü ərzində təşkilat ölkənin neft sənayesində və digər sahələrdə çalışan 1200-ə yaxın işçiyə əmək, sosial, iqtisadi və mülki sahədə hüquqi yardımlar göstərib. İşçilər isə daha çox Əmək Məcəlləsinin 68-79-cu maddələrinin pozulmasından şikayətləniblər:** "Əmək müqavilələrinə qanunsuz olaraq xitam verilməsi, ixtisar adı ilə işçilərə ərizə yazdırılması, ixtisarlar aparılarkən qanunvericiliyin tələblərinin pozulması, işçiləri üçün nəzərdə tutulmuş güzəşt və təminatların məhdudlaşdırılmasından şikayət var. Kompleks Qazma Tresti, "Azəriqaz" İstehsalat Birliyi, Geologiya və Geofizika İdarəsi, Magistral Qaz Kəmərləri İdarəsi, Bahar Enerji Əməliyyat Şirkəti və sair. İxtisarların aparılması ilə əlaqədar Kompleks Qazma Trestində bu xəbərlə əlaqədar 1 nəfərin ürəyi dayanıb, Bahar Enerji Şirkətində isə 1 nəfər isə özünü asıb".



Həmçinin Əmək Məcəlləsinin 83 və 84-cü, 217-ci maddəsi, Nazirlər Kabinetinin 27 saylı qərarı pozulub. Məcəllənin 97, 98, 99, 164, 165-ci maddələrinin pozulması,154-cü maddəsinin və digər normativ hüquqi aktların pozulması kimi hallar qeydə alınıb. "Eyni zamanda Əmək Məcəlləsinin 16-cı maddəsinin pozulması, diskriminasiyaya yol verilməsi müşahidə edilib. Dövlət Neft Şirkətinin Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Neftqaztikinti Tresti, Kompleks Qazma Tresti, SOCAR CAPE və sairdə bu, var. Diskriminasiyanın əsas səbəblərindən biri də qohumbazlıqdır. Bunun nəticəsində də çoxlu sayda işçi diskriminasiyaya məruz qalır. İxtisar, işə qəbul və vəzifəyə təyin edərkən təhsilinə, peşəkarlığına və digər işgüzar keyfiyyətlərinə görə deyil, yaxın qohumluq və dostluq əlamətlərinə yol verməklə diskriminasiyaya yol verirlər",- deyə M.Qəhrəmanlı qeyd edib.

Həmçinin 2014-cü ilin 6 ayı ərzində Azərbaycanın neft sektorunda əmək xəsarəti almış işçilərin sayı 9 nəfər olub.

Əmək xəsarəti almış və ya peşə xəstəliyinə tutulmuş işçilərə kütləvi artımın tətbiq edilməsi ilə əlaqədar ARDNŞ, Maersk Şirkəti və Xəzər müəssisəsinə qarşı Yasamal, Nərimanov və Nəsimi rayon, Bakı apelyasiya və Azərbaycan Respublikasının Ali məhkəmələrində məhkəmə mübahisələri davam edir. Bu ilin altı ayında Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı məhkəmə vasitəsilə də işçilərin hüquqlarını müdafiə edib. Belə ki, təşkilatın hüquqşünasları müxtəlif məhkəmə instansiyalarında 46 iddia ərizəsi üzrə işçiləri müdafiə edib. Hesabat dövrü ərzində 1-ci instansiya məhkəmələrində 30, Bakı Apelyasiya Məhkəməsində 10, Ali Məhkəmədə isə 5 iddiaya baxılıb. Həmçinin Məhkəmə Hüquq Şurasına iki hakimdən şikayət göndərilib. Bunlar Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi Sevinc Alıyeva və Bakı Apelyasiya Məhkəməsinin hakimi Sənan Hacıyevdir. Eyni zamanda 47 məhkəmə işinin monitorinqi aparılıb. Monitorinq zamanı daha çox məhkəmə iclaslarının gedişi və qətnamələrin çıxarılması zamanı maddi və prosessual hüquq normalarına əməl edilməsinə diqqət yetirilib.

❑ RÖYA

# "Biz Avropa Məhkəməsinədək gedəcəyik"

**İyulun 16-da hüquq müdafiəçisi Mirvari Qəhrəmanlının apelyasiya şikayətinə baxılıb. Şikayət təmin edilməyib. Bu barədə "Yeni Müsavat"a Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının (NHMT) rəhbəri Mirvari Qəhrəmanlı özü bildirib.**

O qeyd edib ki, Bakı Apelyasiya Məhkəməsində hakim Mirzəli Abbasovun sədrliyi ilə təşkilatının bank hesablarına həbs qoyulması ilə bağlı iddia qanunsuz olaraq rədd edilib. Məhkəmə Nəsimi Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb: "İddia təmin olunmadı. Mən və nümayəndəmin iştirakı olmadan proses keçirildi. Həm mənim bank hesabıma, həm də təşkilatın hesabına həbs qoyulub. Biz bundan iyulun 9-da xəbər tutmuşuq, bankdan dedilər.



Mirvari Qəhrəmanlı

Halbuki ayın 8-də Baş Prokurorluq məhkəməyə bununla bağlı təqdimat verib. Təqsirləndirilən şəxsin əmlakına həbs qoyula bilər. Ancaq biz hələ də bilmirik bu situasiyada kimik, hesablara niyə həbs qoyulub. Bizdən heç bir sənəd istənilməyib. Mənim depozit hesabıma da həbs qoyulub. Bu hesab 2005-ci ildə açılıb və həbs qoyulması qeyri-qanunidir. Çünki əmək haqqım deyil, rəhmətlik həyat yoldaşımla birgə nəvələrimizin gələcəyi üçün qoyduğumuz puldur".

**Hüquq müdafiəçisi qeyd edib ki, artıq prosesdən və hakimlərdən Avropa Məhkəməsinə şikayət hazırlanır:** "Bütün QHT-lər bir yerdə gedəcək. Artıq apelyasiya şikayətləri toplanır və Avropa Məhkəməsinə şikayət ünvanlanacaq. Biz Avropa Məhkəməsinədək gedəcəyik".

Qeyd edək ki, M.Qəhrəmanlının rəhbərlik etdiyi qurumun hesabına və şəxsi hesabına iyulun 8-də həbs qoyulub. Həmin qərarla M.Qəhrəmanlının sədri olduğu NHMT-nin hesabına, öz şəxsi hesabına, habelə ailənin cari xərcləri üçün onun həyat yoldaşının banka qoyduğu depozitlərə həbs tətbiq edilib. Həbs tətbiq edilən hesab mədən sənayesində şəffaflıq məsələsi ilə bağlı layihənin icrasına aid olub. Hüquq müdafiəçisi bu addımı hüquq-mühafizə orqanlarının bir ailənin üzərinə aşırı təzyiqi kimi dəyərləndirir.

❑ Röya RƏFİYEVA

# Yaxın Şərqdə "Böyük Kürdüstan" projesi reallaşır

## İŞİD-in İraq və Suriyadakı terror aktları kürd dövlətinin yaranmasına tarixi şans qazandırıb; Rasim Musabəyov və Fəzail İbrahimli regiondakı prosesləri şərh etdilər...

**"İraq və Şam İslam Dövləti" (İŞİD) silahlı qruplaşması bütün Yaxın Şərqi qorxu altında saxlamaqda davam edir. Rəsmi Bağdad ona qarşı qətiyyətli mübarizə apara bilmir. Bu fürsətdən yararlanan İraq kürdlərinin lideri Məsud Bərzani Kürdüstanın müstəqil dövlət elan olunması üçün qollarını çırmalayıb.**

İndi əslində nə referenduma, nə Bağdad hökumətinin baş naziri Nuri Əl Maliki ilə qarşıdurmaya ehtiyac qalıb. Bərzani İŞİD silahlılarının zülmündən bu şəhərləri xilas etmək adı ilə əsasən türkmənlərin yaşadığı bölgələri Kürdüstanın gözünə qatmağa çalışır.

Yaxın Şərqin coğrafiyasında dəyişiklik üçün proses getdiyi, xəritədə Kürdüstan dövlətinin yarandığı müşahidə olunur. Bir ucu Türkiyə, bir başı Suriya, bir ayağı da İraqda olan kürd dövləti dünya güclərinin tarixi arzularıdır. Xüsusilə Amerikanın Kürdüstan dövlətinin yaranışında rolu və marağı böyükdür.

Bu proses hələ keçən əsrin ikinci yarısından etibarən Vaşinqtonun Yaxın Şərq siyasətinin bir fraqmenti kimi start götürüb. İraqın işğalından sonra bu plan müəyyən transformasiyalara məruz qaldı. Lakin Misir və Suriya hadisələrinin yaratdığı geosiyasi mənzərə ideyanı Vaşinqton üçün yenidən aktuallaşdırıb. ABŞ öz geosiyasi marağını təmin etmək üçün yeni böyük oyun qurub. Bura Misir, Suriya, İraq, İran və Türkiyə də daxil edilib. Son məqsəd "Böyük Kürdüstan" yaratmaq, şiə və sünnilər arasında nifaqı gücləndirib müsəlman dövlətləri arasında uzunmüddətli savaşa təkan verməkdir.


Rasim Musabəyov


Fəzail İbrahimli

**Lakin politoloq Rasim Musabəyov düşünmür ki, Qərb istədiyi kimi prosesləri idarə edə bilir. Onun sözlərinə görə, Amerikanın "dirijor çubuğu" ilə bütün dünyanı fırlatması şişirdilmiş fikirdir. R.Musabəyov həmçinin Kürdüstan dövlətinin yaranması üçün bütün imkanların açıldığı qənaətində də deyil.**

"Vaxtilə İraqda süni dövlət yaradılmışdı. Osmanlı imperiyasının süqutundan sonra Böyük Britaniya və Fransa koloniyalarını yaratmağa başladılar. Suriya və Livan Fransanın, İraq ingilislərin əlaltısına çevrilmişdi.

Bu ölkənin bir hissəsində şiə ərəbləri, bir hissəsində kürdlər, böyük hissəsində bizə yaxın olan türkmənlər vardı. Yalnız diktatorun hesabına vahid dövlət saxlamaq olardı. İndi İraq parçalanırsa, onu saxlamaq mümkün deyil. Kürdüstan dövləti yarana bilər. Ancaq hələlik Amerika İraqı vahid dövlət kimi saxlamağa çağırır və tələsmir", - deyə siyasi şərhçi prosesləri belə təhlil edir.

**R.Musabəyov Qərbin Yaxın Şərqdə "Böyük Kürdüstan" projesinin tarixi bir hədəf olması fikrini şişirdilmiş ideya kimi qiymətləndirir:** "İndi İraqda anti-Amerika qüvvələri fəaliyyət göstərir. Bu ölkəni parçalamaq elə də asan deyil. Ona görə də bütün baş verənləri Amerikaya bağlamayaq".

**Deputat, tarixçi-alim Fəzail İbrahimlinin sözlərinə görə, Amerikanın proseslərə özünəməxsus baxışı var:** "İkinci Dünya müharibəsindən sonra Amerikanın strateji siyasi kursu Yaxın Şərq, Orta Asiya, Balkanlar və Qafqaza yönəlmişdi. Bu regionların nəzarətə götürülməsi İranın Amerikanın ağuşuna düşməsi demək idi". Tarixçi-alimin fikrincə, bu gün Yaxın Şərqdə baş verən proseslər və Amerikanın yürütdüyü strateji plan məhz həmin dövrün tərkib hissəsidir.

**F.İbrahimli hesab edir ki, siyasi strateji kurs müəyyən qədər yaddaşlarda qalır:** "Mən bir haşiyə çıxaraq qeyd edim ki, Valentin Tikov "Favorit" əsərində yazır ki, Patyomkin II Yekaterinaya erməni dövlətinin olacağını, onların paytaxtı da olacağını söyləyib. Yekaterina buna inanmayıb. İndi Patyomkinin bu sözünün üstündən 200 il keçəndən sonra ADR dövründə İrəvan Ermənistana verildi ki, paytaxt olsun. Yəni nəsillər dəyişir, siyasi strategiya dəyişmək bilmir. Bu gün də Amerikanın Yaxın Şərq siyasətində strateji gedişi dəyişməyib".

**F.İbrahimli qeyd edir ki, Yaxın Şərqdə yaranmış mürəkkəb vəziyyətin necə olacağını proqnozlaşdırmaq çətindir və bunun üçün münəccimlik etməyə gərək yoxdur:** "Biz deyə bilmərik ki, bu regionun gələcəyi necə olacaq. Sadəcə, tarixçi kimi söyləyə bilərəm, Amerika bu strateji siyasi kursunu davam etdirir. Amma əvvəl daha hikkəli, əsəbi şəkildə hücuma keçdi. İraqa hücum beynəlxalq normaları pozdu, BMT-nin qərarı olmadığı üçün bu qurum gözdən düşdü, Səddamın kimyəvi silahları tapılmadı. Bugünkü siyasət ona yönəlib ki, İraqda nə qədər ərəb, müsəlman ölürsə ölsün, vətəndaş qarşıdurması olsun. Obama "nə əldən qoyur, nə yardan doyur".

Səddam Hüseyndən sonra zəmanət verə bilmədilər ki, İraq necə olacaq. Amerika terroru bəhanə edir ki, Yaxın Şərqə girsin. Liviya kimi qüdrətli lideri və güclü iqtisadiyyatı olan ölkədə xalqı qaldıra bilmədilər. Əvəzində Liviyanı bombalamağa başladılar. Suriyada da dünyanın bir dövləti Əsədi, digəri ona qarşı çıxanları silahlandırır. Yaxın Şərqdə bu şəraitdən istifadə edərək kürd dövlətini yaratmaq istəyi ortaya çıxıb. Necə ki, erməni dövləti yaratdılar, indi də kürd dövləti. Türkiyənin də kürd dövlətinin yaranmasında mövqeyi əvvəlki kimi deyil. Onların mövqeyi "məndən keçib qardaşıma dəysin" prinsipidir. Bu da siyasətdə başadüşüləndir. Türkiyə başqa ölkənin ərazisində kürd dövlətinin yaranmasında əvvəlki mövqeyini nümayiş etdirmir. Son olaraq deyim ki, Tanrı Azərbaycanı bu proseslərdən qorusun".

❑ E.SALAMOĞLU

# DAK Güneylə bağlı bəyanat verdi

## Qurum bütün media orqanlarına Cənubi Azərbaycanda baş verən hadisələri dünyaya çatdırmaqla bağlı çağırış etdi

**Dünya Azərbaycanlıları Konqresi Güney Azərbaycanda soydaşlarımıza qarşı baş verən təqiblər, onların həbs olunması ilə bağlı bəyanat verib. Bəyanatda ölkəmizdəki bəzi media orqanlarının Güneylə bağlı mövzulara yer verməməsi, yaxud qadağa qoyması pislənilib. Azərbaycandakı bütün media orqanlarına Cənubi Azərbaycanda baş verən hadisələri dünyaya çatdırmaqla bağlı çağırış edilib.**

**Bəyanatda deyilir:** "İslam dünyası müqəddəs Ramazan ayı içindədir. Müsəlmanlar üçün xeyir-bərəkət, günahlardan, pis əməllərdən uzaq olmaq ayı olan bu dönəmdə belə İran adlanan rejim Azərbaycan türklərinə qarşı zülmünü dayandırmır. Ramazan ayı içində də soydaşlarımızın həbsi, təqibi, Tanrının ən sevimli yaradılışı olan insanın doğal haqlarının ayaqlanması davam edir. Burda əsarət altında inləyən soydaşlarımızın səsi dünyaya yalnız Azərbaycan mediası və dünyaya səpələnən mühacir azərbaycanlılarla çatdırılır. Çox təəssüf ki, son vaxtlar mediamız Güney Azərbaycan məsələsini arxa plana atıb. Hətta bəzi media orqanlarında bu mövzuya qadağa qoyulub. İran rejiminin Azərbaycan Respublikasının dövlət müstəqilliyi ilə heç cür barışmamasından yaranan təxribatçı əməlləri və son vaxtlar dünyada süni şəkildə qızışdırılan İslam təfriqəçiliyi təhlükəsi Azərbaycan dövlətini rəsmi mövqeyində və xarici siyasətində bir çox məsələlərə ehtiyatlı yanaşmağa vadar edir. Bu mövqe müəyyən mənada başa düşüləndir. Amma rəsmi dövlət




adamlarımızın fikirlərini özlərinə qadağa kimi qəbul edərək, Güney Azərbaycan mövzusuna medianın embarqo qoyması heç cür qəbul edilə bilməz. Vətənimizin Güneyində minlərlə soydaşımızın həbsxanalarda çürüdüldüyü, milyonlarla həmvətənimizin milli və insani haqqının tapdandığı bir vaxtda Azərbaycan mətbuatı, xüsusilə elektron KİV susa bilməz. Biz DAK olaraq, hörmətli qələm əhlini İran adlı rejimin özbaşınalıqlarını, burda yaşayan soydaşlarımızın problemlərini gündəmdə saxlamağa və milyonların səsini dünyaya çatdırmağa çağırırıq".

❑ Cavanşir ABBASLI

# Alternativsizlər



Azər RƏŞİDOĞLU

**Azərbaycan qəribə ölkədir. Bu ölkədə sanki heç kəsin alternativi yoxdur. Yazıçı Anardan tutmuş, Şeyxülislam Allahşükür Paşazadəyə qədər hamı özünü alternativsiz hesab edir. İqtidar ardıcıl olaraq seçkilərə eyni namizədlə qatılır, müxalifət partiyaları sədrliyə eyni şəxsin namizədliyini irəli sürür, efirdə eyni simalar görünür, cəmiyyətdə hamı eyni cür düşünməyə vadar edilir.**

Bu ölkədə heç bir seçkidə gerçək alternativ olmur.

Bu ölkədə heç nə dəyişmir. Eyni nazir 20 il eyni kürsüdə otura bilir.

Alternativsizlik mühitində yaşamaq əzabdır. Eyni zamanda rüsvayçılıqdır. Əgər hakim komanda 20 il ərzində yeni lider, yeni nazirlər, partiya funksionerləri yetişdirə bilməyibsə və deməli, yalnız idarəçilikdə deyil, eyni zamanda hakimiyyətin özündə ciddi nöqsanlar var.

Normal və demokratik cəmiyyətlərdə alternativ həmişə olur. Prezident seçkiləri zamanı da olur, partiya sədrliyinə keçirilən seçkilərdə də, yazıçılar özlərinə sədr seçəndə də.

Prezident seçkilərində namizədin dəyişməsi labüddür. Hətta hakimiyyətin real nüfuzu yüksək olsa belə, eyni siyasətçinin üzərində fokuslaşmaq zəifliyin göstəricisidir. O cümlədən eyni simanın sonsuza qədər eyni partiyanın sədri olması da anormaldır.

İstənilən cəmiyyət dəyişikliyə meylli olur. Azərbaycanda isə nə elita, nə də ki əks elita dəyişmək istəmir.

Elə bunun nəticəsidir ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərində eyni simanın dördüncü dəfə irəli sürülməsi perspektivi müzakirə olunmağa başlayıb.

Bu artıq absurdun son həddir. Axı hansı səbəbə eyni namizəd daimi və əbədi hesab olunmalıdır?!

Digər tərəfdən, "Bizim liderin alternativi yoxdur" deyən istənilən siyasi təşkilat öz komandasını təhqir etmiş olur.

Siyasi təşkilatlarda dəyişiklik qaçılmaz olmalıdır.

Eyni komandanın dəyişməməsi rəqabət mühitini məhv edir. Rəqabətsiz isə inkişafa nail olmaq mümkün deyil.

Siyasi təşkilat sədrləri ömürlərinin sonlarına qədər sədr qala bilməzlər. Bu, sağlam məntiqə ziddir. Bu, diktator yetişdirmək cəhdidir. Belə tendensiyalara son qoymağın zamanı çoxdan gəlib.

"Alternativimiz yoxdur" mesajını verməklə siyasi təşkilatlar özlərinin inkişaf etməyəcəyini açıqlayır.

Özləri inkişaf etməyənlər cəmiyyətə inkişaf modeli təklif edə bilərlərmi?

Kənardan görünən budur ki, nə iqtidarı, nə də ki müxalifəti demokratiyanın taleyi maraqlandırmır. Hakim elita belə hesab edir ki, nəyisə dəyişdirməyə ehtiyac yoxdur. Müxalifət də eyni taktikanı həyata keçirdir. Cəmiyyət isə susur.

Heç kəs dəyişmək istəmir. Lakin tarixin və dialektikanın öz qanunları var. Dəyişmək istəməyən sistemlərin çöküşü bəzən adi bir təsadüfə bağlı olur. İllərdən bəri yığılan problemlər bir anın işindəcə partlaya bilir və bütün hesablamaların üstündən xətt çəkir.

Cəmiyyətə daima alternativ təklif olunmalıdır. Bu, toplumun təməl haqqıdır. Belə bir haqqı əlindən alınmış cəmiyyətlər isə özləri alternativ axtarışına qalxır. Bəzən isə üstünlük verdiyi alternativlər qisasçılıq naminə seçilir. Alternativin təklif olunmaması cəmiyyəti idarə olunmaz həddə qədər radikallaşdırır.

İnsanları seçmək hüququndan məhrum etmək mümkün deyil. İnsanlara seçim haqqı verməyəndə onlar mövcud reallığı zorla dəyişirlər. Bütün bu alternativsizliklər fonunda perspektivdə yalnız zor amili əsas kimi götürülür. Bu isə təhlükəlidir. Buna son qoymaq barədə isə düşünən yoxdur. Perspektiv qaranlıq görünür...

**Kəlbəcər rayonu ərazisində Ermənistan tərəfindən əsir götürülən azərbaycanlılar Dilqəm Əhmədov, Şahbaz Quliyev və öldürüldüyü iddia edilən Həsən Həsənovun Hüquqlarını Müdafiəsi Komitəsi yaradılıb. Bu barədə Kəlbəcərdən olan jurnalist, "Həftə içi" qəzetinin redaktoru Elxan Salahov yaydığı bəyanatda məlumat verib. Bəyanatda deyilir: "Müdafiə komitəsinin üzvləri Ermənistan hökumətinin "diversant" kimi təqdim etdiyi Dilqəm Əhmədovun, Şahbaz Quliyevin və hələ də öldürüldüyü, yoxsa girov saxlandığı bəlli olmayan Cəbrayıl rayon sakini Həsən Həsənovun tezliklə Azərbaycana qaytarılması üçün çalışacağını bəyan edir.**

# Deputatlar hökumətə və beynəlxalq birliyə çağırış etdilər

## Kəlbəcərli girovların məsələsi böyüyür; həqiqi diversiya qruplarının işğal altındakı bölgələrə göndərilməsi məsələsi qaldırıldı

Müdafiə Komitəsi hər şeydən əvvəl Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyi ilə sıx işləməyi qarşısına məqsəd qoyub. Həmçinin Azərbaycan dövlətini, ölkənin tanınmış ziyalılarını və vətəndaş cəmiyyətini soydaşlarımızın girovluqdan azad edilməsi işində mümkün olanları etməyə çağırırıq. Müdafiə Komitəsinin işində hər kəs fərdi və ya qrup şəklində iştirak edə bilər. Biz fəaliyyət üçün iki əsas istiqamət seçmişik: 1) aidiyyəti dövlət strukturlarının, ictimai və beynəlxalq təşkilatların soydaşlarımızın girovluqdan azad edilməsi işində daha fəal iştirakına nail olmaq; 2) Dilqəm Əhmədov, Şahbaz Quliyev və Həsən Həsənovla bağlı qeyri-dəqiq məlumatların yayılmasına yol verməmək. Bu çağırışımıza qoşulan və dəstək verən hər kəsə əvvəlcədən təşəkkürümüzü bildiririk!"

**Millət vəkili Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan dövləti Kəlbəcərdə ermənilərin əsir götürdüyü hər iki şəxsi azad etmək, öldürüldüyü deyilən vətəndaşımızın isə əgər öldürülübsə, cənazəsini geri almaq üçün bütün lazımi addımları atmalıdır:** "İlk növbədə beynəlxalq təşkilatları bu işə yüksək səviyyədə cəlb etmək vacibdir. Ermənilər iddia edirlər ki, guya o şəxslər kəşfiyyatçı, diversant olublar. Bunlar hamısı ermənilərin iftiralarıdır. Ermənilərin əsir götürdüyü insanlar sadə insanlardır, öz doğma rayonlarını, kəndlərini ziyarət etmək üçün gediblər. Bu, onların beynəlxalq konvensiyalara və Azərbaycan Konstitusiyasına uyğun haqqıdır. Bu hüquqlarından istifadə edən insanlara qarşı Ermənistanın terrorçu kimi davranışı beynəlxalq hüququ ayaq altına atmaqdır. Azərbaycan dövləti məsələni bu şəkildə qoymalıdır".

**V.Əhmədov yaranmış vəziyyətdə hərbi əməliyyatlara başlamaq çağırışlarına da münasibət bildirdi:** "Son vaxtlar prezident İlham Əliyevin də bəyanatlarında hərbi əməliyyatlara başlamaq fikirləri səslənir. Azərbaycanın öz torpaqlarını hərbi yolla azad etmək zamanı yetişib. Ermənistan vəhşiliklə işğal etdiyi torpaqları sülh yolu ilə azad etməyəcək. Yeganə yolumuz torpaqlarımızı antiterror əməliyyatları ilə azad etməkdir. Ukrayna dövləti və xalqının öz torpağının azadlığı üçün necə mübarizə apardığı bizim üçün nümunə, ibrət olmalıdır. Biz də çox ciddi addımlar atmalıyıq. Son vaxtlar prezidentin bəyanatları da göstərir ki, Azərbaycan hərbi yola əl atmağa hazırdır".

**Millət vəkili Fazil Mustafa bildirdi ki, Azərbaycan müvafiq beynəlxalq qurumlara müraciət edərək işğal altındakı öz kəndlərinə ziyarətə gedən şəxslərin erməni işğalçı qüvvələri tərəfindən əsir götürülməsi və öldürülməsi faktını rəsmiləşdirməlidir. Bu məsələ beynəlxalq tribunadan səsləndirilməlidir:** "Çünki Kəlbəcər Azərbaycan ərazisidir. O adamlar Ermənistan ərazisinə yox, Kəlbəcərə gediblər".

**F.Mustafa onu da dedi ki, Dilqəm Əhmədov, Şahbaz Quliyev və öldürüldüyü söylənən Həsən Həsənov diversant olmayıblar, sadə insanlar olublar. Ancaq bundan sonra Azərbaycanın işğal olunmuş rayonlarına diversant qruplarının ardıcıl göndərilməsi vacibdir:** "Bölgəni tanıyan Dilqəm kimi insanların könüllülük əsasında diversant kimi işğal altındakı bölgəyə yönləndirilməsinin faydası olacağını düşünürəm. Düşmən nəzarətindəki ərazilərə səfər tədqirəlayiq olsa da, bu səfərlər diversiya məqsədi ilə, dövlətin razılığı əsasında həyata keçirilməli və məqsəd qarşı tərəfə zərbə vurmaq olmalıdır. Torpaqları işğal altında olan bir dövlət kimi Azərbaycanın diversiya haqqı var və biz bu haqdan istifadə etməliyik. Bu yolla ermənilərə zərbələr vurmaq, onlarda qorxu və narahatlıq yaratmalıyıq. Ermənilər hiss etməlidirlər ki, biz işğalla barışmamışıq və öz torpaqlarımızı azad etmək üçün çalışmaqdayıq. İşğalçını qorxu altında saxlamalıyıq".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə isə özünün facebook səhifəsində bildirib ki, bütün oğulları kimi Azərbaycan bu iki qorxmaz oğlunun da qayğısına qalacaq:** "Şübhəm yoxdur ki, dövlətimizin gücünü bu məsələdə də görəcəyik. İki mülki vətəndaş erməni işğalçılarının cəbhə xəttini hiss edilmədən keçərək işğal altında olan Kəlbəcər rayonuna gəlir və hətta orada videoçəkilişlər də edirlər. Bu isə Ermənistanın özündə Ermənistan ordusu haqqında mifi darmadağın etmiş olur.



Fazil Mustafa



Aydın Mirzəzadə



Qənirə Paşayeva

Üç mərd Azərbaycan kişisinin ölümünü gözünün qarşısına alaraq düşmən tərəfə keçməsi və özlərini evlərindəki kimi hiss etməsi xalqımızın genetik qorxmazlığından xəbər verir. Əslində də belədir. Kəlbəcər Azərbaycan ərazisidir və o adamlar öz evlərinə getmələri üçün kimdənsə icazə almağa ehtiyac görməyiblər. Yaxınlarının dediklərinə görə, onlar əvvəllər də o ərazilərə gedib-gəlirlərmiş. Ermənistan əsgəri tutduğu ərazini heç də güclü qorumurmuş. Hər halda, Dilqəmin və Şahbazın o ərazidə tutulması bunu sübut edir. Göründüyü kimi, silahsız Azərbaycan kişisi silahlı erməni əsgərindən, döşü medallı erməni generalından qat-qat güclü imiş. Bu addımları ilə həmin soydaşlarımız Ermənistanın kürkünə birə saldılar. Bütün oğulları kimi Azərbaycan bu iki qorxmaz oğlunun da qayğısına qalacaqdır. Şübhəm yoxdur ki, dövlətimizin gücünü bu məsələdə də görəcəyik".

**Millət vəkili Qənirə Paşayeva isə bəyan edib ki, Kəlbəcərdə ermənilərin iki kəlbəcərlini Dilqəm Əhmədov və Şahbaz Quliyevi girov götürməsi azərbaycanlılar kimi BMT, ATƏT, Minsk Qrupu da daxil olmaqla, beynəlxalq təşkilatları və ictimaiyyəti də ciddi narahat etməli və təcili addım atmalıdırlar:** "İnsanı öz həyatını riskə atmağa nə vadar edə bilər? Torpağının, evinin həsrəti. Beynəlxalq təşkilatlar və İctimaiyyət anlamalıdır ki, öz evindən köçkün düşmüş insanlar artıq dözə bilmir və öz həyatlarını riskə atmaq bahasına da olsa doğulduğu, həyatının böyük bir hissəsini keçirdiyi torpağı, əlləri ilə tikdiyi evini, yaxınlarının qəbirlərini görmək istəyir, artıq dözə bilmirlər. Kəlbəcər onların ata-baba torpaqlarıdır, ermənilərin deyil və bu insanların öz evlərinə getməsində qeyri-qanuni heç bir şey yoxdur. Qeyri-qanuni işi Kəlbəcəri işğal edib, oranı işğalda saxlayan və kəlbəcərli qardaşlarımızı girov götürən ermənilər edirlər. Kəlbəcərli qardaşlarımızın girov götürülməsi Ermənistanla bərabər indiyədək münaqişənin tənzimlənməsi istiqamətində heç bir ciddi addım atmayan beynəlxalq təşkilatların, özəlliklə ATƏT-in Minsk Qrupunun da suçudur. İndiyədək işğalçı Ermənistandan işğal etdiyi torpaqları azad etməsini tələb etsəydilər bu kimi hallar yaşanmazdı. Ermənistan girovlara qarşı insanlıqdan kənar əməlləri ilə bir daha çirkin xislətlərini ortaya qoydu. Beynəlxalq təşkilatlara, Qızıl Xaça səslənir və tələb edirik ki, girov götürülmüş qardaşlarımızın azad olunması üçün təcili tədbirlər görsünlər, duyarsız qalmasınlar. Onlar onsuz da uzun illərdir köçkün həyatı yaşamaqla ağrı və əzab içində yaşayırlar. Onlara daha artıq əzab verilməsini kəskinliklə qınayırıq. Ermənilərin öz torpaqlarına gedən mülki azərbaycanlıları mühakimə etmək hüququ yoxdur. Nə ilə mühakimə edəcəklər? O torpaqlar Azərbaycanındır, o insanlar isə evlərinə gediblər. İstənilən azərbaycanlının öz ərazisinə getməyə tam hüququ çatır. Hamımız Qızıl Xaç, beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupu həmsədrlərini qardaşlarımızın geri qaytarılması üçün lazımi addımlar atmağa çağırırıq və artıq yetər deyirik. Bu insanların ağrısını artıq anlayın. Sadəcə bircə dəqiqə özünüzü onların yerində hiss edin".

**Dünən isə Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan tərəfinin diversiyalar haqqında iddialarına daha bir sərt cavab verib. Müdafiə Nazirliyi bildirir ki, Ermənistandan səslərdirilən bu fikirlərin heç bir əsası yoxdur:** "İşğal olunmuş ərazilər suveren Azərbaycanın torpaqlarıdır, azərbaycanlıların həmin ərazilərə keçməsinə və orada sərbəst hərəkət etməsinə qadağa qoyula bilməz. Erməni tərəfinin iddia etdiyi kimi, bu şəxslər heç bir dövlət sərhədini də pozmayıblar. Çünki işğal nəticəsində, qeyri-qanuni yolla "qurulmuş" qondarma rejimin nəzarətindəki torpaqlar BMT tərəfindən tanınan Azərbaycan Respublikasının ərazisidir. Azərbaycan Respublikasına təcavüz aktı etmiş, vətəndaşlarına qarşı divan tutulması siyasətini yürüdən, Xocalı soyqırımının törədilməsində iştirak edən Ermənistan Respublikasının cinayətkar rəhbərliyi, o cümlədən Seyran Ohanyan yaxın vaxtlarda ədalət məhkəməsi qarşısına çıxarılacaq və onların əməllərinə beynəlxalq hüquqi-siyasi qiymət veriləcəkdir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, Azərbaycan Silahlı Qüvvələri mülki şəxsləri, qeyri-peşəkarları cəlb etmədən istənilən döyüş tapşırığını və əməliyyatı yerinə yetirmək üçün bütün imkanlara malikdir".

Artıq məsələ ilə bağlı Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası açıqlama yayıb. Açıqlamada əsirlərin işləri ilə bağlı məsələnin diqqət mərkəzində olduğu qeyd edilib.

**Kəlbəcərdə öldürüldüyü deyilən Cəbrayıl rayon sakini Həsən Həsənovun həmyerlisi, Qarabağ veteranı Vaqif Əlisoy isə məlumat verib ki, Həsən Həsənovu yaxından tanıyır:** "35-40 yaşlarındadır. Qarabağ əlilidir. Dünən Qarabağ Azadlıq Təşkilatının qərargahında onunla bağlı toplantı oldu. Təşkilat adından Beynəlxalq Qırmızı Xaç Komitəsinə, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəhbərliyinə müraciət edəcəyik".

**Vaqif Əlisoy xaricdəki diaspor təşkilatlarına müraciət edərək, onları Ermənistan səfirlikləri qarşısında etiraz aksiyaları keçirməyə çağırıb:** "Bu istiqamətdə rəsmi müraciətimiz olacaq. Bununla da vətəndaşlarımızın tezliklə Azərbaycana qaytarılmasına kömək olmağa çalışacağıq. Biz dövlətimizə güvənirik, bilirik ki, onlar geri qaytarılacaq".

Beynəlxalq Qızıl Xaç Komitəsi isə dünən növbəti açıqlamasını verib. Modern.az-a Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib ki, girovluqda olan şəxslərin ailələrindən müraciətlər alıb və bu məsələ ilə əlaqədar tərəflərlə dialoqu davam etdirir. Şöbə rəhbəri Şahbaz Quliyevin gözlərinin çıxarılması ilə bağlı yayılan məlumatlara cavab olaraq bildirib ki, BQXK heç bir halda saxlanılan şəxsin durumu barədə mətbuata açıqlama vermir.

**Dilqəm Əhmədovun qohumu Elxan Nəbiyev isə movqe.az saytına deyib ki, Dilqəm ələ keçəsi oğlan deyildi. O, o tərəflərin torpaqlarını addım-addım tanıyırdı:** "Bu birinci dəfə deyildi ki. 1999, 2001, 2002, 2004, 2006, 2007, 2009-cu illərdə Dilqəm Kəlbəcərə, Şaplara gedib, sağ-salamat da qayıdıb. Heç ələ keçəcəyini ağlına da gətirmirdi. Çox hünərli oğuldur Dilqəm. O deyirdi ki, öz torpağıma keçmək üçün düşməndən icazəmi almalıyam?! Axı onu niyə qınayırlar? Uşaqlığımız onunla bir kənddə keçib. O torpaqların qoxusunu içinə çəkmək istəyirdi. Çox təəssüf ki, ehtiyatsız davranıb bu dəfə".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014

**Sabiq YAP-çı deputat Maksim Musayevin hakim partiya rəhbərliyində təmsil olunan bəzi şəxslərə ünvanlı ittihamlarına qarşı tərəfdən verilən cavab və birincinin növbəti dəfə açıq mətnlə sərt açıqlamalarının mətbuatda yer alması maraqlı bir mənzərə yaradıb. Ölkənin siyasi atmosferində demək olar ki, durğunluğun hökm sürdüyü bu yay günlərində qovğa YAP-çılar arasında gedir, özü də amansız şəkildə. Bu qarşıdurmada M.Musayev demək olar ki, döyüş səngərində tək qalıb. Dünən müraciət etdiyimiz bir neçə tanınmış YAP-çı "məni bu məsələyə qatmayın" xahişində bulundular və onların iradəsinə hörmətlə yanaşıb məsələnin üstündən keçdik. 91-lərin tanınmış nümayəndələrindən olan və artıq bir neçə ildir YAP-dan uzaqlaşmış Ariz Abdüləliyev də M.Musayevi suçlu saydı.**

# 91-lərin üzvü Maksim Musayev-YAP davasından danışdı

## Ariz Abdüləliyev: "Onun hərdən çıxıb gündəmə gəlmək üçün bir atmaca atmasını qəbul etmirəm"

***- Ariz müəllim, Maksim Musayevin ən böyük arqumenti odur ki, Əli Əhmədov vaxtilə bir neçə partiya dəyişdiyi üçün YAP rəhbərliyində təmsil oluna bilməz. Onun dediklərinə haqq qazandırırsınız?***

- Mən bu ittihamlara haqq qazandırmıram. Nə olar ki, başqa partiyanın üzvü olanda? Ona qalsa, Maksim Musayev da Kommunist Partiyasının üzvü olub. Maksim Musayev Azərbaycan rayonlarında Kommunist Partiyasının ideologiyasının icraçısı idi. Ona görə də mən bir az reallıqdan çıxış etməyi xoşlayıram. Əli Əhmədov bu partiyaya rəhbərlik edir. Əvvələ, mən ona bir ziyalı kimi hörmətlə yanaşıram. O, politologiya sahəsində alim, mütəxəssisdir. Sayılıb seçilən, öndə gedən ali məktəblərdən birində - BDU-da neçə illərdir politologiyanı tədris edir, kafedra müdiri vəzifəsini daşıyır. Bu, özü böyük məsuliyyətdir. İkincisi də əgər vaxtilə partiya sədri Heydər Əliyev Əli Əhmədova etimad göstəribsə, Maksim Musayevin söhbətinin yeri yoxdur. Partiya sədri, partiyanın başında dayanan şəxs var. YAP-ı yaradan, bu partiyanın siyasi lideri Heydər Əliyev olub. Heydər Əliyev də təcrübəli siyasətçi kimi kadrları da yaxşı tanıyırdı. O, hər zaman seçimində düz olub.



**Vaxtilə partiya sədri Heydər Əliyev Əli Əhmədova etimad göstəribsə, Maksim Musayevin söhbətinin yeri yoxdur"**

***- Maksim Musayev YAP daxilində demokratik fikrə imkan verilmədiyini deyir. Hətta bildirir ki, Stalin repressiyaları dövründə olsaydı bu dediklərinə görə YAP-ın "troyka"sı onu güllələtdirərdi...***

- Doğrusu, mən YAP daxilində çoxdandır olmuram. Bilmirəm ki, Maksim Musayev orda olub, ya yox. Üstəlik, YAP daxilində demokratiya var, yoxdu, bundan da xəbərsizəm. YAP-da kimə sual verib, müraciət edib, cavab almayıb, nəyin əsasında belə danışır, bunu da bilmirəm. Məncə, indi belə sözlərin zamanı deyil.

***- Maksim Musayev onu da deyib ki, Heydər Əliyevin zamanında YAP qurucularına diqqət daha çox idi. 91-lərin üzvü kimi siz özünüz indiki münasibətdən razısınızmı?***

- Partiya qurucularına münasibət pis olmayıb. Bunlar deputat olublar, neçə illərdir mandat daşıyan, rəhbər vəzifələrdə işləyən, öz sahəsində irəli çəkilənlər var. Şübhəsiz ki, bu, təkcə YAP-ın qurucuları olması ilə bağlı deyil, həm də qabiliyyətinə görədir. Amma şəxsən mənə gələndə, indiyə qədər özümə elə bir diqqət görməmişəm. Bununla belə, həmişə mövqeyimdə sadiq olmuşam. Üstəlik, şübhə etmirəm ki, mənim irəli çəkilənlərdən qabiliyyətim aşağıdır. Anşaf edir ki, dünən nə olduğunu unudur. Daim inkişafla ayaqlaşmaq istəyən adam, həyat tərzində, təfəkküründə, fəaliyyətində inkişafda olan, daim oxuyan, nə iləsə maraqlanan müasir insan dünənlə yaşamır. Mən dünəni facieləşdirmirəm, deyirəm "keçmiş olsun". O addımı atanları da mən ədalətli saymıram, düşünmürəm ki, kimsə düz hərəkət edib. Məsələn, mən xoşlamıram ki, Azərbaycanda ictimai rəydə adı "paralel dövlət" ideologiyasında açıq şəkildə çəkilən, buna görə hətta vəzifəsindən çıxarılan insanlar bizim hakim siyasi partiyanın rəhbərliyində təmsil olunur. Ancaq edirlər, etsinlər. Mən durub kimsə etiraz edə bilmərəm ki. Xoşlarına gəlir, saxlayırlar. Mənə qarşı çox qeyri-obyektiv, əsassız qərar oldu. Hərdən özümə də sual verirəm ki, nə caq yoxdur, yoxdur da. Olmasın, nə olar ki?

***- Artıq neçə illərdir siz YAP-dan uzaqlaşdırılıbsınız?***

- Açığını deyim ki, uzaqlaşdırılıbsınız sözündən xoşum gəlmir. Mən dəqiq xatırlamıram. Amma olar da 5 ildir YAP-da deyiləm. Vallah bunun tarixi də yadımdan çıxıb. Bəzən insan özü o qədər inkibaş verdi? Bütün bunlardan çıxış edərək "keçmiş olsun" deyirəm. Dünyanın axırı deyil ki. İnkişaf etmək, yaşamaq üçün mütləq hansısa bir partiyanın üzvü olmaq lazımdır?

Yeri gəlmişkən, bir haşiyə çıxım. Vaxtilə Sirus Təbrizli Heydər Əliyevin də iştirak etdiyi YAP-ın qurultayında çıxış edəndə deyirdi ki, Heydər Əliyevçilər YAP üzvlərindən on dəfələrlə, yüz dəfələrlə çoxdur. İndi də elədir. Bu ölkəni, bu inkişafı dəstəkləmək üçün vacib deyil ki, hansısa partiyanın üzvü olasan.

***- Maksim Musayev onu da bildirib ki, YAP-a yeni sədr müavinləri gələndən sonra onların partiyada bəzilərinin "at oynatmasına" imkan verməyəcəklər, amma bu, davam edir...***

- Maksim Musayevin bu ifadələri məni qane eləmir. Mən məsələlərə bir qədər ciddi yanaşılmasını, faktlarla danışılmasını xoşlayan adamam. Desin ki, getdim, ərizəmi yazdım, Azərbaycan qanunvericiliyinə görə ərizəmi yazdım, amma YAP-da mənim ərizəmə baxmadılar. Əgər bu fakt varsa, Maksim Musayev YAP-da demokratiyanın pozulmasından danışa bilər, yoxdursa, hərdən çıxıb gündəmə gəlmək üçün bir atmaca atmasını qəbul etmirəm. Mən faktlara inanıram.

***- Necə bilirsiniz, keçmiş qvardiyadan Maksim Musayevi dəstəkləyənlər varmı?***

- Keçmiş qvardiyadan kim qalıb ki? Barmaqla sayılacaq adamdır. Açığını deyim, mənim Maksim Musayevlə o qədər də yaxın münasibətim yoxdur. Uzaqdan-uzağa bu insanı tanıyıram. Bilirəm ki, son illər elmi tədqiqatla məşğul olur, kitabları var. Ona münasibətim də kifayət qədər yaxşıdır. Ancaq onun hansı faktlara əsaslandığından xəbərsizəm. Filankəs at oynadır, YAP-da demokratiya yoxdur kimi sözlər hansı arqumentlərə əsaslanır, bilmirəm. O, böyük həyat təcrübəsi keçmiş insandır. Vaxtilə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdə bilavasitə iştirak edib. Ona görə də indi bunun hansı faktlara əsaslanıb danışdığını bilmirəm. Şəxsən mən gedib müraciət edərəm, baxmazlar, onda sözümü deyərəm ki, demokratiyanı pozursunuz. Yoxsa ildə bir dəfə, ya iki-üç ildən bir nəsə demək düzgün deyil.

***- Eşitmişik Maksim Musayevlə Əli Əhmədov eyni kənddəndir. Maraqlıdır, onların arasında nə baş verib ki, gərginlik ocağı illərdir sönmür?***

- Mən Əli Əhmədovun və Maksim Musayevin Ermənistan kökənli olduğunu bilirəm, amma hansı kənddən olduqlarını bilmirəm.

❑ **Elşad PAŞASOY**

# Yerli Eskobarı tanıyaq



**Xalid KAZIMLI**

**Son günlərdə narkotik maddələrə dair ölkə mediasında keçən başlıqlar belədir:**

"Balakən sakininin evində narkotik tərkibli bitki aşkarlanıb";

"Meyxanaçı Bayram Kürdəxanılı narkotik maddə ilə tutulub";

"Gədəbəydə 6 tondan çox çətənə kolu məhv edilib";

"Şəmkir sakini külli miqdarda narkotik vasitə və odlu silahla saxlanılıb";

Başqaları da var: bir neçə qramlıq şeylər...

Biri də var: 3 tona yaxın maye heroin. Qramlıq narkotik maddələrin qanunsuz dövriyyəsindən yazanlar 3 tonluq heroindən yazmırlar. Amma bu barədə yazanlar da var.

Hazırda ölkəmizdən tutmuş dünyanın o başına qədər onlarla rəsmi dairədə bu narkotrafik barədə söhbətlər gedir.

Azərbaycanda isə bu xüsusda inadla, israrla, konfuz işində, suya-buza dönmüş halda susurlar. Öyünüləcək bir şey yoxdur, ona görə.

Dünyanın qara bazarındakı qiymətlərlə götürsək, 170 milyon avroluq sərvət tutulub, əllərdə qalıb.

Kimlərsə buna cavab verməlidir, kimlərsə məsuliyyətə cəlb edilməlidir - tık yoxdur.

Hamı yaxşı anlayır: 3 tona yaxın maye heroini adi narkotacirlərin belinə şələləyib vəziyyətdən çıxmaq mümkün deyil.

Bu, şəbəkələşmiş bir narkomafiyanın işidir. Zamanında belə əməliyyatları Kolumbiyadakı "Medelin karteli"nin bossu Pablo Eskobar edərdi.

Bəs ölkədən-ölkəyə daşınan 3 tonluq heroinin "Eskobar"ı kimdir?

Azərbaycan tərəfinin susqunluğu müdhiş gerçəklikdən xəbər verir. Belə çıxır ki, həmin "Eskobar" uzaq Əfqanıstanda, yaxın İranda, qonşu Gürcüstanda, qardaş Türkiyədə deyil, bizim ölkəmizdədir.

Rəsmilərimizin susqunluğu ondan xəbər verir ki, onlar milli "Eskobar"ın kimliyini bilir və onun gücü, qüdrəti qarşısında susmaqdan başqa yol tanımırlar. Susqunluğun bir səbəbi isə o boyda qadağan olunmuş təhlükəli materialın Azərbaycan sərhədlərindən, gömrükdən sərbəst şəkildə keçib getməsidir.

Bu maddələrin "Eskobar"ı bu ölkədə olmasa da, onun himayədarı, ortağı dəqiq bu ölkədədir və o, dırnağından saçına qədər korrupsiya bataqlığına girmiş şəxs və ya şəxslərdir.

Bəs bu qalmaqallı işin, müdhiş cinayətin üstü açılacaqmı?

Əminliklə demək olar: açılmayacaq!

Hermetik şəkildə ört-basdır ediləcək. Sanki ümumiyyətlə belə bir hadisə olmayıb.

Əksinə olsaydı, hadisənin üstündən keçən bu beş gündə 3 tona yaxın heroinin ölkədən-ölkəyə sərbəst keçirilməsinə yol verən birinci, ikinci, üçüncü dərəcəli adamlardan ibarət xeyli məmur işdən qovular, həbsə alınardı.

Bu işi açmaq çoxmu çətindir? Ortada yaxalanmış adamlar var və onlar ibtidai istintaqda malı haradan gətirdiklərini, kimdən aldıqlarını deyiblər. Düz-dünya kameralarla doludur. O izlərlə irəliləyərək Əfqanıstana qədər getmək, çətənə plantasiyasında alın təri tökərək çörəkpulu qazanan dehqana (kəndli) belə çıxmaq olar.

Bunun əvəzinə hadisənin malalanması, söhbətin başının bağlanması prosesi gedir.

Ağzımızda mafiya deyirik. Özü də narkomafiya. Bunlar dövlət içində dövlətdir.

Müasir eskobarlar meşəli dağlara çəkilib dövlətlə dövlətçilik eləmir, gizli laboratoriyalar qurub narkotik maddə istehsalı ilə məşğul olmur, dövlət orqanları tərəfindən təqib olunmurlar.

Müasir narkobaronlar dövlətin ali postlarını, yüksək mənsəbləri elə keçirir, nazir, komitə sədri olur, xırda narkotacirləri, onların bazarına girənləri təqib edirlər.

Ən qorxulusu da budur.

Zamanında cəmi 32 yaşındaykən Kolumbiyada namizədliyini verərək Konqresin əvəzedici üzvü seçilən (konqresmen olmadıqda səsvermə hüququ olan) Eskobar narkotik maddələrdən qazandığı milyardların verdiyi iddia ilə ölkə prezidenti seçilmək istəmişdi.

Bir anlıq təsəvvür edək ki, o, gerçəkdən də prezident və ya baş nazir olsaydı, nələr olardı. O zaman narkokartellərdən söhbət getməzdi və narkotik maddələrin istehsalı, daşınması, satışı dövlət nəzarətinə keçər, xalq təsərrüfatının bir hissəsi olardı.

Bu gün Əfqanıstanda məhz o cürdür. Lent.az saytının əməkdaşı Səbuhi Məmmədlinin bir neçə ay öncə Əfqanıstandan hazırladığı reportajda ölkə əhalisinin uşaqlı-böyüklü kütləvi və leqal çəkildə narkomaniyaya mübtəla olduğunu göstərən qeydlər və şəkillər vardı. O ölkə məhv olub gedir.

Özbaşına buraxılsa, narkomafiyalar bütün dünyanı o hala salmağa hazır və qadirdirlər. Təki pul gəlsin, cümlə-cahan batsa da, batsın.

YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014



# Lazımın oğlu da öldü...

Zamin HACI
zaminhaci@gmail.com

**Üç ton heroini Gürcüstana ötürüb üç qram tiryəkə görə meyxanaçı Bayram Kürdəxanılını tutan hökuməti qınayırıq. Belə olur ki, xiyar əyri bitir. Ancaq BMT yanında Milli Narkotika Şuramızın (nəsə buna oxşar adı var idi, gülmək məni tutduğundan dəqiq yaza bimirəm) şefi Məzahir müəllimin həmin 3 ton heroinə izahatı dünya satira tarixinə düşəcəkdir. Hələ heç kim öz hökuməti ilə bu cür məzələnə bilməyibdir ki, onu Məzahir müəllim eləmişdir.**

Deyir biz narkotikin maşında olduğunu bilirdik, özümüz buraxdıq gürcülər tutsunlar. Səbəb isə... Gürcüstanın yeni hakimiyyəti imiş! Yapistlər istəyiblər onlar da narkotik tutsun, BMT-də-zadda biabır olmasınlar. Sən demə, orda hərdən konfrans olanda gürcülər və ermənilər utana-utana deyirmiş ki, azərbaycanlılar ildə 10 ton çətənə kolu yandırır, biz isə bir-iki "baş" nəşə tapanda sevinirik. Bax, vəziyyət bu qədər dramatikdir. Azərbaycan xalqını bu dərəcədə səfeh yerinə qoyub barmaqlarına dolayırlar. Zakir Həsənovun "Torpağı özümüz ermənilərdə saxlayırıq, qoy sevinsinlər, bizim torpağımız çoxdur" deyəcəyi gün uzaqda deyil. Bəlkə də deyib, mənim xəbərim yoxdur. Nədən xəbərimiz var ki? Aftafanı götürüb tualetə gedirsən, elə oturduğun yerdə AzadlıqRadiosunda təzə araşdırma dərc olunur, məlum olur aftafa hansısa offşor zonasında ayrı adamın adına qeydiyyatda imiş. "Dəli yığıncağı"nın yeni, postmodern variantı yazılmalıdır. Əslində əhvalat bir az da Əbdürrəhim bəyin məşhur "Bomba" hekayəsinə oxşayır. Yapistlər istəyiblər gürcü "Kərbəlayı Zal" da ömründə bir paslı baltadan-zaddan tapsın, hökumət qulluğunu başa vuranda, pensiyaya çıxanda xımır-xımır yeməyə bir şey olsun. Bu arada Zakir müəllimdən söz düşmüşkən, MN hərbi hissələrində növbəti əsgər ölüb. 15 iyulda. Deyə bilərsiniz burda nə yenilik var, heç xəbərini yazmağa dəyməz, hansısa yetimin uşağıdır, adına ofşor şirkəti olmayan, yesir birisi ölüb, onsuz hamımız öləcəyik, onu öldürənləri Ramazan ayına tapşıraq, özümüz də təzədən yıxılaq yataq və sairə. Əlbəttə, haqlı olarsınız. Hər ay neçə əsgərimiz boş yerə ölür. Ancaq bu halda ölən əsgərin adında bir detal diqqətimizi çəkdi: Xəlilov Orxan Lazım oğlu. Lazım kişinin oğlu imiş. Yəqin yapistlərin "lazım gəlsə torpaqlarımızı geri alarıq" cümləsinin xalq arasında necə ironiya obyekti olduğunu bilirsiniz. Sinik görünmək istəmirəm, yoxsa bu ölüm də bənzər şərhlərə yol açır. Vəziyyət tragikomedik olanda istənilən sinizm əxlaq mücəssəməsi kimi görünür. Elgiz və İbrahim Məmmədov veriliş aparır e, siz nədən danışırsınız?!

Yazını daimi oxucumuz Yusif Qrızlının məktubu ilə bitirirəm, çünki bu dəqiqə nə yazsam Yusif bəyin məktubundan təsirli olmayacaqdır: "Təxminən son iki əsrdə rus işğalına məruz qalan bütün xalqların tarixi kimi Azərbaycan tarixini də o dövrdə özlərinə sərf edən formada yazdırıblar. Müstəqilliyə, istiqlala qovuşsaq da təəssüf olsun ki, o dövrün tarixini yenidən tədqiq edib araşdıran yoxdur. Məsələn, Quba xanı Şıxəli xanın taleyi qaranlıq qalır. Uşaqlığımın keçdiyi Qubanın Qrız kəndinin keçmişi ilə həmişə fəxr etmişəm, qürur duymuşam. Son iki yüz illik tarixdə Qrız kəndində qızıl hərflərlə yazılası tarixi proseslər, hadisələr yaşanıb: 1. Quba xanı Fətəli xan namərdcəsinə rus canişinləri tərəfindən öldürüldükdən sonra onu əvəz edən Şıxəli xan yadelli rus işğalçılarına qarşı vuruşa-vuruşa alınmaz təbii qala olan, dəniz səviyyəsindən təxminən 2270 metr hündürlükdə yerləşən Qrız kəndinə pənah gətirir. Qrızlılar Şıxəli xan və onun döyüşçüləri ilə bir yerdə təxminən 5-8 ilə yaxın müddət ərzində rus işğalçılarına qarşı müqavimət göstərərək vətənpərvərlik nümayiş etdiriblər. Həmən dövrdə Quba xanlığı Qrız kəndində fəaliyyət göstərib (Qrız qalası). 2. 1918-ci ildə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə demokratik yolla formalaşan çoxpartiyalı parlamentin 7 dekabr ilk açılış iclasında qrızlıların Cümhuriyyətə ünvanlanmış təbrik məktubu oxunub. Məktubun mahiyyəti yeni qurulmuş Xalq Cümhuriyyətini dəstəkləmək, Azərbaycanın xoşbəxt gələcəyinin həmin ideologiyada olduğunu uzaq görənliklə ifadə etmələri olub".



# Moskva Dilqəm Əhmədova sahib çıxacaqmı?

## Öz təbəələrini milli mənsubiyyətə görə sortlara bölən Rusiyanın vətəndaşını girov götürən Ermənistana göz ağardacağı bilinmir; şimal qonşumuzun hüquqi dövlət olub-olmadığı növbəti sınaqla üz-üzə...

**Yeni diversant oyunu oynamaq üçün ermənilərin əlinə fürsət düşüb. Düşmən ölkədən gələn xəbərlərdən belə qənaət hasil olur ki, onlar Azərbaycanın işğal altındakı Kəlbəcər rayonunda əsir götürülən mülki şəxslər - Dilqəm Əhmədov və Şahbaz Quliyev üzərində "sərhədi qanunsuz keçən qatı cinayətkarlar" kimi "beynəlxalq hüquq və milli qanunvericilik" əsasında "ədalətli məhkəmə" qurmağa hazırlaşırlar.**

Məsələnin absurdluğu da ondadır ki, hər hansı hərbi mükəlləfiyyət daşımayan və hərbi geyimdə olmayan bu dinc azərbaycanlılar Azərbaycandan BMT tərəfindən tanınan sərhədlərindən kənara çıxmayıblar, Ermənistan sərhədini pozmayıblar, sadəcə, doğulduqları, fəqət 21 ildən çoxdur yadellilərin işğalı altında olan yurdlarına bildikləri üsulla baş çəkiblər.

Qısası, onlar öz vətənlərində vur-tut yerdəyişmə edib, kabab çəkib, yeyib-içiblər - həyatlarını riskə qoyaraq. İndi bu hərəkətlərin hansı biri beynəlxalq konvensiyalara görə, cinayət əməli, yaxud qanunsuzluqdur? Nə vaxtdan qondarma "DQR"in uydurduğu sərhədlər beynəlxalq sərhədlər hesab edilirmiş? Separatçı rejimin adı heç "it dəftəri"ndə varmı ki?

İş də ondadır ki, separatçı qurum olaydan özünü dünyaya "müstəqil dövlət" qismində tanıtmaq üçün dəridən-qabıqdan çıxmağa çalışacaq. Halbuki məsələdə qanunsuz nəsə varsa da bu, elə məhz Azərbaycan ərazilərində, Kəlbəcərdə qanunsuz sərhəd dirəkləri quran, dövlət içində dövlət yaradan, dinc insanlarımıza qarşı quldurluqla məşğul olan, demək, birbaşa Azərbaycanın cinayət qanunvericiliyinin konkret maddələrinin təsiri altına düşən erməni işğalçılarının mövcudluğudur, hansılar ki, indiyədək mühakimə olunmayıblar, Haaqa Tribunalına çıxarılmayıblar.

Bu mənada baş verən hadisə öncəliklə suveren Azərbaycanın öz haqq səsini dünyaya bir daha çatdırmaq, erməni işğalının iç üzünü açmaq üçün mühüm bir şansdır. Məsələni çevik şəkildə müvafiq beynəlxalq strukturların - BMT-nin, ATƏT-in, AŞ PA-nın diqqətinə çatdırmaq, əsir götürülən soydaşlarımızın dərhal buraxılmasına nail olmaq Bakı üçün çətinlik törətməməlidir. Gecikmək olmaz. Bu, həm də bir prinsip məsələsi, torpaqlarımızın işğal altında olduğunu dünyanın yadına salmaq üçün növbəti əlverişli fürsətdir.

Əslində ermənilər özləri də bilmədən özlərini qəliz duruma salıblar. Söhbət həm də Dilqəm Əhmədovun Rusiya vətəndaşı olmasından gedir. Bəlkə də hadisədə ən maraqlı özəllik elə budur: Ermənistan forpostu olduğu ölkənin vətəndaşını "diversant" kimi qələmə verib, ona ömürlük həbs cəzası kəsmək istəyir. Rusiya buna necə baxacaq? Öz vətəndaşına, özü də qanunsuz saxlanılan vətəndaşına *(hər halda, Dilqəm Əhmədov Azərbaycana qanuni yolla gəlib)* sahib çıxacaqmı? Heç olmasa onu güclü bir vəkillə təmin edəcəkmi?

Bildiyimiz qədər Rusiyanın Bakıdakı səfirliyi artıq vəziyyətdən xəbərdardır. Doğrudur, Rusiya dünyanın istənilən nöqtəsində öz təbəəsinin qayğısını çəkən, onun qeydinə qalan ABŞ kimi demokratik ölkə deyil. Rusiya hətta öz vətəndaşlarına milli mənsubiyyətə görə fərq qoyduğunu dəfələrlə nümayiş etdirib. Orxan Zeynalov olayını yada salın: Zeynalov axtarışda olarkən Moskvada kütləvi təqiblərə gəlmələrlə yanaşı, fərq qoyulmadan bu ölkənin azərbaycanlı vətəndaşları da məruz qalmışdılar...

Ancaq Dilqəmlə bağlı situasiya fərqlidir. İndi Rusiya vətəndaşını ermənilər faktiki girov götürüb və qanunsuz şəkildə mühakimə etməyə hazırlaşırlar. Yəni hər şey qırağa, söhbət ən əvvəl hüquqi anlamda Rusiyanın mühakiməsindən gedir. Odur ki, başqa ölkələrin vətəndaşlarına səxavətlə rus pasportu paylayan bu dövlətin hüquq sistemi, qanunvericiliyi, bütövlükdə hüquqi dövlət olub-olmadığı indi ciddi bir sınaqla üz-üzədir - girov götürülənin etnik mənsubiyyətindən asılı olmayaraq.

Moskva bu sınaqdan çıxa biləcəkmi? Söyləmək çətindir. Çünki onun üçün hüquq, beynəlxalq hüquq çoxdan öz bakirəliyini itirib. Krım olayları bunu əyani şəkildə nümayiş etdirdi və hələ də etdirməkdədir.

❑ Siyasət şöbəsi

# Qərbin İraqdan başlatdığı uğursuz proje

## Zahid Oruc: "Bu gün insanlar hətta əvvəlki dövrdəki diktatura vəziyyəti üçün darıxmağa başlayıblar"

**Qərbin Səddam Hüseyn rejimini yıxmaqla İraqda başlatdığı Yaxın Şərq projesi adıçəkilən ölkəyə və diktaturadan əziyyət çəkən region dövlətlərinə demokratiya gətirmək iddiası ilə başlansa da ötən 10 ildə vəziyyət daha da dramatikləşib. Nəinki İraqda, bütövlükdə bu regionda demokratiyadan əlamət yoxdur. Əksinə, diktatura rejimlərinin yerini həmin ölkələrdə separatizm, vətəndaş müharibələri, on minlərlə insanın məhv olması prosesi tutub.**

Bu mövzuda "Yeni Müsavat"a şərhində deputat **Zahid Oruc** bildirdi ki, Yaxın Şərq planı uzun illər ərzində Qərb mediasında geniş şəkildə tirajlanmaqda və müzakirədə idi. Qeyd etdiyimiz regionun siyasi xəritəsinin yenidən cızılması, rejimlərinin təzələnməsi həmçinin oradakı qüvvələr nisbətinin tamamilə dəyişdirilməsi və digər dövlətlərin həmin bölgədən çıxarılması adı altında uzun illər ərzində müxtəlif beyin mərkəzləri, siyasi institutla, analitik dairələr doktrinalar hazırlamaqdaydı. Həmin planların nəticələri bu gün göz önündədir: "Biz həmin planlarla tanış olanda görürdük ki, hətta amerikapərəst rejimlərin belə, yeniləşdirilməsi fonunda guya demokratiyanın dördüncü dalğası həyata keçiriləcək. Bu, artıq 1970-ci illərdə Portuqaliyadan və hər hansı digər başqa ölkələrdən qara polkovniklərin həyata keçirdiyi siyasi çevrilişlərdən daha fərqli bir şərait vəd edəcək. Halbuki kənardan ixrac olunan demokratiya və bolşevizm eyni mahiyyətlidir. Yəni Leninin ötən əsrin əvvəllərində öz silahdaşlarına qoyub getdiyi irs və yaxud vəsiyyətlər, siyasi proqramlar necə dağıdıcı oldusa, eyni ilə də bu gün demokratiya düşərgəsi altında böyük bir məkanda platsdarm kimi əməliyyatlar həyata keçirilməkdədir. Həmin qeyd olunan siyasətin sonucunda ölənlərin sayı yüz minlərlədir. Hətta İraqda bu rəqəmin milyonu keçdiyi söylənilir. Belə olan təqdirdə zənn edirəm ki, əslində ərəb dünyasında məlum inqilabi ssenarilər adı altında həyata keçirilən layihələr bütövlükdə uğursuz oldu".



Zahid Oruc

**Deputatın sözlərinə görə, bu gün İraqda məlum İŞİD-İslami Xilafət Birliyi terror vasitəsilə baş kəsərək ABŞ-a və digər dairələrə meydan oxuyan qüvvələr müəyyən xalq kütlələri içərisində ona görə xilaskar kimi qəbul olunur ki, Səddamın sanki ruhu təcəlla edib. Yəni bu gün insanlar həmin dövrdəki diktatura, ayrı-ayrı ərazilərdə hüquqsuzluq vəziyyəti üçün darıxmağa başlayıblar:** "İndi elə bir acınacaqlı durumla üzləşiblər ki, Səddam zamanının daha yaxşı olduğunu düşünməkdədirlər. Ona görə də mən hesab edirəm ki, məlum regionda Səddamın hakimiyyətdən uzaqlaşdırılması ilə başladılan siyasətin sonucu sübut elədi ki, kənardan eksport edilən layihələr, üsul-idarələr, modellər xalqlar tərəfindən həzm edilə bilmirsə dayanıqlı olmur, sürətlə deqradasiya edir və istənilən şəraitdə sosial qrupların toqquşmasına yol açır. Buna görə də düşünürəm ki, bu gün Səddam Hüseyn dirilsəydi o, özünün əzəli və əbədi düşmənlərinə qarşı meydan oxuyardı ki, bölgə üçün alternativ üsul-idarə yox idisə, ən yaxşısı onun üsul-idarəsinə dayanmaq idi. Səddamın özünü asırdılarsa belə, heç olmasa onun generalları ilə bir dövr üçün işləməli idilər. Misirdə vəziyyətin düzəlməsi üçün Mübarək dövrünün generallarının hakimiyyətə gətirilməsi İraqdakı yanlışlıqdan çıxarılan nəticə idi. Əslində dünyanın təhlükəsizliyinə Qərbin İraqdan başlanan məlum siyasəti zərbə vurdu. Rusiya bunlardan sadəcə yararlandı. Rusiya bu gün ona görə SSRİ varisi rolunda çıxış edə bilir ki, Qərbin həmin səhv siyasəti ortadadır. Bu siyasət bizim bölgəmizin maraqlarına, təhlükəsizliyinə, Qarabağ probleminə də mənfi təsir elədi. Əgər İraqda, Əfqanıstanda, bütövlükdə ərəb dünyasında sülh, normal təhlükəsizlik yaşansaydı bəlkə də Qarabağ məsələsi də həll olunmuş olardı".

❑ Etibar SEYİDAĞA

**İsrailin Fələstin torpaqlarını bir həftədən artıqdır havadan və qurudan atəşə tutması nəticəsində yüzlərlə dinc fələstinli həlak olub, bir neçə min insan yaralanıb. Misirin təşəbbüsü ilə İsraillə Həmas arasında atəşkəs əldə edilsə də silahlar cəmi 6 saat susub. Ötən gün yenidən bərpa olunan hərbi əməliyyatlarda çoxsaylı mülki şəxslərin həlak olması xəbəri yayılıb. Fələstin qaynaqları yazır ki, Qəzzadan 25 min insan didərgin düşüb. Ərazidə insanların təhlükəsizliyi üçün heç bir təminat yoxdur.**




# "Dünya Amerikanın diktəsi ilə hərəkət edir"

## Vəfa Quluzadə: "Bəşəriyyət sanki ABŞ-dan və Avropanın maraqlarından ibarətdir"

*İsrailin dinc əhalinin yaşadığı əraziləri bombalaması nəticəsində Fələstində böyük insanlıq dramı yaşansa da dünya birliyinin İsrailə qarşı heç bir ciddi təpkisi yoxdur. Xarici siyasət məsələləri üzrə keçmiş dövlət müşaviri, politoloq Vəfa Quluzadə ilə söhbətdə Qəzza bölgəsində baş verənlərin səbəblərini aydınlaşdırmağa çalışdıq.*

***- Vəfa müəllim, İsrail savaş qanunlarını pozaraq faktiki olaraq Fələstinin yaşayış məntəqələrini havadan və qurudan atəşə tutur. Niyə İsrailə dünyanın heç bir ölkəsindən ciddi təpki yoxdur? BMT TŞ-də nədən İsrailə qarşı sanksiyalar tətbiq etmək məsələsi qaldırılmır?***

- Dünya Amerika Birləşmiş Ştatlarının diktəsi ilə hərəkət edir. Avropa da birmənalı olaraq ABŞ-ın təsiri altındadır. Bu məsələ dünyada baş verən istənilən qlobal məsələdə üzə çıxır. Dünya sanki ABŞ-dan və Avropanın maraqlarından ibarətdir. Hər hansı məsələ onların maraqlarına uyğundursa, onun gerçəkləşməsi üçün səfərbər olurlar, dünya birliyini hərəkətə gətirirlər. Maraqlarında olmasa, susurlar, ən yaxşı halda isə tərəfsiz, arxasında heç bir real iş dayanmayan bəyanatlarla yetərlənirlər. Bir neçə ay öncə Misirdə hərbi çevriliş oldu. ABŞ-da, Avropa da bu çevrilişə nəinki susdular, hətta bu addımı müsbət qarşıladıqlarını açıq dedilər. Ancaq başqa bir yerdə xunta hakimiyyətə gəlsəydi və bu, onların maraqlarına uyğun olmasaydı, mütləq pisləyəcəkdilər, onu devirmək üçün hərəkətə keçəcəkdilər.

***- ABŞ, Qərb dünyada ədalətin bərqərar olması üçün saysız-hesabsız bəyanatlar verib və verməkdədir. Ədalət prinsipi yalnız onların daxili düzəninə hesablanıb?***

### "Bu gün İslam dünyasından heç kim Fələstin xalqına kömək etmir"

- Dünyada ədalət axtarmaq gülüncdür. Ədalət yoxdur. Bütün problemlərin də kökündə bu məsələ dayanır. Kim güclüdürsə yaşayır, kim zəifdirsə, məhv olur. Bütün dünyanı tarixi bu gerçəklikdən ibarətdir. Fələstinlilər zəif olublar, indi də zəifdirlər. Ərəb dünyası ümumiyyətlə bu gün son dərəcə dramatik durumdadır. Ərəb aləmi saysız-hesabsız konfliktlərin və parçalanmaların içərisindədir. Ərəblər vaxtilə birləşib Fələstinə yardım etmək istəyiblər, İsrailə qarşı birgə savaş açıblar. Ancaq bu müharibələrin hamısını uduzublar. Təbii, İsrail ərəb dünyasının qarşısına təkbaşına çıxıb onları geri oturtmayıb. İsrailin arxasında ABŞ başda olmaqla, Qərb dayanıb. Bu gün Qəzzada, Mərmərə dənizində baş verən qanlı olaylar bu böyük savaşın ayrı-ayrı franqmentləridir. Fələstin çox ciddi səylərə baxmayaraq, dövlət ola bilmədi. Ona görə ki, yəhudi xalqı Qərbin dəstəyini əldə etməyi bacardı, mübarizə apardı, Fələstində ərəblərdən torpaqları pulla alaraq o torpaqlarda özünə dövlət qurmağı bacardı. Yeri gələndə Sovetlər Birliyindən də, ardınca Rusiyadan da istifadə etdi, ABŞ-dan, bütün Qərb dünyasından da dəstək ala bildi. Yəhudilər bunu bacardı. Ümumiyyətlə, dünyada ədalət məsələsi yoxdur, bacarmaq məsələsi var. Yəhudilər olduqca güclü bir dövlət qurublar.

***- Yəni siz deyirsiz ki, Həmas, bütünlükdə Fələstin məğlubiyyətə məhkumdur?***

- Həmas kimi zəif qurumlar radikal üsullarla İsrail dövləti ilə mübarizə aparmağa çalışır. Əslində yaşananlara heç mübarizə də demək olmaz. Həmas 800 raketi İsrailə yağdırıb, ancaq onların heç biri hədəfə dəyməyib. İndiyə qədər Həmas İsrailin bir hərbi bazasını, obyektini məhv edə bilməyib. Bundan da ziyan çəkən fələstinlilər olur. İsrail öz yüksək texnologiyaları ilə Qəzzanı bombalayır, yüzlərlə mülki şəxs həlak oldu, minlərlə insan yaralanır. Yaşayış yerləri yerlə yeksan oldu.

***- Vəfa müəllim, yaşananları sivilizasiyaların savaşı adlandırmaq olarmı?***

- Bu, siyasətdən olduqca uzaq yanaşmadır. Dünyada güclülər gücsüzləri hər zaman əzib. Mən bu gün Fələstində baş verənləri danışanda Azərbaycan haqqında düşünürəm. Düşünürəm ki, kiçik bir ölkə olan Azərbaycan haqqı uğrunda mübarizədə qalib gələ biləcəkmi? Bu gün aktiv döyüşlər olmasa da, biz müharibə şəraitindəyik. Bizim torpağımızın 20 faizi işğal altındadır. Önümüzdə də Rusiya kimi böyük bir imperiya dayanıb. Görək bir dövlətimizi yaşatmağı bacaracağıqmı? Bu çox ciddi sualdır. Yəhudi xalqı bunu bacardı. Onlar bütün dünyaya səpələnmişdilər. Dünya xalqları içərisində ən amansız təqiblə üzləşən xalqlardan biri yəhudilərdir. Antisemitizm bütün dünyaya səpələnən vətənsiz yəhudiləri ağır məşəqqətlərlə üz-üzə qoymuşdu. Ən böyük faciəni də bu xalq Hitler Almaniyasında yaşadı. 6 milyon yəhudi yalnız yəhudi olduqlarına görə işgəncələrlə məhv edildi. Amma belə bir böyük sınağa, məhvolma təhlükəsinə baxmayaraq yəhudilər toparlanmağı, ayağa qalxmağı, güclü dövlət qurmağı hədəf kimi müəyyən etdilər və o hədəfə çatdılar. Yəhudilər vətən yaratdılar, indi də orada inkişaf etmiş, demokratik dövlət yaradıb. İndi də olduqca təşkilatlanmış, qətiyyətli və güclü şəkildə özünü müdafiə edir. Mən çox arzu edərdim ki, Azərbaycan da İsrail kimi dövlət qura bilsin.

***- Siz siyasi reallıqlardan danışdınız, Qarabağ məsələsini misal gətirdiniz. Azərbaycan çox zaman haqlının deyil, güclünün yanında yer alır. Öz davranışlarını güclülərin mövqeyi ilə uzlaşdırır, ancaq işğal problemini çözə bilmir. Bunun səbəbi nədir?***

- Azərbaycan hansı gücün yanındadır?

***- Balanslaşdırılmış siyasət nəticəsində yeri gələndə Rusiyanın, yeri gələndə Qərbin...***

- Azərbaycan heç zaman Rusiyanın yanında dayana bilməyib, Azərbaycan Rusiyanın koloniyası olub. Qərb də bizimlə öz maraqlarına uyğun davranıb.

***- Sizcə, dünyada Fələstinə sahib çıxacaq bir güc varmı? Məsələn, ərəb dünyasından belə bir güc çıxa bilərmi?***

- Bu gün İslam dünyasından heç kim Fələstin xalqına kömək etmir. Heç kim. Hamı başa düşür ki, onların mübarizəsinin nəticəsi olmayacaq. Vaxtilə Sovetlər Birliyi Fələstindən ABŞ-ın əleyhinə istifadə etdi. Onları silahlandırdı, güclü dəstək verdi, ancaq nəticə əldə olunmadı. Sovetlər Birliyinin çökməsi ərəb dünyasında da parçalanmalara, zəifləmələrə səbəb oldu. Çünki Sovetlər Birliyi ərəb ölkələrini silahlandırırdı. İndi ərəb dünyasının belə dəstəyi yoxdur. Bir məsələ də var. Son yüzillikdə dünyada əxlaq tamamilə çöküb. Xüsusən I Dünya savaşından sonra. I Dünya Savaşında kütləvi insan qırğınları oldu. Savaş bitəndən sonra bəşəriyyət dedi ki, biz bu faciələrdən dərs aldıq, daha bundan sonra yəqin müharibə olmaz. Ancaq ondan daha dəhşətli müharibə başladı. II Dünya savaşı insanlıq tarixinin ən amansız müharibəsi oldu. İnsanların bir çöp qədər dəyəri olmadığı ortaya çıxdı, insanlar ən müxtəlif üsullarla məhv edildilər. 1 dəqiqədə Herasimo ilə Naqasakini atom bombası ilə külə döndərdilər. O zamandan əxlaq artıq bəşəriyyətin dəyərləri sırasından çıxıb. Ona görə də deyirəm ki, bütün dünya bu gün yalnız və yalnız gücə tabedir. Ədalət haqqında söhbətlərə isə sadəlövh və bisavadlardan başqa heç kim inanmır.

### "Ədalət haqqında söhbətlərə sadəlövh və bisavadlardan başqa heç kim inanmır"

❑ **Aygün MURADXANLI**

---

## Hökumət varlandıqca xarici investisiyanı ölkədən çıxarır

# ABŞ şirkəti Bakıdan qovulur

### 20 ildir Azərbaycanda fəaliyyət göstərən "McDermott Caspian Contractors Inc"ə yeni sifarişlərin verilməsi dayandırılıb; xarici şirkətlərin milliləşdirilməsi prosesi daha da güclənib

**Uzun illər Azərbaycanda işləyən ən böyük xarici neft servis şirkəti burda işini başa çatdırır. "McDermott"un törəməsi "McDermott Caspian Contractors Inc" şirkəti Azərbaycanı tərk etməyə hazırlaşır. Mayın sonunda şirkət ölkəmizdə son sifarişi başa çatdırıb.**

"McDermott Caspian Contractors Inc" bp şirkəti üçün "Chirag Oil Project" layihəsində (sualtı boru kəməri tikintisi) iş icra edib. Bu layihə icra edilərkən şirkətin ümumi işçilərinin sayı 500 nəfərdən çox olub.

Ötən aydan başlayaraq əməkdaşlar işdən çıxarılır və hazırda cəmi bir neçə ofis işçisi qalıb. Bu, onunla bağlıdır ki, şirkət yaxın gələcəkdə Azərbaycanda layihə gözləmir. Baş ofisdən Bakıdakı şirkətin bağlanması barədə tapşırıq yoxdur. Ehtimal ki, Bakı ofisi bağlanmayacaq, çünki o, regional ofis kimi fəaliyyət göstərir.

"McDermott Caspian Contractors Inc" Azərbaycanda 20 ildən çoxdur fəaliyyət göstərir. Şirkət Bakıya 1994-cü ilin əvvəlində gəlib. Şirkət Azərbaycanda fəaliyyətə başlayanda ilk neft kontraktı olan "Əsrin müqaviləsi" hələ imzalanmamışdı. Şirkətin ilk ofisi Əl Oyunları Sarayında olub. Şirkət bp-nin platformalarının baş podratçısı olub. Bundan başqa, "McDermott Caspian Contractors Inc" sualtı boru kəmərlərinin tikintisində də layihələr icra edib.

2010-cu ildə Amerika şirkəti profilinə uyğun layihə ala bilməyib. Bu dəfə platforma tikintisi AzFen-Tekfen-Amec (ATA) alyansına nəsib olub. O vaxt ABŞ şirkəti anlayıb ki, daha bu şəraitdə işləyə bilməz. Çünki artıq yerli şirkətlər bu məsələdə böyük təcrübə əldə ediblər və xariciləri bazardan sıxışdırmağa başlayıblar.

Dövlət Neft Şirkətindəki mənbələr "Turan"a bildirib ki, "McDermott" şirkəti bu illər ARDNŞ-in istehsal güclərindən *(H.Əliyev adına Dərin Özüllər Zavodu, Bibiheybətdə istehsal müəssisələri)* əvəzsiz istifadə edib, layihəyə ARDNŞ-in ən yaxşı mütəxəssislərini cəlb edib *(transfert müqaviləsi olmadan)*. Bu əməkdaşlıqdan ARDNŞ-in real kommersiya faydası olmasa da, böyük praktik biliklər əldə edilib.

Neft Şirkətindəki mənbə bildirir ki, son illər xarici şirkətlərin milliləşdirilməsi *(menecment və texniki heyətdə daha çox yerli kadrların yerləşdirilməsi, ARDNŞ və başqa yerli şirkətlərlə birgə müəssisələrin yaradılması)* göstərir ki, Azərbaycanda yerli şirkətlərlə inteqrasiya olunan şirkətlər uğur qazanacaq. Bu baxımdan "McDermott Caspian Contractors Inc" şirkətinin Azərbaycanda layihələrini dayandırması anlaşılandır.

Ümumiyyətlə, iri xarici kapitalın Azərbaycandan sıxışdırılması və milliləşdirilməsi 2006-cı ildən başlayaraq müşahidə edilməkdədir. İlk olaraq hökumət ölkənin metallurgiya sənayesinə 300 milyon dollar sərmayə yatıran Hollandiyanıın Fondel şirkəti ilə yollarını ayırdı. Ardınca isə paytaxtın enerji təchizatı ilə məşğul olan "Barmek" şirkəti ilə "vidalaşdı". Hər iki şirkətlə uzun müddətə bağlanmış müqavilə Azərbaycan tərəfinin təşəbbüsü ilə pozuldu. Bunun ardınca, "Azpetrol" Neft Şirkətinin hollandiyalı təsisçilərinin payları da məhkəmə qaydasında əlindən alındı.

Burada maraqlı bir nüans var. İndiyə qədər qeyri-neft sektoruna daxil olan iri xarici şirkətlər təqib edilirdi. İndi artıq xarici neft şirkətləri də sıxışdırılır. Görünən budur ki, hökumət varlandıqca, xarici kapitalı ölkədən çıxartmaq niyyətindədir. Ancaq məsələ bundadır ki, hökumətin "millətçi xəstəliyinə" baxmayaraq ölkə iqtisadiyyatının investisiya tələbatını təkcə yerli qaynaqlar hesabına həll etmək mümkün deyil.

Yerli qaynaqlar investisiya tələbatını ən yaxşı halda 35-40 faiz ödəyə bilər. Yəni bütün hallarda xarici investisiyaların cəlbi vacibdir. Hökumətin "millətçi xəstəliyinin" kökündə isə heç də yerli investorları qorumaq siyasəti dayanmır. Bu, sadəcə rentabelli sahələri ələ keçirmək cəhdidir.

❑ **İqtisadiyyat şöbəsi**

# Gürcüstanda tutulan 3 ton narkotiklə bağlı son məlumatlar

**Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze Azərbaycanla sərhəddə tutulan 2 ton 790 kiloqram heroinlə bağlı danışıb. Nazir narkotikin əfqan mənşəli olduğunu, Əfqanıstandan İrana, oradan Azərbaycana, daha sonra Gürcüstana keçirildiyini deyib.**



# Heroin əməliyyatından üç generalımızın xəbəri olub

## Aleksandr Çikaidze antinarkotik əməliyyatından əvvəl Azərbaycana gəlib və əməliyyatı prezident, daxili işlər, fövqəladə hallar nazirləri, DSX rəisi ilə razılaşdırıb; prosesə Rusiya xüsusi-xidmət orqanlarının da qatqısının olduğu deyilir

A.Çikaidze deyib ki, narkomafiya heroini Gürcüstandan Türkiyəyə, oradan isə Avropaya daşımağı planlaşdırıb. Lakin aylar öncə planladıqları əməliyyatla bunun qarşısı alınıb. Narkotik maddəni daşıyanlar Gürcüstan DİN əməkdaşları tərəfindən saxlanılıb.

"İstintaq maraqlarından çıxış edərək mən informasiyanın ancaq bir hissəsini açıqlaya bilərəm. Bu, əfqan narkotikidir, Gürcüstana İran və Azərbaycan üzərindən daxil olub, buradan isə artıq Avropaya çatdırılmalı idi. Narkotrafikin izinə düşməyimiz bizim əməkdaşların aylarla davam edən işinin nəticəsidir" - deyə, A.Çikaidze bildirib. **Nazir əməliyyatda iştirak edən hər kəsə təşəkkür də edib:** "Bu, misli görünməmiş haldır və hesab edirəm ki, heç də bütün nazirlər, nazirliklər bu cür iri partiyada narkotikin ələ keçirilməsi ilə fəxr edə bilməzlər".

**Narkotrafikdə iştirak edən digər şəxslərin Gürcüstanda olduğunun mümkünlüyünü deyən A.Çikaidze hazırda istintaq getdiyini, detalların isə yalnız istintaq yekunlaşandan sonra açıqlanacağını bildirib. Daxili işlər naziri narkotikin Azərbaycan sərhədindən "əməliyyat tədbirləri çərçivəsində buraxıldığını" da vurğulayıb.**

"Şübhəsiz ki, ABŞ Dövlət Departamentinin 2012-ci il hesabatı ilə müqayisədə vəziyyət dəyişib. Biz narkotiklərlə daha fəal mübarizə aparırıq, fakt ortadadır. Bir neçə səs-küylü işin üstü açılıb" - deyə, A.Çikaidze əlavə edib.

"Yeni Müsavat" Gürcüstan DİN-in hazırladığı əməliyyat planının bəzi detalları haqda məlumat toplayıb. Məlum olub ki, Rusiya xüsusi xidmət orqanlarının da iştirak etdiyi bu əməliyyat daxil olmuş məlumat əsasında bu ilin aprelində hazırlanıb. Əməliyyatın hazırlanmasına Gürcüstanın daxili işlər naziri şəxsən rəhbərlik edib. Bu məqsədlə Aleksandr Çikaidze bu il mayın 13-dən 16-na qədər Azərbaycana səfər edib. Səfər çərçivəsində prezident İlham Əliyevlə, daxili işlər naziri Ramil Usubovla, fövqəladə hallar naziri Kəmaləddin Heydərovla və Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevlə görüşüb. Gürcü nazirin görüşlərinin detalları haqda trend.az-ın yaydığı məlumatlarda antinarkotik əməliyyatının hazırlanması prosesinin hazırlandığını sezmək olur.

**Mayın 14-də daxili işlər naziri Ramil Usubovla görüşən gürcü nazirlə həmkarı arasında narkotiklərin qanunsuz dövriyyəsi haqda sənədlər də imzalanıb. Sitat:** "Xüsusilə 2002-ci ilin aprelində Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərin digər növlərinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair imzalanmış müqavilə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində əlaqələrin inkişafına təkan verib. Daxili işlər naziri mövcud problemlərdən də danışmış, transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulamışdır".

Gürcü nazir mayın 15-də Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevlə, 16-da isə fövqəladə hallar naziri Kəmaləddin Heydərovla da görüşüb. Həmin görüşlər zamanı antinarkotik əməliyyatının detallarının müzakirə edilməsi şübhə doğurmur. Bu halda ortaya sual çıxır - bəs həmin əməliyyatı Azərbaycan hüquq-mühafizə orqanları keçirə bilməzdimi?

**Narkotiklərə qarşı Milli Təbliğat Ofisinin rəhbəri Məzahir Əfəndiyev AzadlıqRadiosuna deyib ki, Gürcüstanda tutulan 2 ton 790 kiloqramlıq əməliyyat böyük sensasiya doğuracaq bir hadisə deyil:** "Bilirsiniz ki, belə əməliyyatlar məxfi və xüsusi agentura şəbəkəsinin qurulması ilə həyata keçirilir. Gürcüstan polisinin uğurla başa çatdırdığı bu əməliyyatda, şübhəsiz ki, Azərbaycan hüquq-mühafizə orqanlarının da rolu var. Fikir vermisinizsə, Gürcüstanın daxili işlər naziri deyib ki, Əfqanıstanda hazırlanan narkotik İrandan Azərbaycana keçib, ordan da Gürcüstana gətirilib, amma Azərbaycan tərəfi bundan məlumatlı olub. Fikrimcə, bir belə narkotik maddəni ələ keçirərkən, Azərbaycanla Gürcüstanın hüquq-mühafizə orqanları mükəmməl əməliyyat gerçəkləşdiriblər".

**Ofis rəhbəri "Azərbaycan hüquq-mühafizə orqanları bu məsələdən xəbərdar olubsa, niyə heroin keçirənlər elə Azərbaycandaca tutulmayıblar" sualını belə cavablandırıb:** "Bəlkə də məsələnin siyasi tərəfləri var. Bilirsiniz ki, Gürcüstanda hökumət yenidir və istəyir ki, əhali arasında böyük rəğbət qazansın. Azərbaycan tərəfi həmişə regionda sülhün, əmin-amanlığın tərəfdarıdır. Bu baxımdan ola bilsin ki, qonşu ölkəyə belə bir jest edilib".

*- Belədirsə, bu, Azərbaycanın imicinə zərər vurmurmu ki, bir-iki qramlıq narkotik maddəni tutduğunu bəyan edən bir ölkə 3 tona yaxın narkotik maddəni niyə tutmayıb?*

- Belə düşünmək tam yanlış olardı. Birincisi, Azərbaycanda hər il tonlarla narkotik maddə dövriyyədən çıxarılır. Gürcüstana nəzər yetirsəniz, görəcəksiniz ki, son 5 ildə bu ölkədə heç 300 kiloqramdan çox narkotik maddə aşkarlanmayıb. Amma Azərbaycan son 7 ildə qanunsuz dövriyyədən 10 tondan çox narkotik maddə çıxarıb. Bu baxımdan da mən məntiq və iş tərəfdarıyam. Bəli, Gürcüstanın həyata keçirdiyi bu əməliyyat çox böyük uğurdur və dünyada sensasiya doğuracaq hadisədir.

*- Olmazdımı Azərbaycan bu uğuru öz aktivinə yazaydı?*

- Olardı. Amma Azərbaycan hər il qanunsuz dövriyyədən tonlarla narkotik maddə çıxarır və bununla bağlı BMT-yə hesabat verir. BMT-də utanırlar ki, son 5 ildə Ermənistanla Gürcüstanın birgə üzə çıxardığı narkotik maddənin həcmi 1 tondan artıq olmayıb. Ancaq Azərbaycan son 6-7 ildə 10 tondan artıq qeyri-qanuni narkotik maddənin qarşısını alıb. Onu deyim ki, Əfqanıstandan Azərbaycan vasitəsilə Avropaya daşınan narkotik maddənin həcmi də çox böyükdür. Bu baxımdan, hesab edirəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları çox ayıq-sayıq olmalıdırlar.

*- Hüquq-mühafizə orqanları Gürcüstanda saxlanılan narkotik maddə barədə medianın suallarını cavabsız qoyurlar. Milli Təhlükəsizlik Nazirliyi jurnalistləri Dövlət Sərhəd Xidmətinə və Gömrük Komitəsinə yönəldir. Onlar da bu məlumatları mətbuatdan oxuduqlarını deyirlər. Beləcə, külli miqdarda heroinin hansısa bir qüvvə tərəfindən himayə olunmasına şübhələr yaranır...*

- Ola bilər. Dolğun məlumat verilməməsi müəyyən şübhələrə yer açır. Amma yenə deyirəm, Gürcüstan tərəfi bildirib ki, bu məsələdə Azərbaycan tərəfinin yardımı olub. Bu o deməkdir ki, Azərbaycan bu məsələdən xəbərdarmış.

*- Sizcə, Azərbaycanda belə böyük miqdarda narkotik maddənin keçirilməsini himayə edəcək qurum və ya qrup var?*

- Azərbaycanda hər hansı narkomafiyanın, narkoticarətlə məşğul radikal qruplaşmanın olduğuna inanmıram. Amma regional narkomafiyanın əlaltıları var. O əlaltıların toruna bəzi məmurlar da düşə bilər. Bilirsiniz ki, dünyada ikinci ən böyük gəlir narkotik alverindən götürülür. Bu baxımdan o böyük pullarla hansısa məmurun yoldan çıxarılmasına cəhdlər olur. Yəni belə hallar var. Amma Azərbaycanda hansısa narkomafiyanın mövcudluğuna gəlincə, mən buna inanmıram.

*- Bəs Gürcüstanda tutulan 3 tona yaxın narkotik maddə məsələsində hansısa məmurun ələ alınmasından da söhbət gedə bilərmi?*

- İndi istintaq gedir. Bir də deyirəm ki, bu əməliyyat Azərbaycanın razılığı ilə həyata keçirilib. Digər cinayət işlərinin araşdırılması zamanı bu yanaşmanı da ortalığa qoymaq olar.

Qeyd edək ki, deputat Zahid Oruc heroin qaçaqmalçılığı ilə bağlı "Yeni Müsavat"a müsahibəsində İranı Azərbaycana qarşı narkosavaş açmaqda ittiham edib. Deyib ki, il ərzində tonlarla narkotik maddənin İran sərhədlərindən Azərbaycan ərazisinə keçirilməsi cəhdləri olur və bu, İran xüsusi xidmət orqanlarının nəzarəti ilə baş tutur. Deputatın bu açıqlamasına istinadən söyləmək olar ki, gürcü polisinin keçirdiyi əməliyyatın Azərbaycanda deyil, məhz Gürcüstanda baş tutması rəsmi Bakının İranla toqquşmaq istəməməsindən irəli gəlib.

"Yeni Müsavat" iyulun 15-də məsələ ilə bağlı Gürcüstan Daxili İşlər Nazirliyinə informasiya sorğusu ilə müraciət edib. Həmin sorğuda Gürcüstan DİN-dən aşağıdakı suallara aydınlıq gətirilməsi xahiş olunub:

*- Gürcüstan Daxili İşlər Nazirliyi məsələ ilə bağlı Azərbaycan hökumətinə, hüquq-mühafizə orqanlarına müraciət edibmi?*

*- Narkotranziti həyata keçirənin vətəndaşlığı məlumdurmu?*

*- Yükün sahibi kimdir?*

*- Yük hansı adla rəsmiləşdirilib?*

*- Azərbaycan ərazisində yükün tranzitlə keçməsini kim təşkil edib?*

*- Narkotrafikin arxasında dayanan şəxs və ya şəxslər müəyyən olunubmu?*

Gürcüstan DİN sorğumuzun alınmasını təsdiqləyib və müvafiq şöbənin sorğunu cavablandırılacağı qeyd olunub.

Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə, gömrük və sərhəd xidməti orqanları maye halında olan, 93 ədəd 30 litrlik çəlləyə doldurulmuş heroinin sərhəddən necə keçdiyinə hələ də aydınlıq gətirməyib. Gürcüstan daxili işlər nazirinin açıqlamasından məlum olur ki, "qara bazar"da dəyəri təxminən 170 milyon dollar olan əfqan mənşəli heroinin ələ keçirilməsi üçün qurulan əməliyyat planında Azərbaycan da iştirak edib və narkotik maddə sərhəddən məhz bu əməliyyat planı çərçivəsində, yəni məqsədli və planlı şəkildə buraxılıb.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

## "3 ton heroin Ermənistandan gətirilib"

**Gürcüstan gömrüyündə içində dəyəri yüz milyonlarla dollarla ölçülən 3 tona yaxın heroin olan yük maşınının saxlanması faktı ilə bağlı yeni təfərrüatlar bəlli olub. İyulun 16-da Gürcüstan Maliyyə Nazirliyi yanında Vergilər İdarəsinin (bu idarə Gürcüstanın vergi sisteminin formalaşdırılması və ona nəzarət üzrə ən əsas qurum, baş idarə sayılır-red.) rəsmi saytı sensasion məlumat yayıb. Gürcüstanın Vergilər İdarəsi bəyan edir ki, həmin narkotik maddənin Azərbaycan sərhədlərindən keçirilməsi və Azərbaycan ərazisindən tranzit kimi istifadə olunması barədə bundan əvvəl yayılan xəbər yalandır və dezinformasiya xarakteri daşıyır.**

Virtualaz.org saytı Gürcüstan Maliyyə Nazirliyi yanında Vergilər İdarəsinin yaydığı rəsmi press-relizə istinadən bildirir ki, bu cinayətin üstü Vergilər İdarəsi əməkdaşlarının Gürcüstan Daxili İşlər Nazirliyinin dəstəyi ilə və birgə apardıqları təhqiqat zamanı açılıb. Nəticədə beynəlxalq narkotik tranziti üzə çıxarılıb. Baxış üçün saxlanılan yük maşınından maye halda olan 2 ton 790 kiloqram heroin aşkarlanaraq götürülüb.

Vergilər İdarəsinin yaydığı sənəddə o da vurğulanır ki, Gürcüstanın hüquq-mühafizə orqanları hələ indiyədək bu həcmdə narkotik maddə aşkarlaya bilməmişdilər. Gürcüstan tərəfinin bəyan etdiyinə görə, təhqiqat zamanı o da məlum olub ki, heroin yüklənmiş yük maşını Gürcüstan ərazisinə qonşu Ermənistandan keçib. Maşın yüklə birgə son təyinat yeri olan Türkiyəyə gedirmiş.

**P.S.** *Bu qədər sadə bir həqiqətin üstünün 4 gündən sonra "açılması" təəccüb və şübhə doğurur.*

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014



# Qarabağ ermənilərini danışıqlara qoşmaq planı işə salınıb?

## Erməni general Bakı-Ceyhanı vurmaqla hədələdi, Azərbaycan Müdafiə Nazirliyindən reaksiya gəldi

**Azərbaycan vətəndaşlarının işğal altındakı Kəlbəcər ərazisində erməni canilər tərəfindən girov götürülməsindən sonra torpaqların azadlığının yalnız müharibə ilə mümkün olması fikri daha da qətiləşməkdədir. Davamlı şəkildə savaşa çağırışların eşidilməsi də Azərbaycanın alternativin olmadığı qənaətini ortaya çıxarır.**
**Məsələ burasındadır ki, son vaxtlar ermənilər çıxılmaza düşdüklərini özləri də etiraf etməkdə idi. Ayrı-ayrı erməni ekspertlər Rusiyanın Azərbaycanla yaxınlığından ehtiyatlanaraq Moskvanın İrəvanı qurban verəcəyindən bəhs etməyə başlamışdı.**

Üstəlik, ABŞ-ın Azərbaycan və Ermənistandakı səfirləri də eyni vaxtda "Dağlıq Qarabağ ətrafındakı 7 rayon dərhal işğaldan azad olunmalıdır" məzmunlu bəyanatla çıxış etdilər. Belə bir zamanda azərbaycanlıların Kəlbəcərdə ələ keçirilməsi erməni terrorçular üçün göydəndüşmə fürsət oldu.

Qarabağ Azadlıq Təşkilatı öz bəyanatında Kəlbəcərdə girov götürülənlərə divan tutulmasına qəti etirazını bildirib. "Azərbaycan danışıqları dayandırmalı, hərbi əməliyyatlara başlamalıdır. Bu hadisə, həmçinin cəbhə xəttində baş verən digər hadisələr Azərbaycan tərəfinə tam əsas verir ki, hərbi əməliyyatlara başlasın. Bu ağrılı, əzablı, üzücü vəziyyətə son qoymaq üçün ancaq bir yol var, o da müharibədir. Bizim başqa yolumuz yoxdur" - bəyanatda bildirilir.

İyunun 16-da QAT sədri Akif Nağı, sədrin müavini Gültəkin Quliyeva, Ali Məclisin üzvləri Vaqif Əlisoy, Sevindik Məmmədova Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisində olublar. Onlar komitənin təmsilçiləri Roman Vulfoviç, İlahə Hüseynova ilə görüşüb, Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən Dilqəm Əhmədov, Şahbaz Quliyev və Həsən Həsənovun taleyi ilə bağlı müzakirələr aparıblar. Komitə təmsilçiləri bildiriblər ki, son 5 gün ərazində girov götürülənlərlə bağlı danışıqlar aparıblar, amma hələlik konkret nəticə yoxdur. QAT nümayəndələri məsələnin bu şəkildə ləng araşdırılması, girovlarla hələ də görüşməmələrini pisləyiblər. Akif Nağı bildirib ki, bu cür biganə yanaşma yolverilməzdir, komitənin Qarabağdakı nümayəndələri təcili olaraq girovlarla görüşməli, onların vəziyyəti ilə bağlı obyektiv informasiyanı Azərbaycan cəmiyyətinə çatdırmalı, onların vəziyyətini nəzarətdə saxlamalıdır, tezliklə azad edilərək Azərbaycana qaytarılmalarını təmin etməlidirlər.

**Azərbaycan sakinlərinin ermənilər tərəfindən girov götürülməsi ilə bağlı "Armenia today" nəşrinin suallarına cavab verən "meşə tülküsü", ermənilərin "komandos" ləqəbi ilə tanınan general-mayor Ter-Tadevosyan Azərbaycanla ikinci Qarabağ savaşının başlanması ehtimalından da danışıb. "Meşə tülküsü" son günlər bu ehtimalın artmadığını vurğulayaraq deyib:** "Azərbaycanlılar anlayırlar ki, əgər müharibə başlasa, ilk növbədə onların neft kəmərləri hədəfə çevrilə bilər. Həmin neft kəmərlərindən yararlanan Avropa ölkələri də savaşın bərpasına imkan verməz. Ancaq bütün hallarda, məsələn, hazırda Azərbaycan Ordusu tərəfindən mütəmadi atəş altında saxlanılan Tavuş rayonunun Çinaru kəndindən Azərbaycanın neft kəmərlərini asanlıqla vurmaq olar... Azərbaycanlılar bu günədək müharibə haqqında çox danışıblar. "Bu gün başlaya bilər, sabah başlaya bilər". Bütün bunlar gerçəkliyə uyğun deyil".

Xatırladırıq ki, Bakıda Hərbi Komandirlər Məktəbini bitirmiş general Ter-Tadevosyan 1992-ci ildə ermənilərin Qarabağ qüvvələrinin komandanı kimi Şuşanın işğalına nail olub.

"Bakı-Ceyhanın təhlükəsizliyi istər bizim tərəfimizdən, istərsə də digər strukturlar tərəfindən tam qorunur. Ona görə də bu bəyanat sadəcə daxili auditoriyaya hesablanıb". Bunu Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat xidmətinin rəhbəri **Vaqif Dərgahlı** Ter-Tadevosyanın iddiası ilə bağlı "Yeni Müsavat"a açıqlamasında dedi.

**Yeri gəlmişkən, erməni mediası azərbaycanlıların Qarabağa keçməsi haqda həyəcan siqnalı verib. Ermənistanın 1in.am saytında dərc olunan yazıda deyilir ki, sıravi azərbaycanlılar Qarabağa rahat şəkildə keçərək istədiklərini edirsə, Azərbaycan Ordusu əraziləri asanlıqla ələ keçirə bilər. *(Publika.az)* Sayt məsələ ilə bağlı Ermənistan rəhbərliyini məsuliyyətsizlikdə ittiham edib.** "İnternetdə yayılan videokadrlardan görünür ki, azərbaycanlılar bundan əvvəl də Qarabağa gələrək kabab çəkiblər. İstədikləri kimi hərəkət edib rahatlıqla geri qayıda biliblər. Eyni hərəkəti Azərbaycan hərbi qüvvələri edərsə, bunun qarşısının alınacağına kim zəmanət verə bilər", - deyə sayt bildirir. Görünən budur ki, düşmən məşhur misaldakı kimi, həm qorxur, həm də qorxutmağa çalışır…

### Erməni separatçılara ağır zərbə

Bu arada ermənilər Rusiyadan ağır zərbə alıb. Moskvada erməni diasporunun ən varlı nümayəndələrindən Levon Ayrapetyan tutulub. Mediaforum saytı xəbər verir ki, Ayrapetyan onlarla sifarişli qətli həyata keçirən cinayət qruplaşması ilə bağlılıqda şübhəli bilinir. O, iyulun 15-də "Domodedovo" hava limanında Monakodan qayıdanda tutulub və dindirilmə üçün İstintaq Komitəsinə gətirilib. İstintaq müəyyən edib ki, kriminal avtoritetlər Sergey Finaqinin və Aleksandr Matusovun rəhbərlik etdiyi cinayət qruplaşmaları iri iş adamlarının sifarişlərini yerinə yetirib. Bir sıra qətllərin və terror aktlarının təşkilinə görə ömürlük həbs cəzası çəkən sabiq senator İqor İzmestyev Ayrapetyanın bəzi cinayətlərdə əli olduğu ilə bağlı ifadə verib. 1949-cu ildə Dağlıq Qarabağın Vəng kəndində anadan olan Ayrapetyan uzun müddət "Oqonyok" jurnalında və "Komsomolskaya pravda" qəzetində işləyib. Sonradan bizneslə məşğul olan Ayrapetyan Dağlıq Qarabağda separatçı rejimin yaradılmasında və maliyyələşməsində fəal iştirak edib. O, həm də qondarma "erməni soyqırımı"nın dünya səviyyəsində tanınmasına lobbiçilik edib.



**Bahar Muradova: "Azərbaycan Dağlıq Qarabağı üçüncü tərəf kimi prosesə qoşmağa yol verməyəcək"**



**Bayram Səfərov: "Azərbaycan ordusu istədiyi vaxt erməninin dərsini verəcək"**

### Rəsmi Bakıdan sərt mövqe

**Milli Məclis sədrinin müavini Bahar Muradova Qarabağ cəbhəsində yaranan gərginliyin səbəblərindən biri kimi Dağlıq Qarabağ separatçılarının danışıqlar prosesinə qoşulması planının olmasından danışıb. Mediaforum saytının suallarını cavablandıran vitse-spiker son günlər cəbhə xəttində vəziyyətin xeyli gərginləşməsi, Ermənistan ordusunun atəşkəsi tez-tez pozmasından bəhs edərkən 7 rayon məsələsinə də toxunub:** "Artıq ermənilər də dərk edirlər ki, bunun sonu yaxşı olmayacaq. Ona görə də işğal altındakı rayonlardan yeddisinin Azərbaycana qaytarılması məsələsi gündəmə gəlib. Bu, təsadüfi, elə-belə deyil. Ola bilər ki, Azərbaycanın yeddi rayonunun qaytarılması müqabilində münaqişənin birdəfəlik həlli ilə barışıb-barışmadığını yoxlamaq üçün belə fikirləri ortaya atırlar. Amma bu, boş söhbətdir, heç vaxt həyata keçməyəcək cəhddir. Azərbaycanın mövqeyi qəti və birmənalıdır: sülh danışıqları yalnız müharibənin yenidən başlanmasının qarşısını almağa xidmət etməməlidir, beynəlxalq hüquq əsasında münaqişənin tam şəkildə həllinə yönəlməlidir. Minsk Qrupunun həmsədrləri xüsusən də ABŞ Helsinki Yekun Aktının prinsiplərini tez-tez vurğulayırlar. Ermənilər bu prinsipləri pozublar. Azərbaycana münasibətdə Helsinki Yekun Aktının prinsipləri tam şəkildə bərpa olunmalıdır".

**Vitse-spiker ardınca deyib:** "Dağlıq Qarabağ da Azərbaycanın tərkib hissəsi olmalıdır. Ona görə mərhələli həll variantına üstünlük versək də, biz bu prinsiplərin hamısının bir yerdə razılaşdırılması prosesindəyik. Elə ola bilməz ki, 7 rayonun qaytarılması məsələsi hər şeydən önə keçsin və biz də bu nəticəyə qane olaq, Dağlıq Qarabağın sonrakı taleyi ilə bağlı atılacaq addımlarda iştirakdan kənarda qalaq. Dağlıq Qarabağı üçüncü tərəf kimi prosesə qoşmaq istəyirlər. Ermənistan daim buna maraqlıdır. Amma Azərbaycan qətiyyən buna yol verməyəcək. Azərbaycan torpaqları hesabına ikinci Ermənistan dövləti yaranmayacaq. Biz bunu söyləyirik və söyləməklə bütün məsuliyyətini hiss edirik. Lazım gələndə bunun üçün döyüşməyə, şəhid verməyə, qurban verməyə hazırıq".

****

**Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov son günlər Qarabağ cəbhəsində baş verənlər, girov azərbaycanlılar və digər məsələlərlə bağlı danışıb. Az-News.az-a açıqlamasında o bildirib ki, ermənilərin Dilqəm Əhmədovu və Şahbaz Quliyevi girov götürməsindən çox təəssüflənir:** "Hər bir azərbaycanlı mənim üçün əzizdir. Erməniyə nə deyim? Ermənininin etdiyi hərəkətlər, onların ölkəmizə vurduğu ziyan, xalqımıza qarşı apardığı düşmənçilik iki əsrdir ki, hər kəsə məlumdur. Onlar bütün əməllərinə görə Azərbaycan xalqı qarşısında cavab verəcəklər". **İcra başçısı qeyd edib ki, işğal olunan torpaqlarımızda erməni terrorçuları məskunlaşıb:** "Onlar insanlığın nə olduğunu bilmir. Belə olan halda gərək əsir düşmüş vətəndaşlarımız da ora getməzdilər. Mənim də ən böyük arzum Şuşanı, Qarabağı görməkdir. Oraları çox görmək istəyərəm. Amma indiki şəraitdə başda mən olmaqla, heç kəsə məsləhət görmürəm ki, terrorçuların məskunlaşdığı yerlərə getsinlər. Bu, hər bir insanın həyatı üçün təhlükəlidir. Onlar kimi digər bəzi qarabağlılar da işğal olunan Azərbaycan torpaqlarına gedirlər. Amma gedib onların terrorçulara əsir düşmələri mənim üçün çox ağırdır. Mən istəmirəm qardaşlarımız əziyyət çəksin. Hesab edirəm ki, onların əsirlikdən geri qaytarılmaları üçün ölkə rəhbərliyi bütün səyi ilə çalışacaq".

**Girov götürülən Ş.Quliyevin gözünün çıxarılması barədə xəbərlərə münasibəti zamanı B.Səfərov deyib:** "Erməni ilk dəfə deyil ki, Azərbaycan xalqının, vətəndaşının başına bu cür təcavüzkarlığı gətirir. Onlar bir daha deyirəm, XX əsrin ən böyük Xocalı soyqırımını törədiblər. Minlərlə Azərbaycan vətəndaşı əsir, itkin düşüb. Bu rəqəmdən artıq vətəndaşımız öldürülüb. Qarabağda insanlarımızı diri-diri basdırıblar. Ermənistanda uşaqlarımızı, körpələrimizi borunun içinə doldurub ağızlarını qaynaqlayıblar. Bu, erməni vəhşiliyinin danılmaz bir tərkib hissəsidir".

**B.Səfərov Ermənistan rəhbərliyinə də mesaj verib:** "İlk öncə demək istəyirəm ki, Ermənistanın ordusu yoxdur. Ermənistanın ümumi dövlət büdcəsi Azərbaycan ordusuna, müdafiəsinə ayrılan vəsaitdən aşağıdır. Azərbaycan ordusu istədiyi vaxt ermənininin dərsini verəcək. Bizim qarşıda işğal olunan torpaqlarımızın azad olunması kimi bir məqsədimiz var. Hər bir Azərbaycan vətəndaşı öz torpaqlarını azad etməyə hazırdı. İnşallah, bu qısa zaman kəsiyində torpaqlarımız düşmən tapdağından azad olunacaq və bütün məcburi köçkünlərimiz öz ata-baba yurdlarına qayıdacaq. Hər zaman gənclərimizdən müharibəyə hazır olmaları ilə bağlı fikirlər eşidir və müraciətlər alıram".

**B.Səfərov deyib ki, bu yaxınlarda Azərbaycan-Ermənistan icmalarının görüşü nəzərdə tutulmur:** "Biz çox arzulayırıq ki, onlarla görüşək və fikrimizi qarşı tərəfə çatdıraq. Amma hələlik Ermənistanın indiki rəhbərliyi bu cür görüşlərə maneçilik törədir. Əvvəllər mənə Ermənistan tərəfindən müraciətlər də olurdu. Onlar bizimlə müharibə etmək istəmədiklərini söyləyirdilər. İndi isə belə müraciətlər yoxdur. Görünür, Ermənistan rəhbərliyi onların qulaqlarını kəsib".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Özü yıxılanın ağlamağı...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Müşkülə düşəndə suallara cavab axtarırıq, niyə belə oldu, nədən bizim ayıq-sayıq polisimiz, sərhədçilərimiz, prokurorlarımız buna göz yumdular? Belə məqamlarda min sual ünvanlasanız da cavabsız qalacaq. Kimsə cəncəl işə baş qoşmaq, bütün dünyanın maraq dairəsində olan bir hadisəni dəyərləndirmək istəmir. Susmaq ən təhlükəsiz bir yol sayılır.**

Elə hər şey də belə şübhəli susqunluqdan başlayır. İndi Azərbaycana qarşı yönələn təbliğat maşınları daha da fəallaşıb. Hətta bəlli bir cinayət müqayisə etmək, iki düşmən ölkəni üz-üzə qoymaq üçün kara gəlir. Bu sahədə də birinciliyin kimə məxsus olduğunu bildirmək onsuz da təbliğat resursları zəif olan ölkəni çətin duruma salır. Yadınızdadırmı, keçən il Ermənistandan Gürcüstana keçirilən 116 kiloqram heroin saxlanılanda biz bunu fürsət saydıq, hətta işğal olunmuş Dağlıq Qarabağın da böyük narkotika dəhlizi olduğunu dünyanın diqqətinə çatdırmağa cəhd etdik.

İndi eyni fürsətdən düşmən ölkənin və ona arxa-dayaq olan dövlətlərin təbliğat vasitələri bəhrələnirlər. Kimə sirdir ki, belə məqamlarda bizi hədəfə alanları susdurmağın yeganə yolu çevik və obyektiv təhqiqatdan gedir. Cinayət isti izlərlə açılanda belə məkrli təbliğatın dövlətə qarşı yönəlməsinin qarşısı alınır. Cinayət cavabsız qalanda isə günahlar hakimiyyətdə olan güclərin ayağına yazılır.

Qəribə mənzərənin şahidi oluruq: quru tərif yarışında səs-səsə verən mətbuat xidmətləri indi susur və elə zənn edirlər ki, bununla da cavabdeh məmurları qoruyurlar. Başqa məqamlarda ayıq-sayıq olan təhlükəsizlik xidmətləri, cinayətkarlığa qarşı barışmaz mübarizə aparan polisimiz, adi adamlara qənim kəsilən gömrüyümüz isə qulağını tutur. Belə susqunluq, eşitməzlik özü də az qala ittihama dönən suallar doğurur: doğrudanmı hətta dövlətdən də güclü, sözükeçən qurumlar var ki, heç kimlə və heç nə ilə hesablaşmırlar.

Bir maraqlı məqam da odan ibarətdir ki, dövlətlə hesablaşmayan elə güclərin varlığına da belə məqamda şübhə qalmır. Əgər bu qədər heroin məhz Gürcüstana keçiriləndə tutulmasa idi, böyük bir dəstə hələ neçə illər də heç bir maneə ilə üzləşmədən fəaliyyət göstərəcəkdi.

Bilmirəm nə qədər bağlılığı var, amma bunu da inkar etmək olmaz: hakimiyyətin təbliğat arsenalında olan bütün telekanallar "FAB" boyalarını gen-bol təbliğ edirlər. Həmin 2 ton 790 kiloluq maye heroin də məhz üstündə bu marka olan boyaq qablarında daşınırmış. İndi təbiidir ki, bu boyanı istehsal edən firma yaxasını qırağa çəkəcək. Azərbaycan kimi ciddi istehsal və satış bölgüsünün mövcud olduğu ölkədə kimlərinsə boya qabından narkotik daşımaq üçün istifadə etdiyi də inandırıcı görünməyəcək. Kimsə malı-mala qatmağa cəsarət edərdimi? Edibsə, bu, necə sənədləşdirilib və bu qədər qiymətli yük bizim gömrük işçilərinin gözündən necə yayınıb? Suallar cavabsız qalsa, dövlətdən də güclü bir dəstənin fəaliyyətdə olduğuna şübhələr olacaqmı? Belə susqunluq bumeranq effekti verir, ittihamlar da birbaşa dövlət qurumlarına qarşı yönəlir.

İndiyə kimi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının rəhbəri, baş nazirin müavini Əli Həsənovun adsız-ünvansız açıqlamalarını şirin-şirin oxumuşuq. Konkret ad çəkilməsə də baş nazirin müavini məmurların və məmur övladlarının belə olaylarda daha fəal iştirakçı olduğunu dəfələrlə dilə gətirib. Hamının bildiyini demək cəsarətinə görə onu alqışlayanlar da olub. Amma indi - analoqu olmayan bir cinayət baş verib, amma indi Əli Həsənovu tutub bircə kəlmə söz soruşmaq heç kimə nəsib olmayıb...

Dünya bazarında narkotiklərin qeyri-qanuni dövriyyəsi o milyard dollarla ölçülür. 167 milyon dollarlıq yeni rekord isə çox təəssüflər ki, bizim ölkənin ayağına yazılır. Cinayətin cavabsız qalması isə bizə yönələn ittihamlar həm də siyasi çəki verir. Bu olay olduqca həssas bir zamana təsadüf edir. Biz yeni iddiaların hədəfindəyik. Bizə dişini qıcayanlar bunu da bir fürsət sanacaqlar. Onları susdurmağın isə bircə yolu var: ən tez vaxtda hüquqi araşdırma aparıb, cinayətkarı cəzalandırmaq. Belə hadisənin susmaqla unudulacağına ümid etmək sadəlövhlükdür. Heç kim də kənardan nə vaxtsa, buna hüquqi qiymət veriləcəyini gözləməyəcək. Ölkənin nüfuzuna dəyən zərbə isə heç bir rəqəmlə ifadə olunmur. Çox vaxt ləkə əbədi nişanə kimi qalır... Biz isə özü yıxılan kimi nə qədər haray-həşir salsaq da, eşidən olmur...

# Moskvadakı metro qəzası dünyanı hərəkətə gətirib

## Metro olan ölkələr təhlükəsizlik rejimini gücləndiriblər; Bakı Metropolitenində sərnişinlərin ötəri yoxlanması narahatlıq doğurur

**İyulun 15-də Moskva metrosunda baş vermiş faciə son 79 il ərzində Rusiyada bu sistemdə ən irimiqyaslı qəzadır. Son məlumatlara görə, dəhşətli qəza nəticəsində 22 nəfər ölüb, 150-dən çox insan yaralanıb. Ölülərin sayının artacağı istisna deyil. Baş verən faciə ilə bağlı Rusiyada matəm elan olunub.**

Rusiya hüquq-mühafizə orqanları baş vermiş hadisə ilə bağlı ciddi araşdırmalara başlayıb. Artıq bununla bağlı şübhəli şəxs qismində saxlanılanlar var. Qəzanın qəsdən törədildiyini iddia edənlər də az deyil.

Baş vermiş hadisə təkcə Rusiyanı deyil, bütün dünyanı hərəkətə gətirib. Metropoliteni olan ölkələr təhlükəsizlik rejimini gücləndirərək, yoxlamalara başlayıblar.

Bakı Metropoliteninin bu istiqamətdə görəcəyi işlər hamımızı maraqlandırır. İndiyə qədər dəfələrlə metro stansiyalarında apardığımız müşahidələrdən sonra gəldiyimiz qənaət bizi narahat etməyə bilməz. Çünki sərnişinlərin əllərindəki əşyaların yoxlanılmasında ciddi nöqsanlar var.

**Bakı Metropoliteninin Rusiyada baş verən qəzadan sonra gördüyü və görəcəyi işlərlə maraqlandıq. Qurumun mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev daim qatarların ciddi yoxlanıldığını bildirdi:** "Moskva metrosunda baş verən qəzaya nəzər salsaq, görərik ki, xüsusi narahatçılığa ehtiyac yoxdur. Çünki bu hadisə terror deyil. Texniki məsələlərdən doğan bir hadisədir. Bunun üçün hər hansı bir hazırlığa ehtiyac yoxdur. Bakıda metro stansiyalarına daim ciddi nəzarət var. Bununla bağlı bütün tədbirlər həyata keçirilir. Moskvada baş verən qəzanın bizdə təkrarlanmaması üçün bütün imkanlardan istifadə olunub. Qatarlar hər gün yoxlanılır. Hər hansı bir nasazlıqda, xırda siqnalda belə qatar hərəkətdən çıxarılır və depoya göndərilir. Bundan əlavə, savadlı mütəxəssislərdən istifadə olunur. Hesab edirəm ki, Bakı Metropolitenində qəzanın baş verməməsi üçün ciddi hazırlıqlarımız var".



**Nəsimi Paşayev:**
"Moskvadakı qəzanın bizdə təkrarlanmaması üçün bütün imkanlardan istifadə olunur"



**İlham İsmayıl:**
"Şübhəli sərnişinləri ciddi şəkildə yoxlamaq mühafizədə dayananların professionallığından asılıdır"

**Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri, MTN-in sabiq polkovniki İlham İsmayıl Moskvadakı hadisəni terror yox, laqeydlikdən baş verən qəza adlandırdı:** "Əvvəla, onu qeyd edim ki, Moskvada baş verən hadisə terror deyildi. Sadəcə, xidməti məsələ ilə əlaqədar olaraq, laqeydlikdən baş verən qəza idi. Bunu onların özləri də faktiki olaraq, etiraf etdilər. Terror hadisəsinin qarşısını almaq üçün isə metroda təhlükəsizlik tədbirləri keçirmək lazımdır. Azərbaycan-Ermənistan münasibətlərinin kəskinləşdiyi dövrdə mümkündür ki, təhlükəsizlik tədbirləri artırılsın. Bununla metronun yeni rəhbərliyi daha ciddi məşğul olmalıdır. Mənə elə gəlir ki, texniki məsələləri bir daha gözdən keçirmək lazımdır".

**Ekspert metrolarda sərnişinlərin yoxlanılmasında yaranan nöqsanlara da aydınlıq gətirdi:** "Metroda hər bir vətəndaşın ciddi yoxlanılması qeyri-mümkündür. Sadəcə olaraq, şübhəli sərnişinləri ciddi şəkildə yoxlamaq mühafizədə dayananların professionallığından asılıdır. Bir az diqqəti artırmalıyıq. Biz elə bir ölkəyik ki, bu, kampaniya xarakteri daşımamalıdır. Biz faktiki olaraq, düşmənli bir ölkəyik. Kifayət qədər bizə xoş münasibət göstərməyən dövlətlər var. Ona görə də hər zaman ayıq-sayıq olmalıyıq".

❑ **Cavanşir ABBASLI**

# Anar Yusifoğlu ilə İTV arasında gərginlik

## İctimai kanalın sabiq əməkdaşı Cəmil Quliyevi arxiv materiallarını məhv etməkdə suçlayır, qarşı tərəf isə bu iddiaları yalan adlandırır

**İctimai Televiziyanın hazırkı rəhbərliyi ilə Analitik Proqramlar Departamentinin keçmiş direktoru Anar Yusifoğlu arasında qarşıdurma baş verib.**

"Qafqazinfo" xəbər verir ki, buna səbəb A. Yusifoğlunun hazırda rəhbərlik etdiyi aktual.az saytında "İTV-də yasaq qalmaqalı" başlıqlı xəbərin dərc olunmasıdır. Xəbərdə bildirilir ki, vaxtilə "Carçı film"in ərsəyə gətirdiyi ekran əsərlərində əməyi keçmiş yaradıcı və texniki heyət İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Cəmil Quliyevin qoyduğu qadağanın qurbanına çevriliblər. Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanovun təsir dairəsində olan Cəmil Quliyev keçmiş rəhbərliyin dövründə çəkilən bədii, sənədli və televiziya filmlərinin ekrana çıxarılmasını yasaqlayıb. Məlumatda o da bildirilir ki, baş direktor daha da irəli gedərək arxivdə olan bəzi filmlərin silinməsi haqqında göstəriş verib. Bu isə ekran əsərlərində əməyi keçmiş yaradıcı və texniki heyətin qəzəbinə səbəb olub. **Xəbərdə deyilir:** "Nəzərə alsaq ki, keçmiş rəhbərliyin dövründə "Carçı film" yaradıcılıq birliyində 600-dən çox bədii, sənədli və televiziya filmi çəkilib və bu filmlərə dövlət tərəfindən külli miqdarda maliyyə vəsaiti ayrılıb - o zaman Cəmil Quliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlətin ayırdığı külli miqdarda maliyyə vəsaitini israf etdiyini görmüş olarıq".



Anar Yusifoğlu



Cəmil Quliyev

**Məsələ ilə bağlı İTV rəhbərliyi açıqlama yayıb. Qurumun ictimaiyyətlə əlaqələr şöbəsindən verilən açıqlamada bildirilir ki, İTV-yə böhtan atılıb:** "Cari il ərzində İTV efirində müxtəlif mövzulu və janrlı sənədli və bədii filmlər ardıcıl olaraq nümayiş etdirilir. Həmin filmlər siyahısında İTV-nin "Carçı-film" birliyi tərəfindən 2006-2013-cü illər ərzində istehsal olunmuş filmlər əsas yer tutur. Bu filmlər mövzusunun aktuallığına, yaradıcılıq və texniki parametrlərinə, əlamətdar hadisələrə uyğunluğu ilə seçilir və tamaşaçılara təqdim olunur. Filmlərin proqrama daxil olunması zamanı heç bir ayrı-seçkiliyə və qadağalara yol verilmir.

İTV-də hər hansı filmin, yaxud verilişin pozulmasından, itib-batmasından söhbət gedə bilməz və kanal rəhbərliyi heç kimə bu barədə hər hansı göstəriş verməyib. Bu versiya sadəcə xəbər portalının uydurmasıdır. Onu da deyək ki, aktual.az saytının İTV ilə bağlı yayımladığı aramsız iftiralara görə kanal rəhbərliyi müvafiq tədbirlər görülməsi məqsədilə Mətbuat Şurasına yazılı müraciət ünvanlayıb".

İTV-nın sabiq rəhbərliyinin dövründə televiziyanın nəzdində "Carçı film" yaradıcılıq birliyində istehsal olunan sənədli, tarixi-sənədli və digər müxtəlif səpgili filmlərin yayımlanmasına qadağaların qoyulması xəbəri şayiədən başqa bir şey deyil". Bunu aznews.az-a açıqlamasında İTV-nın "Carçı-film" yaradıcılıq birliyinin direktoru Hikmət Yaqubov deyib: "Yalan söhbətlərdir. Əksinə, biz köhnə rəhbərliyin dövründə çəkilmiş nəinki filmlər, o cümlədən müxtəlif insanlar haqqında çəkilmiş verilişləri də efirə yayımlayırıq. İndi də "Carçı film"in direktoru olaraq deyirəm ki, böyük-böyük filmlər, portret verilişlərimizi də yayımlayırıq. Bunlar yalan söhbət və cəfəngiyyatdır".

❑ **SEVİNC**

YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014

# Azərbaycanlı "qanuni oğru" niyə həbs edilib?

## Güman etmək olar ki, "Albert Rıjıy"ın həbsi məhz Türkiyədəki qanlı atışma ilə bağlıdır

**Sankt-Peterburqda azərbaycanlı "qanuni oğru" Əli Heydərov həbs olunub. Kriminal aləmdə "Albert Rıjıy" ləqəbi ilə tanınan Ə.Heydərovun axtarışda olduğu deyilir. Avtoritetin tutulması üçün Rusiya Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı "Tayfun" qrupu səfərbər edilib.**

Rusiya KİV-lərinin xəbərinə görə, "qanuni oğru" 2013-cü ildə baş vermiş bir soyğunçuluq hadisəsinə görə ittiham olunur. Belə ki, həmin vaxt internetdə "JEEP" avtomobilinin sərfəli qiymətə satıldığı haqda elan yerləşdirilib. Avtomobili almaq istəyən müştərilərdən biri görüş yerinə gələrkən cinayətkarlar onu soyub, pulunu alıblar. Cinayət işini Sankt-Peterburqun Fruzenski rayonunun prokurorluğu nəzarətə götürüb. İstintaq müəyyən edib ki, cinayət işinin təşkilatçısı Əli Heydərovdur.

Qeyd edək ki, son aylar "Albert Rıjıy"ın adı bir neçə səs-küylü işlərdə hallanırdı. Bu ad Azərbaycan mediasının diqqətini "Lotu Quli" ləqəbi ilə tanınan Nadir Səlifovla arasında başlayan savaşdan sonra çəkmişdi. Rusiya mənbələrinin iddiasında deyilirdi ki, "Albert Rıjıy"ı bu ilin martında öldürmək istəyiblər. Amma "Kalaşnikov" avtomatı və iki tapança ilə silahlanan muzdlular məqsədlərinə çata bilməyiblər. Polis azərbaycanlı avtoriteti qətlə yetirmək istəyənləri həbs edib. Polis bölməsində məlum olub ki, həbs edilənlər Naberejnıy Çelnı vilayətində qeydiyyatda olan Aleksey Şparuta və Ruslan Koryaqindir. Həbs edilənlər deyiblər ki, azərbaycanlı "vor zakon"un qətlinin sifarişini Peterburqda yaşayan bir nəfərdən alıblar. Bir neçə gün sonra sifarişçi - Gürcüstanda anadan olmuş 32 yaşlı İlham Hacıyev də həbs edilir. İ.Hacıyevin isə "Lotu Quli"nin qohumu olduğu üzə çıxıb. May ayının 11-də "Albert Rıjıy" Piterdə "sxodka" keçirib və bu qətlin sifarişçisi kimi "Quli"nin adının hallandırılması geniş müzakirə olunub. "Sxodka"da iştirak edən Aliksey Qudına *("Lexa İrkutski")* "Albert Rıjıy"i öldürmək istəmələri ilə bağlı xəbərləri və bu işdə həmyerlisi "Quli"nin adının hallanmasına etiraz edib. Qudına iddia edib ki, sui-qəsd məsələsini "Albert Rıjıy" özü polisdəki adamlarının olmağa çalışıblar və heç vaxt "qanuni oğru" olmayıblar".

İyunun 9-da isə "Albert Rıjıy" bu işlə bağlı bu dəfə Türkiyənin Ədirnə şəhərinə "razborkaya" çağırılır. Görüş vaxtı atışma düşür, hətta bir türk polisi öldürülür, bir neçə nəfər isə həbs edilir. Ə.Heydərov iddia edir ki, qardaşı və yerli biznesmenlərdən biri ilə əyləşdiyi hotelin res- "pul atılması" olmadığı təəssüratını yaradır. Qeyd edək ki, onun yarımçıq villasında da polis axtarış aparıb. Belə görünür ki, ortada daha ciddi mətləblər var və Rusiya hüquq-mühafizə orqanları hələ ki "qanuni oğru"ya 2013-cü ildə baş vermiş bir soyğunçuluq hadisəsinə görə ittiham verib. Çünki həbsi ilə bağlı xəbərdə də onun məhz



Əli Heydərov

dəstəyi ilə quraşdırıb. Qudına bu iddianı sübuta yetirə bilmədiyi üçün ağır cəzalandırılıb. Belə ki, 40 yaşlı Aliksey Qudına ("Lexa İrkutski") və 31 yaşlı Besik Kvinixidze ("Beso Rustavski") "qanuni oğru" titulundan məhrum ediliblər. "Qanuni oğru" ların titulundan məhrum edilməsi barədə "praqon"u "Mırıça", "Albert Rıjıy", "Saçino", "Beco Zarandiya", "Qaço" və "Yura Lazerevskiy" kimi kriminal avtoritetlər adından yayılıb. "Praqon" da deyilib ki, "Lexa" və "Beco" "oğru ailəsinə" fırıldaq yolu ilə daxil toranına 15 nəfər daxil olur. Dəstəyə rəhbərliyi isə peterburqlu, 40 yaşlı Aliksey Qudina edib. Hadisə yerində olan türk polis əlini tapançasına atmaq istəsə də, qarşı tərəf daha cəld tərpənərək polis Hüseyn İmraqı ürəyindən vurub. Bu atışmadan sonra "qanuni oğru"nun harada olması barədə məlumat yox idi... Azərbaycanlı "qanuni oğru"nun axtarışda ola-ola Rusiya sərhədlərini keçməsi və yenidən qayıtması ağlabatan görünmür. Onun həbs səhnələri də məsələnin bir biznesmenə Türkiyədən qayıtdıqdan sonra axtarıldığı deyilir. Güman etmək olar ki, onun həbsi məhz Türkiyədəki qanlı atışma ilə bağlıdır.

"Albert Rıjıy" ləqəbi ilə tanınan Əli Müseyib oğlu Heydərov 1981-ci ilin fevral ayının 2-də Gəncədə anadan olub.

"Albert Rıjıy" ləqəbi ilə məşhurlaşan Ə.Heydərov "qanuni oğru" adını 2012-ci ilin payızında Aslan Usoyanın dəstəyi ilə alıb. "Ded Xasan" klanında yer alan "Albert Rıjıy" Rusiyanın Şimal-Qərb regionu üzrə "smotryayuşi" təyin edilib. "Ded Xasan"ın qətlindən sonra da *("Ded Xasan" 2013-cü ilin yanvar ayının 16-da öldürülüb)* klana sadiq qalan "Albert Rıjıy" yerini kimsəyə güzəştə getmək fikrində deyil. O, Rusiya vətəndaşı ilə evlənib və iki uşağı Arxengelskdə qeydiyyatdadır. Bu səbəbdən də Ə.Hüseynov həm də "Albert Arxangelsk" kimi də tanınır. Xarakter etibarilə sərt olan azərbaycanlı "qanuni oğru" bahalı maşınlar həvəskarıdır və tez-tez avtomobillərini dəyişir.

❑ **Xəbər xidməti**

# Hacıbala Abutalıbovun oğlu məhkəməni saymadı

## İsrafil Abutalıbovun hədələyib müflis etdiyi sahibkar dövlət başçısından kömək istəyir



Hacıbala Abutalıbov

**Bakıda müflislik həddinə çatdırılan sahibkar Valeh Müvtəllimovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun vəhhabi oğlu İsrafil Abutalıbova qarşı iddiası üzrə məhkəmə təxirə salınıb. Bu barədə "Yeni Müsavat"a sahibkar özü məlumat verib.**

O bildirib ki, icarəyə götürdüyü obyektdən qanunsuz olaraq çıxarılması ilə bağlı məhkəməyə müraciət edib. Aşağı instansiya - Yasamal Rayon Məhkəməsi onun iddiasını təmin etmədiyindən, sahibkar Apelyasiya Məhkəməsinə müraciət edib. İyulun 15-də keçirilən proses isə cavabdeh tərəfin və vəkilinin məhkəməyə gəlməməsi səbəbindən baş tutmayıb. Hakim prosesi avqustun 1-dək təxirə salıb.

Qeyd edək ki, V.Müvtəllimovu icarəyə götürərək işlətdiyi obyektdən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov çıxarıb. Sahibkarın sözlərinə görə, Bakının Yasamal rayonunda, Şərifzadə, 34 ünvanında yerləşən obyekt İsrafil Abutalıbova məxsusdur.

"Mən 2010-cu ilin martında Bakının Yasamal rayonunda, Şərifzadə, 34 ünvanında yerləşən obyekti icarəyə götürmüşəm və bir müddət sonra - 2013-cü ilin martında əsassız, qanunsuz olaraq oradan çıxarılmışam. Həmin obyekt Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbova məxsusdur və obyektdən çıxarılmağım nəticəsində külli miqdarda ziyana düşmüşəm. Biz hər il obyektin icarəsi üçün bir illik müqavilə bağlamışıq. Obyekti iki il işlətdikdən sonra orada işlər normaya düşməyə başladı. Bu zaman mənə bildirdilər ki, beş, yaxud on illik icarə müqaviləsi bağlaya bilərik", - deyə sahibkar bildirib.

**Onun sözlərinə görə, müqavilə ilə tanış olub və bir bəndlə razılaşmayıb:** "Bu, üç ay əvvəldən xəbərdarlıq etməklə icarəçinin obyektdən çıxarılması ilə bağlı idi. Onlar məni əmin etdilər ki, bu, formal bir işdir. Ancaq müqavilə bağlanandan 4 ay sonra qəflətən mənə obyekti boşaltmaq üçün xəbər göndərdilər. Mən etiraz etdim, buradan pul qazanmadığımı, firmalara borcum olduğunu, əlavə xərc çəkərək market üçün avadanlıqlar aldığımı da diqqətə çatdırdım. Onların vəkilləri bildirdi ki, bu borcların onlara heç bir aidiyyəti yoxdur və buna görə mənə heç bir vəsait ödənilməyəcək. Dedilər ki, öz xoşumla obyekti tərk etməsəm, yaxınlıqdakı "Lombard"ın sahibi kimi məni bayıra atacaqlar. Mən də məcburən obyektdən çıxdım".

Hədələndiyini bildirən sahibkar həmçinin qeyd edir ki, başına gələn qanunsuzluq və məmur özbaşınalığı ilə bağlı dövlət başçısı İlham Əliyevə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova məktub da yazıb. Məktubunda sahibkar müflisləşdirildiyini, həmçinin hədələndiyini vurğulayıb, eyni zamanda kömək istəyib.

Oğul Abutalıbovun qanunsuz əməlləri nəticəsində sahibkar itirdiyi vəsaiti bir ildən çoxdur ki, geri qaytara bilmir. Həmin dükanda isə 10-12 nəfər çalışıb. Onlar əsasən şəhid ailəsi, məcburi köçkünlər və əlilliyi olan insanların ailələri olub.

V.Mütəllimov həmin obyektin sahibinin qanunsuz hərəkəti ilə bağlı 2013-cü ildə məhkəməyə müraciət etsə də, Yasamal Rayon Məhkəməsi onun iddiasını təmin etməyib. Hazırda iş Apelyasiya Məhkəməsindədir.

❑ **Röya RƏFİYEVA**

# Bakı sakininin evi zəbt olunub

## İlham Nəcəfov: "Bu adamlar nazirin adından sui-istifadə edirlər"



AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
NƏCƏFOV
İLHAM
DAVUD OĞLU
AZƏRBAYCAN,BAKI şəh.
17.04.1974

**"Artıq neçə gündür ki, qızımla birgə maşında gecələyirik. İkinci həyat yoldaşım nazirin adından hədələməklə evimi zəbt edib. Evdəki əmlaklarımı da talayıb".**

Bu sözləri "Yeni Müsavat"a müraciət edən Bakı sakini İlham Nəcəfov deyib. Onun sözlərinə görə, həyat yoldaşı Günay Həsənova Fövqəladə Hallar Nazirliyində çalışır: "Mətbuata üz tutmağımın səbəbi odur ki, həyat yoldaşımın qardaşları şikayətlərimin qarşısını almaq üçün nazirin adından sui-istifadə edirlər. Hətta polisə də nazirin adından hədə-qorxu gəlirlər. Mənim Kamaləddin Heydərovun, onun müavinlərinin qəbuluna düşməyimin qarşısını da alırlar. Bilirlər ki, cənab nazir onun adından quldurluq edilməsindən xəbər tutsa, sonları yaxşı olmayacaq".



ÇIXARIŞ



QEYDİYYAT VƏSİQƏSİ

**İ.Nəcəfovun sözlərinə görə, G.Həsənova ilə 2009-cu ildə ailə həyatı qurub:** "Birinci həyat yoldaşımla 2006-cı ildə boşandıq. 1 qız övladını mən, digər 2 övladımızı isə yoldaşım götürüb İsveçə getdi. Həmin nikahım dövründə Yasamal rayonu, Süleyman Dadaşov küçəsi 74, mənzil 472 ünvanında 3 otaqlı mənzil almışdıq. Mənzil yoldaşım Könülün adına alınıb. 2006-cı ildə boşanarkən aramızda mülk bölgüsü olmadı. 2009-cu ildə Günay Həsənova ilə ailə quranda həmin evə köçmədik. 2012-ci ildən Yasamaldakı evə gəlib ara-sıra yaşamağa başladıq. Əksər hallarda Günay 2 övladımızla birgə atasının evində qalırdı. Bu il boşanmaq üçün Xətai Rayon Məhkəməsinə müraciət etdik. Məhkəmə boşanmaq haqda qərar çıxardı. Proses zamanı da G.Həsənova mülki iddia ilə çıxış etmədi. Etsəydi belə mənim Yasamaldakı evimə iddia edə bilməzdi, çünki həmin mənzil onunla birgə nikah dövründən çox əvvəl alınıb".

**İ.Nəcəfov deyir ki, boşanmaq haqda ərizələri məhkəmədə baxılan zaman G.Həsənova qohumları ilə birgə onun Yasamaldakı evini zəbt ediblər:** "Hüseyn adlı ustanı aldadıblar və ona qıfılı sındırma yolu ilə qapını açdırıblar. Həmin evdə maşınımı satmaqla əldə etdiyim 17 min 500 dollar pulum vardı. İçəri girmək istəyəndə Günay polisə zəng elədi. Mən polislərə evin "kupça"sını göstərdim, dedim ki, evi birinci həyat yoldaşımla birgə yaşadığım dövrdə almışıq. Polis Günay Həsənovaya və onun qardaşlarına hərəkətlərinin qanunsuz olduğunu izah etdi və mənzilimi faktiki zəbt etmələrini dedi. Bundan sonra başladılar polisə də hədə-qorxu gəlməyə. Nazirin adını hallandırmaqla onu qorxutmağa".

**İ.Nəcəfov qəzetimiz vasitəsilə aidiyyəti qurumlara müraciət edərək zəbt olunmuş mənzilinin boşaldılmasını istəyir:** "Məni 2 övladımın üzünə həsrət qoyublar. Bu stress elə mənə bəs edir. Məhkəmə 2 övladıma 300 manata yaxın aliment ödəməli olduğumu qət edib. Bu qətnaməsiz də uşaqlarıma aliment ödəyəcəkdim. Amma evimi zəbt ediblər, pullarımı mənimsəyiblər. Məni 1 övladımla küçələrdə yatmağa məhkum ediblər. Həmin pulları banka qoyub uşaqlarıma aylıq aliment verə bilərdim".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014

bakcell

## Bakıda Qlobal Biznes və Texnologiyanın İdarə edilməsinə dair tədqiqatlar müzakirə olundu

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti, Qlobal Biznes və Texnologiyalar Assosiasiyası (GBATA) və ADA Biznes Məktəbinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən 16-cı Beynəlxalq Konfransın baş sponsorlarından biri oldu.**

**Konfransın əsas məqsədi biznes və texnologiyaların idarə edilməsi sahəsində mövcud olan problemlər və nailiyyətlərə dair müxtəlif mövzuları əhatə edən təqdimatlar vasitəsilə ən son məlumatların mübadiləsini asanlaşdırmaq məqsədilə xüsusi beynəlxalq forumun təşkil edilməsidir.**

**“Qloballaşan dünyada idarəetmə: Biznes və texnologiya sahəsində irəliləyiş” mövzusunda keçən konfransın əsas məqsədi ictimai-şəxsi sənaye və təşkilatların qarşılaşdığı problemlərə dair fikir mübadiləsini təşviq etməkdir. Konfrans çərçivəsində plenar sessiya, təqdimat, təhlil, dəyirmi masa, seminar və forumlar keçirilmişdir.**

**Konfransda 50-dən çox ölkədən 400-ə yaxın tanınmış alim və biznes mütəxəssisləri iştirak etmiş və öz universitetlərində keçirilən yüksək səviyyəli qlobal biznes və texnologiyaların idarə edilməsinə dair tədqiqatlar barədə müzakirələr aparmışdır.**

**Azərbaycan informasiya və kommunikasiya texnologiyaları vasitəsilə biznes və texnologiya sahəsində böyük nailiyyətlərə imza atmaqdadır. Ən yüksək texnologiyaları mobil kommunikasiya sahəsində tətbiq etməklə, «Bakcell» şirkəti bu inkişafda öz fəal iştirakı ilə qürur duyur.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



## Polis dana oğrularının arzusunu ürəyində qoydu

**Gəncədən yaşadığı Daşkəsən rayonunun Qabaqtəpə kəndinə gedirdi. Yolda qarşısına çıxan sahibsiz mal-qara onu oğurluq etməyə sövq edib. İribuynuzlu heyvanları oğurlayaraq bazara satmağa aparmaq istəyən həmin şəxsi isə yolda polis saxlayıb. Hadisə Göygöl rayonu ərazisində baş verib.**

Milli.Az Kəpəz TV-yə istinadən xəbər verir ki, Daşkəsən sakini Mehman Abdullayevə məxsus iribuynuzlu heyvanlar Göygöl rayonunun Yalqışlaq kəndi ərazisində naməlum şəraitdə yoxa çıxıb. Əvvəlcə heyvanların itdiyini düşünən təsərrüfat sahibi sonradan oğurlandığını öyrənib. Bu işdə ona Göygöl polisi yardımçı olub.

**Mehman Abdullayev:** “Səhər heyvanları sağıb, örüşə göndərdik. Axşam düşəndə isə örüş yerində yox idilər. Polisə məlumat verdik, onlar da sağ olsunlar tapdılar”.

Daşkəsən sakini 25 yaşlı Bəxtiyar Tağıyev yaşadığı kəndə gedərkən yolda sahibsiz heyvanları görüb, onları oğurlamaq qərarına gəlib. Beləcə, mal-qaranı qabağına qatıb bir neçə kilometr piyada irəliləyən həmin şəxsi yolda polis saxlayıb.

**Rauf Əliyev, müstəntiq:** “Müəyyən edilib ki, həmin heyvanları Daşkəsən rayonunun Qabaqtəpə kənd sakini Tağıyev Bəxtiyar İsmayıl oğlu oğurlayıb. Aparılan tədbirlər nəticəsində həmin şəxs tərəfimizdən saxlanılıb və oğurladığı mal-qara saxlanc yerinə qoyulub”.

Saxlanılan Bəxtiyar Tağıyev oğurluq etməsini etiraf edib. O bildirib ki, niyyəti sahibsiz bildiyi mal-qaranı satıb pul əldə etmək olub.

**Bəxtiyar Tağıyev:** “Heyvanlar yolun qırağında otlayırdı. Mənim də ehtiyacım var. Qabağıma qatıb apardım. Bazara çatana kimi polis tərəfindən saxlanıldım. Tutduğum əməldən peşmanam”.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə iş başlanılıb. İstintaq aparılır.

## İki gün əvvəl qətlə yetirilən kişini öz arvadı öldürübmüş

**Abşeronda iki gün öncə 62 yaşlı kişini qətlə yetirən şəxs tutulub. Abşeron Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, iyulun 14-də Novxanı qəsəbəsində 1952-ci il təvəllüdlü Arif Qasımovun həyat yoldaşı, 1958-ci il təvəllüdlü Məlahət Əlipənah qızı Qasımova tərəfindən bıçaqlandığı müəyyən edilib.**

M. Qasımova ilkin ifadəsində bildirib ki, əri A. Qasımov evdə sərxoş halda oğlu Rüfətlə mübahisə edib, bu zaman Rüfət əsəbi halda əli ilə qapının şüşəsini sındırıb. Mətbəxdən çıxan qadın oğlunun əlini qanlı görərək özünü itirdiyini, əlindəki bıçaqla həyat yoldaşına zərbələr vurduğunu deyib.

Xatırladaq ki, Abşeron rayon sakini, 1952-ci il təvəllüdlü Arif Məmməd oğlu Qasımov iyulun 14-də saat 02.00 radələrində kəsici deşici xəsarətlə Klinik Tibbi Mərkəzə yerləşdirilib.

Həkimlərin səyinə baxmayaraq, onu xilas etmək mümkün olmayıb.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanıb.

## Biri 8 yaşlı uşaq olmaqla, üç nəfər dənizdə boğulub

**Ötən gün ölkə ərazisində 3 nəfər suda boğulub. Daxili İşlər Nazirliyindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini, 8 yaşlı Emin Axundov Goradil çimərliyində, Suraxanı rayonunda 63 yaşlı Vitali Aleksandroviç Zinovyey, Sumqayıt şəhərində isə 23 yaşlı Gülər Salmanova dənizdə çimərkən boğulub.**

Hər üç şəxsin cəsədi sudan çıxarılıb.






## Gilas mürəbbəsindən narkotik çıxdı

**Həbsxanaya narkotik vasitə keçirilməsinin qarşısı alınıb. Ədliyyə Nazirliyi Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsindən ANS PRESS-ə verilən məlumata görə, xidmət əməkdaşları tərəfindən Qobustan Həbsxanasında cəza çəkən, məhkum Fərhad Cəbrayıl oğlu Əliyevə xalası oğlu Elşən Həsən oğlu Həziyevin gətirdiyi sovqata baxış keçirilib.**

Baxış zamanı gilas mürəbbəsinin içərisində gizlədilən xalis çəkisi 0.941 qram olan narkotik vasitə - “tiryək” aşkar edilərək götürülüb.

Qeyd edək ki, Fərhad Cəbrayıl oğlu Əliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.2 və 67.1 maddələrinə əsasən təqsirli bilinərək azadlıqdan məhrum edilib.

Fakt üzrə araşdırma aparılır.

## Azərbaycanda təhlükəli xəstəlik yayıldı

**Cəlilabad rayonunda heyvanlar arasında mənşəyi məlum olmayan xəstəlik yayılıb. ANS PRESS-in bölgə müxbirinin verdiyi məlumata görə, artıq vəziyyət o həddə çatıb ki, xəstəliyin daha da kütləvi hal almasının qarşını almaq məqsəd ilə rayonda hər bazar günü fəaliyyət göstərən mal bazarı da müvəqqəti olaraq bağlanıb.**

Ən acınacaqlı vəziyyət isə Cəlilabadın Alar kəndindədir. Kənd sakinlərinin sözlərinə görə, xəstəlik heyvanlarda qızdırma ilə başlayır, daha sonra onların dırnaqlarında soyulma prosesi gedir.

Daha sonra heyvanların bədənlərinin müxtəlif nahiyələrində dairəvi şəkildə şişlər yaranmağa başlayır. Məlumata görə kənddə xəstəliyə tutulmuş xeyli sayda iribuynuzlu heyvanların tələf olduğu və müvafiq qurumlar tərəfindən heyvanların cəsədlərinin yandırıldığı deyilir.

Məsələ ilə bağlı Cəlilabad Baytarlıq İdarəsinin rəisi Vidadi Əliyev xəstəliyin mənşəyi ilə bağlı dəqiq məlumatlar bəlli olana kimi açıqlama verə bilməyəcəyini bildirib.

## Bərdədə məmurların 258 min manatlıq yeyintisinin üstü açıldı

**Bərdə rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı qanunsuzluqlara yol verilməsi barədə Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, araşdırmalar zamanı mərkəzin vəzifəli şəxsləri tərəfindən ünvanlı sosial yardımların, sosial müavinətlərin və təqaüdlərin təyin edilməsi və ödənilməsi zamanı zəruri sənədlərin - ailə tərkibi və gəlirləri, istifadələrində nəqliyyat vasitəsinin olması, hər bir ailə üzvünün məşğulluğu və digər məlumatların tam təqdim olunmaması və ya təqdim olunan sənədlərdə göstərilən məlumatların düzgünlüyünün yoxlanılmaması nəticəsində 258 min 550 manat məbləğində külli miqdarda dövlət vəsaitinin israf edilməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Bakıda başqasının kartından pul oğurlayan şəxs tutuldu

**Paytaxt sakininin kartından pul oğurlayan şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən “Trend”ə verilən məlumata görə, cari il iyun ayının 29-da Xəzər rayonunun Binə qəsəbəsində yerləşən “Kapital Bank”a məxsus bankomatdan qəsəbə sakini Əfruz Əliyevanın kartından istifadə etmək yolu ilə hesabındakı 172 manat oğurlanıb.**

Xəzər Rayon Polis İdarəsinin 2-ci bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin Bakı şəhər sakini Qüvvət Əliyev tərəfindən törədilməsi müəyyən edilib.



YENİ MÜSAVAT
N 181 (5890) 17 iyul 2014



# Binəqədidə 100 ailənin "nəfəsini kəsiblər"

## "Arxin-M LTD" MMC tikinti şirkəti bina ərazisini zəbt edərək ağacları kəsib, nazirlik araşdırmalara başlayır





**Binəqədi rayonu, 7-ci mikrorayon, Abay Kunanbayev küçəsindəki 10 nömrəli binanın sakinlərinin yuxusu ərşə çəkilib. Səbəb isə yaşadıqları binanın qarşısındakı ağacların kəsilərək yerində tikinti işlərinin aparılmasıdır. Sakinlər deyir ki, 10-15 gün öncə ərazi hasara alınıb. Gecələr ərazidə tikinti işləri gedir. Artıq tikiləcək yaşayış binasının özülü qazılıb. 100 ailənin yaşadığı binanın sakinləri havasızlıqdan boğulur.**

### "Biznesmen qadın bina tikdirir"

Sakinlərin sözlərinə görə, məsələ ilə əlaqədar bir neçə dəfə Binəqədi Rayon İcra Hakimiyyətində olublar. Rayon icra hakimiyyətindən sakinlərə deyilib ki, məsələ ilə Bakı meriyası məşğul olur. Sakinlərdən Almaz Süleymanovanın sözlərinə görə, Binəqədi Rayon İcra Hakimiyyətində onlara deyiblər ki, ərazi onların balansında deyil: "Açıq-aşkar bizə dedilər ki, bu işlə maraqlana bilmərik. Bunlar kimdirlərsə arxaları çox güclüdür. Gündüz vaxtı "Qırmızı Kitab"a salınan Eldar şamlarını kəsib, maşınlara yükləyib apardılar. Biz onlara heç cürə mane ola bilmədik. Həmin vaxt əraziyə çoxlu sayda polis gəlmişdi. Tikintinin sahibi bizi həbs etdirəcəyi ilə hədələyirdi".

**Bina sakinləri bildirdilər ki, bütün sənədlərdə ərazidə bina tikdirən şəxsin adı Qasımova Aidə Akif qızı gedir:** "Deyilənə görə, bu xanım biznesmendir. Ərazidə bina tikmək üçün əvvəlcə Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət edib. Lakin icra hakimiyyəti tikinti ilə bağlı icazə verməyib. Daha sonra Bakı meriyasına müraciət edən tikinti şirkəti "hə"cavabı alıb. Bakı meriyası Qasımova Aidə Akif qızının adına olan "Arxin-M LTD" MMC-yə tapşırıb ki, tikinti işləri ilə bərabər ərazidə abadlaşdırma işləri aparılsın. Eyni zamanda tikiləcək binanın ətrafında sakinlərin istirahəti üçün bağ salınsın. Meriyanın həmin sənədində yazılmışdı ki, əgər tikinti işləri aparılsa, ərazidəki ağaclar köçürüləcək. Amma bizdə video və fotoçəkilişlər də var. Onlara baxanda açıq-aşkar görünür ki, onlar ağacları kəsib, maşınlara yükləyib aparırlar".

### "Uşaqlar həyətdə oynaya bilmirlər"

**Bina sakinləri bildirdilər ki, ərazi zəbt olunduğundan evlərinə gedib-gəlməkdə çətinlik çəkirlər. Bina sakini Əli İbrahimovun sözlərinə görə, ağır tonnajlı yük maşınları və traktorlar gecə-gündüz demədən işləyir:** "Yaydır, istidən evdə oturmaq olmur. Pəncərəni açırsan toz-torpaq evə dolur. Uşaqlar həyətdə oynamaq istəyirlər. Bunların əlindən uşaqları həyətə də buraxa bilmirik. Binanın qarşısında sakinlər üçün oturacaqlar var idi. Hamısını söküb ərazini hasarlayıblar. Konkret olaraq deyirlər ki, şələ-şüləni yığışdırıb gedin bu ölkədən. Bakıda satmadıqları, özləri üçün obyekt tikmədikləri bir qarış belə boş torpaq qalmayıb".

### "Şikayət eləyirsən, qapında polis peyda olur"

Ağacların kəsilməsinə etiraz edən sakinlər bildirdilər ki, məsələ ilə bağlı Prezident Administrasiyasına (PA) və hüquq-mühafizə orqanlarına yazılı şikayət məktubu göndəriblər. PA-dan sakinlərin məktubunun qəbulu ilə bağlı bildiriş gəlib. Hüquq-mühafizə orqanlarına göndərilən məktublar isə baxılması üçün Binəqədi Rayon İcra Hakimiyyətinə yönləndirilib. **Arzu Məmmədova adlı sakinin sözlərinə görə, tikinti şirkətinin rəhbərliyi onlardan şikayət edən sakinlərin qapısına polis göndərir:** "Keçən dəfə polis gəlib deyir ki, bəs sizin oğlunuzu tanıyıram. Yəni demək istəyir ki, səsinizi çıxarmayın, oğlunuzu tutarıq. Görün bunlar Azərbaycanı hansı vəziyyətə gətiriblər".



### Nazirlik: "Məsələ dərhal nəzarətə götürüldü"

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova bildirdi ki, Binəqədidə ağacların kəsilməsi ilə bağlı məsələ dərhal nəzarətə götürülüb:** "Həmin ərazi ilə bağlı görüntülər bizə təqdim olunub. Əməkdaşlarımız həmin ərazidə olub, yoxlamalar aparacaq. Əgər hansısa bir ağacın qanunsuz olaraq kəsilməsi faktı aşkarlansa, həmin tikinti şirkəti barədə tədbir görüləcək".

**Nazirliyin sözçüsü bildirdi ki, prezident İlham Əliyev sonuncu müşavirələrdən birində ağac kəsənlərlə bağlı sərt tədbirlərin görülməsi ilə bağlı tapşırıq verib:** "Nazirlik Bakıda və rayonlarda tez-tez monitorinqlər aparır. Hansısa yerdə qanunsuz olaraq ağac kəsilirsə, həmin şəxslərə qarşı çox ciddi tədbirlər görülür. Eyni zamanda nazirliyin "168" qaynar xətti fəaliyyət göstərir. Vətəndaşlardan xahiş edirik, əgər belə bir halla rastlaşsalar, dərhal qaynar xəttə zəng vuraraq məlumat versinlər".

Ərazidə olarkən "Arxin-M LTD" MMC rəhbərliyi ilə görüşmək imkanımız olmadı. Onların da mövqeyini öyrənib dərc etməyə hazırıq.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

# Banklar istehsal sahələrini maliyyələşdirmirsə...

## Samir Əliyev: "Yerli malların alınması üçün banklar tərəfindən kreditlər verilməlidir"



Samir Əliyev

**Bankların real sektoru, yəni istehsal sahələrini maliyyələşdirməsi məsələsi yenidən gündəmə gəlib. Ekspertlərsə bildirirlər ki, qısa zamanda bankların real sektora üz tutmasını gözləmək sadəlövhlük olar. Nə qədər ki, real sektorda (söhbət paltar, mebel, ayaqqabı, parça, maşın, telefon və sair kimi istehsal sahələrindən gedir) yüksək risklər mövcuddur, kredit təşkilatları həmin sahəyə pul yönəltməkdə maraqlı olmayacaq.**

**İqtisadçı Samir Əliyevin** sözlərinə görə, hökumətin narahatçılığı başadüşüləndir: "Azərbaycanda istehlak kreditlərinin payı durmadan artır. 2005-ci ildə istehlak kreditinin ümumi kredit qoyuluşunda həcmi 27 faiz olduğu halda, hazırda bu rəqəm 41 faizə yüksəlib. 2014-cü ilin 5 ayında kredit qoyuluşunda müşahidə edilən 1,2 milyard manatlıq artımın 0,5 milyard manatı istehlak kreditlərinin payına düşür. Azərbaycan kimi ölkələrdə isə istehlak kreditlərinin indiki sürətlə artımı iqtisadiyyat üçün təhlükə yaradır. Çünki əhali borclanmaya gedir, istehlak kreditləri yerli yox, xarici istehsalı stimullaşdırır".

**Ekspertin sözlərinə görə, Almaniya, Fransa, Yaponiya, Cənubi Koreya və hətta Rusiya kimi ölkələrdə istehlak kreditləri əsasən yerli istehsalın dəstəklənməsinə yönəldilir. Həmin ölkələrdə istehsalı dəstəkləmək üçün istehlak krediti vasitəsilə tələbat yaradılır:** "Azərbaycanda situasiya fərqlidir. Əhali götürdüyü istehlak krediti ilə alman avtomobili, Cənubi Koreya telefonu, Fransa məişət texnikası, yapon televizoru və sair alır. Yerli sahibkarlar isə istehsal etmək üçün pul tapa bilmir. Ya da şərtlər o qədər ağır olur ki, sahibkar kredit götürməkdə maraqlı olmur. Axı kredit ölkədə iqtisadi inkişafı şərtləndirən amillərdəndir. Zəruri həcmdə kreditin olmaması iqtisadi aktivliyi azaldır və ölkə iqtisadiyyatında tənəzzül yaranır. Onsuz da yüksək olmayan kredit qoyuluşunun 40 faizinin istehlaka, 15 faizinin ticarət və xidmət sektoruna yönəldilməsi real sektora yönəldilən vəsaitin nə qədər az olduğunu göstərir".

**Samir Əliyev həmçinin vurğulayır ki, inzibati tədbirlər də heç bir səmərə verməyəcək. Əksinə, inzibati metodlar bank sektoruna zərbə vura bilər.** "Ona görə də stimullaşdırıcı tədbirlər barədə düşünmək lazımdır. Əgər banklar real sektoru birbaşa maliyyələşdirməkdə maraqlı deyillərsə, bu halda onları dolayı maliyyələşdirməyə stimullaşdırmaq olar. Real sektoru dolayı maliyyələşdirməyin yolu yerli malların alınması üçün banklar tərəfindən kreditlərin verilməsidir. Ölkədə az-çox inkişaf edən sahələrdən biri də mebel sənayesidir. Bu sahəyə istehlak krediti verməklə həm əhalinin mebel tələbatını ödəmək olar, həm də mebel istehsalını dəstəkləmək. Sumqayıt Texnologiyalar Parkını götürək. Parkda hazırda avadanlıqlar istehsal edilir və gələcəkdə onların çeşidi artırılacaq. Belə olan halda həmin məhsulların, məsələn, günəş kollektoru, nəyə görə kreditlə alışı təmin edilməsin? Bəzi banklar tərəfindən "indi al, pulunu hissə-hissə ödə" prinsipi ilə işləyən taksit kartları verilir. Həmin kartlar vasitəsilə yerli geyim mallarının alışını təmin etmək olar. Artıq adları əcnəbi dildə olan yerli brendlər formalaşır, onları dəstəkləmək lazımdır" - deyə, o qeyd edib.

**Onun sözlərinə görə, real sektorun maliyyələşdirilməsi vacib olduğundan, bu məsələ gündəmdə saxlanılmalıdır:** "Bununla bağlı açıqlamalarımızda təkliflərimizi vermişik. Ancaq ilkin dövrdə hökumət yerli istehsalı dəstəkləyən istehlak kreditləşməsinin stimullaşdırılması barədə düşünməlidir. İstehlak kreditləşməsinin ağırlığı xarici mallardan yerli mallara keçməlidir. Banklarla şirkətlər arasında bu sahədə əməkdaşlıq başlamalıdır".

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

N 182 (5881) 17 iyul 2014



# Qəlyan siqaretdən zərərlidir

Siqaretdən daha az zərərli hesab olunan qəlyanın uzun müddət çəkilməsi, əslində elə siqaret kimi zərərlidir və bir çox təhlükəli xəstəliklərə mübtəla olmağa gətirib çıxarır. Son tibbi tədqiqatlara əsasən, bir saat qəlyan çəkilməsi 100 ədəd çəkilmiş siqaretə bərabərdir. Məsələn, qəlyan çəkmək mədəniyyətinin son dərəcədə inkişaf etdiyi Misirdə hakimiyyət artıq bu ekzotik əyləncə ilə bağlı məhdudlaşdırma tədbirləri barədə söz açır. Lakin buna rəğmən, Avropa məkanında qəlyan həvəskarlarının sayı sürətdə artmaqdadır. Əvvəllər tütün çəkilməsindən daha az zərərli hesab olunan qəlyan siqaretdən də zərərlidir. Belə ki, tibb sahəsində çalışan alimlərin son araşdırmalarına görə, qəlyan ağciyərlərin, ürək-damar sisteminin xəstələnməsinə və həmçinin qorxulu xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, qəlyan tüstüsündə də siqaret tüstüsündə olan qədər karbon qazı, qatran və ağır metallar vardır. Qəlyan və siqaret tüstüləri arasında olan əsas fərq bunları çəkən adam tərəfindən udulan tütün tüstüsünün miqdarındadır. Qəlyan tüstüsündə insanın səhhəti üçün son dərəcə ziyanlı olan beriliyin, xromun, kobaltın və nikelin miqdarı, siqaret tüstüsündən olduğundan dəfələrlə çoxdur.

# Korluğu dərmanla müalicə etdilər

Kanadalı alimlər korluğun müalicəsində önəmli addımlar atıblar. McGill Universitetinin mütəxəssisləri doğuşdan kor olan bir xəstəni dərmanlarla müalicə edərək gözlərinin açılmasına səbəb olublar. Yeni dərman vasitəsi qismən kor olan, gənc yaşda gözlərini itirən, rəng koru olan, hərfləri və simaları görməyən xəstələr üçün hazırlanıb. 1997-ci ildən bəri gözünün açılması üçün çalışan Natali Fex adlı qadın dərmanın onun üzərində təcrübədən keçirilməsi üçün könüllü olduğunu deyib. Natali dərmanın ikinci dozasından sonra qaranlıqla işığı seçə bildiyini, üçüncü dozada qismən gördüyünü, dördüncü dozada isə oxumağı bacardığını deyib. Mütəxəssislərin sözlərinə görə, yeni dərman görmə qabiliyyətini 10% yaxşılaşdırır.



# 32 dollara "iPone 6"

ABŞ-ın "Apple" korporasiyası "iPhone" smartfonlarının son modeli "iPhone 6"nı sentyabrda rəsmən təqdim etməyi planlaşdırır. Lakin bu smartfonlar artıq Çində satılır. Milli.az "Nowhereelse"ə istinadən bildirir ki, hələ təqdim olunmamış "iPhone 6"nın "çinsayağı klonu" ötən həftə Şanxaydakı mobil avadanlıq dükanlarında satışa çıxarılıb. Ekspertlərin dediklərinə görə, bu "klon" əslində Android əməliyyat sistemi ilə işləyən və Çindəki çoxsaylı fabriklərdən birində hazırlanaraq "iPhone 6"nın ilkin versiyalarından birinə bənzədilmiş telefondur. "iPhone 6"nın əməliyyat sistemi Android əməliyyat sistemi üçün hesablanmış adi launçer proqramdır. 5,5 düymlük ekranı olan "iPhone 6" 199 yuana, yəni 32 dollara satılır. Saxta "iPhone 6" dünən Çinin ən böyük onlayn alış-veriş sistemləri olan "ThaoBao" və "Alibaba"da da satılmağa başlanıb. "Apple" korporasiyası sentyabrda "iPhone 6" smartfonunun 4,7 və 5,5 düymlük iki versiyasını təqdim edəcək. Smartfonların ilk partiyası Tayvandakı "Quanta Computer"in zavodlarında istehsal olunacaq.





# Tualetə getməyənə pul veriləcək

Amerikada bir şirkət gün ərzində tualetə getməyən işçilərinə əlavə pul verəcəyini açıqlayıb. "VaterSaver Faucet" adlı Amerika şirkəti gün ərzində işçilərinin tualetə getməsi üçün 5 dəqiqə vaxt verdiyini açıqlayıb. Bu qrafiklə çalışan işçilərə gündə 1 dollar əlavə pul veriləcək. Gün ərzində 5 dəqiqədən çox işdən yayınanlar isə normal maaşlarını alacaqlar. Şirkətin binasındakı tualetlərin hər birinə xüsusi aparatlar yerləşdirilib. Həmin aparat işçilərin tualetdə nə qədər vaxt keçirdiyini ölçür və ay sonunda dəqiqələri hesablayır. Bu günə qədər 19 nəfər şirkət işçisi haqqında tualetdə normadan çox zaman keçirdikləri üçün raport hazırlanıb. Şirkət sahibinin sözlərinə görə, işçilərin xüsusi rejimlə işləməsi işin səviyyəsini yüksəldir. Əks halda, işçilər lazımi qaydada çalışmırlar.




**QOÇ** - Səhər saat 09:06-dan mənfi enerjili Ay bürcünüzdə olsa da, aktivliyinizi artırmalısınız. Bunun öhdəsindən gəlsəniz, ulduzlar yardımçınız olacaq. Sənədləşdirmə işlərinə diqqət yetirin.

**BUĞA** - Müəyyən çalarlarına görə bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Uzaq səfərlərdən imtina edin.

**ƏKİZLƏR** - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olsa da, ailə-sevgi zəminində yeni mərhələyə qədəm qoyacaqsınız. Odur ki, bərk durun!

**XƏRÇƏNG** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**ŞİR** - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Göy qübbəsi ürəyinizi sevgisiz qoymamağı tövsiyə edir.

**QIZ** - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

**TƏRƏZİ** - Bu tarix şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün böyük əhəmiyyət kəsb edəcək. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıqucu gələn bütün yollara baş vurun.

**ƏQRƏB** - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılıq və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

**OXATAN** - Bu gün yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

**OĞLAQ** - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Mistik düşüncələrdən uzaq olun.

**SUTÖKƏN** - Əgər ixtiyarınızda olan bu ərəfədən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik məqamlar bəxş edəcək. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Yaşca sizdən böyük olanlara qulaq asın!

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 2 yaşlı uşaq anasının ölümünə səbəb oldu



Fransada bədbəxt hadisə baş verib. Vald Oise bölgəsində avtomobilin sükanı ilə oynayan iki yaşındakı uşaq anasının əzilərək ölümünə səbəb olub. Belə ki, ana avtomobili yuyarkən sürücü oturacağında oturan balaca mühərriki işə salıb. Nəticədə avtomobil 26 yaşlı ananın üstünə irəliləyib, qadın qarşıdakı avtomobilə sıxılaraq iki maşının arasında qalıb. Yerli mətbuatın məlumatına görə, bədbəxt anaya ilkin müdaxilə etmək gec olub. Xəstəxanaya yerləşdirilən qadın orada dünyasını dəyişib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.300